A. Q. İSABƏYLİ

# PAKİSTAN MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

*«Bakı Universiteti»*
*nəşriyyatı*
*2005*

Elmi redaktoru:
***A. N. Abbasbəyli***
***tarix elmləri doktoru, professor***

Rəyçilər:
***M. Ə. Baxışov***
***tarix elmləri namizədi, dosent***
***Q. H. Məmmədov***
***baş müəllim***

***A. Q. İsabəyli***
***Pakistan müasir beynəlxalq münasibətlər sistemində. Monoqrafiya. «Bakı Universiteti» nəşriyyatı, 2005. 152 səh.***

*Monoqrafiyada Pakistan İslam Respublikasının müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu araşdırılır.*

*Pakistanın region dövlətləri ilə münasibətlərinin xarakteri, "Dürand xətti" və Kəşmir problemləri, qlobal güclərlə əməkdaşlıq və nüvə sınaqları, həmçinin yeni yüzillikdə xarici siyasətinin əsas istiqamətləri, o cümlədən Pakistan-Azərbaycan münasibətlərinin inkişaf perspektivlərinin araşdırılması kimi məsələlər monoqrafiyanın aparıcı xəttini təşkil edir.*

*Kitab bu sahə ilə məşğul olan mütəxəssislər, müəllimlər, tələbələr, aspirantlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

P $\frac{0802000000-05}{M-658(07)-008}$ – 008 – 2005

© «Bakı Universiteti» nəşriyyatı, 2005

## KİTABIN İÇİNDƏKİLƏR

Giriş ........ 6
**I Fəsil.** Pakistanın region ölkələri ilə əməkdaşlığı: mövcud vəziyyət və inkişaf perspektivləri ........ 11
§ 1. Pakistanın xarici siyasət strategiyasında İran və Əfqanıstana münasibət ........ 11
§ 2. Pakistan-Çin əməkdaşlığı ........ 30
**II Fəsil.** Pakistanın xarici siyasətində ABŞ-ın yeri və rolu ........ 44
§ 1. 90-cı illərdə Pakistan-ABŞ münasibətləri ........ 44
§ 2. Pakistanın Əfqanıstanda "antiterror kampaniyası"nda iştirakı: məqsəd və nəticələr ........ 52
**III Fəsil.** Pakistan-Hindistan münasibətlərinin müasir vəziyyəti və inkişaf perspektivləri ........ 64
§ 1. Kəşmir problemi: ikitərəfli münasibətlərdə başlıca maneə ........ 64
§ 2. Nüvə sınaqları və sürətlə silahlanma: regional və qlobal rakursda ........ 90
**IV Fəsil.** Pakistanın Mərkəzi Asiya və Cənubi Qafqaz strategiyası ........ 102
§ 1. Pakistanın Mərkəzi Asiya respublikaları ilə əməkdaşlığı ........ 102
§ 2. Pakistan-Azərbaycan münasibətləri: mövcud vəziyyət və inkişaf perspektivləri ........ 122
**Nəticə** ........ 141
**Summary** ........ 146
*Müəllif haqqında* ........ 149

## PAKİSTAN HAQDA NƏ BİLİRİK






| | |
|---|---|
| **Ərazi** | 796.095 kv.km. (Azad Kəşmir ərazisi bura daxil deyil) |
| **Əhali** | 144.6 milyon (2001) |
| **Etnik tərkib** | pəncablılar, əfqanlar, sindhlər, bəluclar |
| **Dövlət dili** | urdu |
| **Dini mənsubiyyət** | 97% müsəlman:<br>77% sünni<br>20 % şiə<br>1.5% hinduist<br>1.5 % xristian |
| **Şəhər əhalisi** | 37 % |
| **Paytaxt** | İslamabad |
| **İri şəhərləri** | Kəraçi (9.2 milyon)<br>Lahor (5 milyon)<br>Feysəlabad (2 milyon)<br>Ravalpindi (1 milyon) |
| **Milli bayramlar** | Müstəqillik Günü – 14 avqust (1947),<br>Pakistan Günü – 23 mart (1956) |
| **İdarəetmə forması** | Respublika |



| | |
|---|---|
| **Ali qanunverici orqan** | Parlament (2 palatadan: Senat və Nümayəndələr Assambleyasından ibarətdir) |
| **Ali icraedici orqan** | Hökumət |
| **Prezident** | Pərviz Müşərrəf (2001) |
| **Baş nazir** | Şaukat Əziz (2004) |
| **İnzibati bölgü** | 4 əyalət: Pəncab, Sind, Şimal-Qərbi Sərhəd Əyaləti, Bəlucistan; Mərkəz tərəfindən idarə olunan Tayfalar Rayonu və paytaxt federal ərazisi |
| **Siyasi partiyalar** | Pakistan Xalq Partiyası (1967)<br>Pakistan Müsəlman Liqası (1947)<br>Camaat-e İslami (1941)<br>Mühacir Milli Cəbhəsi (1984)<br>Xalq Milli Partiyası |
| **Pul vahidi** | Pakistan rupisi |
| **ÜMM** | 1590 dollar (1997) |
| **Xarici turistlərin sayı** | 432 min nəfər (2000) |
| **İqtisadi fəal kişi əhalisi** | 84.6% (2000) |
| **İqtisadi fəal qadın əhalisi** | 35.7% (2000) |
| **İşsizlik** | 6.1 % (2000) |
| **Ticarət partnyorları** | Yaponiya, Avropa Birliyi, ABŞ, BƏƏ, Səudiyyə Ərəbistanı |
| **İdxalat** | maşınlar, kimyəvi məhsullar, qara və əlvan metal, çay, neft |
| **İxracat** | pambıq, düyü, balıq məhsulları, idman malları, dəri məhsulları, paltar |

## GİRİŞ

*II Dünya müharibəsindən sonra milli azadlıq hərəkatlarının genişlənməsi və müstəmləkə sisteminin süqutu ilə dünyanın siyasi xəritəsində onlarla yeni dövlət meydana gəldi. Belə dövlətlərdən biri Cənubi Asiya regionunda yerləşən və öz müstəqilliyini 1947-ci ilin avqustunda elan etmiş Pakistan İslam Respublikasıdır (PİR). Müasir dövrdə regionun və islam dünyasının ən nüfuzlu və qüdrətli dövlətlərindən birinə çevrilən Pakistanın xarici siyasət strategiya və taktikasının formalaşmasında, onun beynəlxalq münasibətlər sistemində yeri və rolunun müəyyənləşməsində mühüm rola malik faktorlara aşağıdakıları aid etmək olar:*

*Birincisi, üç regionun – Cənubi Asiya, Mərkəzi Asiya və Orta Şərqin qovşağında yerləşməsi.*

*İkincisi, regionda qeyri-sabitliyin az qala stabil hal alması, çoxillik münaqişə ocaqları və etnik müxtəlifliyin mövcudluğu, regionda bir-birinə zidd müxtəlif ideologiyaların toqquşması. Bu faktor bir tərəfdən Pakistan diplomatiyasının daha çevik və fəal siyasət yeritməsini, digər tərəfdən isə adı çəkilən məsələlərin Pakistanın öz qonşuları ilə münasibətlərində ciddi problemlər yaranmasını şərtləndirmişdir. Pakistanın yaxın qonşuları Əfqanıstan və İranla son dövrlərə qədər mövcud olmuş gərgin münasibətləri buna əyani misaldır.*

*Pakistan xarici siyasətinin formalaşmasına təsir göstərən digər faktor isə iqtisadi faktordur. Pakistanın zəif iqtisadi potensiala və təbii sərvətlərə malik olması nəticə etibarilə bu dövlətin diplomatiyasını beynəlxalq təşkilatların, ilk növbədə isə iqtisadi qurumların işində fəal iştirak etməyə sövq etmişdir. Təsadüfi deyildir ki, İqtisadi Əməkdaşlıq Təşkilatının (1985) yaradıcılarından biri məhz Pakistan olmuşdur. Beynəlxalq iqtisadi qurumların fəaliyyətində yaxından iştirak etməklə Pakistan regionun zəngin təbii sərvətlərə malik ölkələri ilə sıx əlaqələr qurmaq və bu yolla iqtisadi güc mərkəzinə çevrilmək məqsədi güdür.*

*Pakistanın xarici siyasətinin əsas imperativlərinin müəyyənləşməsində onun Hindistanla münasibətlərinin xarakteri mühüm rol oynamışdır. Öz yaxın qonşusu ilə gərgin münasibətlərin mövcudluğu nəticə etibarilə Pakistan-Çin müttəfiqliyinin yaranmasını, ABŞ-ın Pakistanın xarici siyasət strategiyasında daha mühüm yer tutmasını, Pakistanın islam ölkələri ilə yaxınlaşmasını, nüvə silahının əldə edilməsini və hərbi dairələrin nüfuzunun güclənməsini şərtləndirmişdir.*

*Pakistanın xarici siyasətinə hərbi dairələr və xüsusi xidmət orqanlarının təsir imkanlarının mövcudluğu bu ölkənin xarici siyasət idarəsinin mühüm spesifik əlaməti sayıla bilər. Maraqlı bir faktı qeyd edək ki, Pakistanın müstəqil olduğu 57 illik dövrün təxminən 30 ili xarici siyasət kursunun müəyyənləşdirilməsi və həyata keçirilməsi birbaşa hərbi elita ilə bağlı olmuşdur ki, bu da Pakistanın xarici siyasi kursunda iz qoymaya bilməzdi. Pakistan diplomatiyası tərəfindən bir sıra hallarda problemin həlli üçün hərbi variantın seçilməsi (məsələn, "Taliban"), həmçinin nüvə strategiyasının hərbi komandanlığın nəzarətində olması dediklərimizə sübutdur.*

*Pakistanın xarici siyasətinin formalaşmasında rol oynamış digər faktor din – islam faktorudur ki, bu da təsadüfi sayılmamalıdır. Belə ki, Pakistan ərazisində milli azadlıq mübarizəsində islami təmayüllü Müsəlman Liqası partiyasının öndə getməsi (və müstəqillik qazanıldıqdan sonra uzun müddət hakimiyyətdə təmsil olunması), çoxmillətli Pakistanda islamın ideoloji əsasa çevrilməsi, xüsusilə Hindistanla mübarizə şəraitində bütün Pakistan cəmiyyətini səfərbər edə biləcək ideologiyanın zəruriliyi nəticə etibarilə Pakistanın xarici siyasət kursuna da öz təsirini göstərmişdir. Pakistan diplomatiyasının islam aləmində möv-*

*cud problemlərə münasibətdə məhz islam həmrəyliyi prinsipini əsas götürməsi, Pakistan tərəfindən İsrailin bu günə qədər tanınmaması və Hindistana münasibətdə Pakistan ictimaiyyətinin vahid mövqedən çıxış etməsi dediklərimizə bariz nümunədir.*

*Pakistanın xarici siyasətinin həyata keçirilməsinə təsir göstərən amillərdən biri də nüvə silahının mövcudluğudur. Pakistanın nüvə silahını əldə etməsi və faktik olaraq Nüvə Dövlətləri Klubuna daxil olması istər regionda, istər islam dünyasında, istərsə də beynəlxalq münasibətlər sistemində onun yeri və roluna əhəmiyyətli təsir göstərmiş, PİR-in güc və nüfuzunun artması, onun Hindistanla rəqabət imkanlarının artması üçün geniş imkanlar açmışdır.*

*Əsrimizin qlobal problemlərindən olan beynəlxalq terrorizmlə mübarizədə Pakistanın oynadığı rol da inkaredilməzdir. Bu rol xüsusilə 2001-ci il 11 sentyabr hadisələrindən sonra daha da artmışdır. ABŞ-ın terrorla mübarizə sahəsində bölgədə ən yaxın müttəfiqi də məhz Pakistandır.*

*Mövzunun aktuallığını şərtləndirən daha bir amil Pakistan-Azərbaycan münasibətləri ilə bağlıdır. Dövlət müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası Pakistan dövlətinin tarixi təcrübəsindən çox şey əxz edə bilər: dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpası sahəsində güclü hərbi-texniki və diplomatik dəstəyə ehtiyac duyan Azərbaycanın dünyanın ən güclü ordularından və nüfuzlu diplomatiyalarından birinə malik Pakistanla bu sahədə sıx əməkdaşlıq etməsi zəruridir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin ölkəmizə rəsmi səfərə gələn Pakistanın dövlət başçısı P. Müşərrəflə görüşü zamanı səsləndirdiyi fikirlər bu baxımdan diqqətəlayiqdir: "Pakistan və Azərbaycan müttəfiq ölkələrdir. Biz bir-birimizi çox yaxşı başa düşürük. Beynəlxalq, regional məsələlərdə bizim mövqeyimiz üst-üstə düşür. Mən əminəm ki, bu səfərdən sonra aramızda olan əlaqələr daha da güclənəcək". İki ölkə arasında əlaqələrin güclənməsi milli maraqlarımızın beynəlxalq səviyyədə daha uğurla təmin olunmasına və Dağlıq Qarabağ probleminə münasibətdə Azərbaycan Respublikasına beynəlxalq dəstəyin artmasına gətirib çıxarar.*



*"Soyuq müharibə" illərində Pakistan diplomatiyasının fəaliyyəti, Pakistan xarici siyasətinin əsas istiqamətləri, XX əsrin II yarısında Pakistanın beynəlxalq münasibətlər sistemində yeri və rolu barədə dolğun məlumat əldə etmək baxımdan bu dövrdə meydana gəlmiş tədqiqat əsərləri böyük əhəmiyyətə malikdir. Lakin qeyd etmək zəruridir ki, bu tədqiqat əsərləri özündə o dövr üçün səciyyəvi ideoloji müharibənin izlərini qoruyub saxlayır ki, bu da obyektiv informasiya alınması işini bir qədər çətinləşdirir. Bunun üçün problemin hərtərəfli öyrənilməsi və araşdırılması, problemlə bağlı ən son yeniliklərin tədqiqi və təhlili məqsədilə son dövrdə nəşr olunmuş elmi ədəbiyyatlardan geniş istifadə edilmişdir. Yeni tədqiqatlarda Pakistanın yüzilliklərin qovuşağındakı xarici siyasi fəaliyyəti işıqlandırılır, xüsusilə Pakistan-ABŞ münasibətləri, nüvə sınaqları, Kəşmir probleminin müasir vəziyyəti, Pakistan-Azərbaycan əlaqələri, beynəlxalq terrorçuluğa qarşı mübarizədə Pakistanın iştirakı nəzərdən keçirilir. Kompüter texnologiyasının sürətli inkişafı və ümumdünya kompüter şəbəkəsi – İnternetin yaranması yeni və dolğun informasiya əldə edilməsi baxımından müasir dövrümüzün ən mühüm nailiyyətlərindən biri sayıla bilər. Bu baxımdan kitab yazılarkən 11 sentyabr hadisələrindən sonra Pakistanın xarici siyasi fəaliyyətində yeniliklər, antiterror kampaniyası və Pakistanın iştirakı, Pakistanın nüvə siyasəti və Mərkəzi Asiya strategiyası, həmçinin Pakistan rəsmilərinin Azərbaycan Respublikasına ən son səfərləri ilə bağlı İnternet materialları, yerli və xarici mətbuat nümunələri və sənədlərdən geniş istifadə olunmuşdur.*

*Tədqiqatda qarşıya qoyulan məqsəd və vəzifələr aşağıdakılarla bağlıdır:*

*– Pakistanın müasir dövr xarici siyasətinin əsas prioritetlərinin öyrənilməsi;*

*– Pakistan diplomatiyası, onun region və dünyada gedən proseslərə təsir imkanları barədə dolğun informasiyanın əldə olunması;*

*– 11 sentyabr hadisələrindən sonra formalaşmaqda olan yeni dünya düzənində Pakistanın artan rolu və nüfuzunun (bu xüsusda ikinci əfqan kampaniyasında Pakistanın əldə etmiş olduğu nailiyyətlərin) araşdırılması;*

*– Dünyanın ən uzunömürlü münaqişələrindən olan Kəşmir probleminin nizamlanması ilə bağlı ən son variantların və 11 sentyabr hadisələrinin münaqişə zonasında doğurduğu nəticələrin işıqlandırılması;*

*– Cənubi Asiya bölgəsində nüvə qarşıdurması, Pakistan və Hindistanın nüvə strategiyaları və bu strategiyaların yeni komponentlərinin tədqiq edilməsi;*

*– Pakistanın beynəlxalq münasibətlər sistemində gələcək rolu və yeri ilə bağlı perspektivlərini proqnozlaşdırmaqdır.*

*Azərbaycan cəmiyyətində Pakistan ilə bağlı bir informasiya qıtlığı mövcuddur, elmi-ictimai dairələr Azərbaycan Respublikasının bu yaxın müttəfiqi və onun diplomatiyası barəsində qaneedici, bitkin məlumata malik deyillər. Bir məqsəd də məhz bu boşluğu bu və ya digər dərəcədə aradan qaldırmaqdır.*

*Dünyanın qüdrətli dövlətlərindən olan Pakistanın müasir beynəlxalq münasibətlər sistemində yeri və rolunu araşdıran əsər bu sahədə ilkin tədqiqat işlərindən biri kimi sözsüz ki, nöqsanlardan xali deyildir.*

*Bu baxımdan kitab haqqında öz qeyd və təkliflərini bildirəcək oxuculara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.*



# I FƏSİL

## PAKİSTANIN REGİON ÖLKƏLƏRİ İLƏ ƏMƏKDAŞLIĞI: MÖVCUD VƏZİYYƏT VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

### § 1. Pakistanın xarici siyasət strategiyasında İran və Əfqanıstana münasibət

Pakistan dövləti yaradılarkən elan etdiyi mühüm xarici siyasət prinsiplərindən biri qonşu ölkələrlə dinc yanaşı yaşamaq prinsipi idi. Pakistan rəhbərliyi yaxşı anlayırdı ki, qonşu dövlətlərlə qarşılıqlı faydalı və stabil münasibətlər qurulmadan PİR-in təhlükəsizliyi və milli maraqlarının təmin olunmasından, uğurlu xarici siyasi fəaliyyətindən söhbət gedə bilməz. Lakin hadisələrin sonrakı inkişafı göstərdi ki, bu prinsipi həyata keçirmək heç də asan olmayacaq.

Bu fəsildə Pakistanın yaxın qonşuları – İran, Əfqanıstan və Çinlə mövcud münasibətlərindən, PİR-in regionda oynadığı roldan söz açmağa çalışacağıq.

Əlverişli geostrateji mövqedə yerləşən, zəngin təbii sərvətlərə malik olan və bölgədə aparıcı dövlətlərdən biri sayılan İran İslam Respublikası Pakistanın xarici siyasətində özünəməxsus yerlərdən birini tutur. 1979-cu il İran islam inqilabına qədər hər iki dövlət ABŞ-ın regionda müttəfiqi kimi bir-birilə əməkdaşlıq edirdilər. Lakin XX əsrin son onilliklərində bu qonşu ölkələr arasındakı münasibətlər daha çox gərginliklə müşayiət olunduğundan ilk öncə hər iki dövlət arasında mövcud problemlərə toxunmaq, onlardan bəhs etmək istərdik:

a) Ziddiyyət doğuran ən mühüm məsələ dövlətlərin fərqli siyasi meylləri ilə bağlıdır. Antiamerikan siyasət yeridən İrandan fərqli olaraq PİR Qərbyönümlü siyasət yeridir və bölgədə ABŞ-ın yaxın müttəfiqlərindən hesab edilir. Məhz bu amil hər 2 dövlətin bir-birinə tam surətdə yaxınlaşmasını və dostluq münasibətlərinin qurulmasını əngəlləyir[1];

b) Hər iki dövlətin İslam aləmində liderliyə iddialı olması onların maraqlarının toqquşmasına gətirib çıxarır;

c) İran rəhbərliyi Pakistanın nüvə silahı yaratmaq sahəsində atdığı addımları və bu addımların məntiqi nəticəsi olaraq 1998-ci ilin mayında keçirilmiş nüvə sınaqlarını narahatlıqla qarşılamışdı. Bu məsələ ilə bağlı Qərb analitiklərindən biri bildirmişdi: "Əgər mən İran hökuməti yanında hərbi müşavir olsaydım, mən oranın hökumətinə dərhal raket-nüvə silahı əldə etməyi məsləhət görərdim"[2]. Sözsüz ki, İranın qonşuluğunda nüvə dövlətinin meydana çıxması, bu dövlətin ABŞ-ın yaxın müttəfiqi və islam dünyasında liderliyə iddialı olması və nüvə dövləti statusundan istifadə edərək bölgədə mövqelərini möhkəmlətməyə can atması İran hakim dairələri üçün narahatlıq yaratmaya bilməzdi.

Tərəflər həmçinin bir-birlərinin raket proqramlarını inkişaf etdirmələrinə də müəyyən qısqanclıqla yanaşırlar. Məsələn, 2002-ci ilin mayında İran "Şahab-3" raketinin sınaqlarını keçirəndə buna cavab olaraq Pakistan da "Hətf-2" (1500 km) və "Hətf-3" (290 km) raketlərinin sınağını keçirtdi[3]. Yeri gəlmişkən, bu yolla PİR rəhbərliyi təkcə İrana deyil, əzəli rəqibi Hindistana da mesaj göndərmiş olurdu;

ç) Tərəflər bir-birilərini özlərinin daxili işlərinə qarışmaqda ittiham edirlər. Məsələn, İran Pakistan xüsusi xidmət orqanlarını İran Bəlucistanında separatçı qüvvələrə yardım etməkdə ittiham edir. Qeyd edək ki, İranın Pakistanla həmsərhəd rayonlarında 1 milyondan çox bəluc yaşayır və onlar arasında anti-İran meyllərinin güclü olması tez-tez İran hökumət qüvvələri ilə silahlı toqquşmalarla nəticələnir. Öz növbəsində Pakistan da İranı şiə faktorundan yararlanmaqda və Pakistanın daxilində sünni-şiə qarşıdurması yaratmaqda ittiham edir (şiələr Pakistan əhalisinin 20%-ni təşkil edirlər). Bununla bağlı bir məqama diqqət yetirmək istərdik: 1980-ci ildə PİR rəhbərliyinin "Zəkat və üşrənin (İslam vergiləri) toplanmasının dövlət reqlamentləşdirilməsi haqqında Akt" qəbul etməsi ölkədə yaşayan şiələrin kəskin etirazına səbəb olmuş və çoxsaylı toqquşmalarla nəticələnmişdi. Bu hadisə, eləcə də İranda 1979-cu il İslam inqilabı nəticəsində şiə din xadimlərinin hakimiyyətə gəlməsi Pakistan-İran münasibətlərində müəyyən soyuqluğa səbəb olmuş və yuxarıda qeyd etdiyimiz ittihamın səslənməsinə rəvac vermişdir;

d) Pakistan ilə Türkiyə Cümhuriyyəti arasında sıx münasibətlərin (xüsusilə hərbi və hərbi-texniki sahədə) olması, həmçinin hər iki dövlətin ABŞ-ın yaxın müttəfiqləri sayılması da İranı narahat etməyə bilməz;

e) İran Transəfqan neft-qaz kəməri layihəsinə kifayət qədər soyuq münasibət bəsləyir. Bu da layihə həyata keçəcəyi təqdirdə qonşu Pakistanın iqtisadi baxımdan xeyli güclənəcəyi və Mərkəzi Asiya respublikaları üçün körpü rolunu oynayacağı təhlükəsi ilə bağlıdır. İranın bununla bağlı öz variantı vardır: Mərkəzi Asiya neft və qazının İran (Fars körfəzi) vasitəsilə dünya bazarına çıxarılması; lakin 2002-ci ilin may və dekabrında zəngin qaz ehtiyatlarına malik Türkmənistan kəmərin keçəcəyi Əfqanıstanla birlikdə kəmərin Pakistan ərazisinə çəkilməsi və Hind okeanı vasitəsilə dünya bazarına çıxarılması qərarını vermişlər ki, bu da İranın planlarına müəyyən zərbə vurmuş oldu;

ə) Və nəhayət, "əfqan məsələsi"ndə mövcud fikir ayrılıqları – Hər iki ölkənin yaxın qonşusu olan Əfqanıstan üzərində nəzarət istər PİR-in, istərsə də İranın mühüm xarici siyasi istiqamətlərindən birini təşkil edirdi. Bu yolda İran Əfqanıstanda yaşayan və əksəriyyəti həzarələrdən (Əfqanıstanın əsasən mərkəzində yaşayan xalq) ibarət olan şiələrə, Pakistan isə puştun çoxluğuna arxalanırdı. Buna baxmayaraq sovet müdaxiləsi və Nəcibulla rejimi zamanı Pakistan və İran eyni mövqedən çıxış edirdilər: onların hər ikisini kommunizm təhlükəsinə qarşı mübarizə birləş-

dirirdi. Lakin 90-cı illərin ortalarında vəziyyət dəyişdi. Meydana "Taliban" çıxdı. İran Pakistanın yeni geosiyasi planında öz maraqları və regiondakı nüfuzu üçün təhlükə gördüyündən buna sərt reaksiya verdi; İran-Pakistan münasibətlərində nəzərəçarpacaq soyuqluq yaranmağa başladı. 1996-cı ilin sentyabrında Kabilin taliblər tərəfindən alınmasını İran rəsmiləri "böyük bədbəxtlik" adlandırmışdılar[4]. 1998-ci ilin yayında Əfqanıstanın Məzari-Şərif şəhərində 9 iranlı diplomatın "Taliban" hərəkatı tərəfindən qətlindən sonra isə İran-Pakistan münasibətlərində gərginlik özünün kulminasiya nöqtəsinə çatmış oldu. İran Əfqanıstanla sərhədə, Pakistan ərazisi yaxınlığına güc nümayişi məqsədilə təxminən 200 minlik ordu yığdı. Pakistan rəhbərliyi isə xüsusi nümayəndələr göndərməklə vəziyyəti sabitləşdirməyə və münaqişənin eskalasiyasına yol verməməyə çalışırdı.[5]

1998-ci ilin sentyabrında BMT-nin iclasında Pakistanın baş naziri N.Şəriflə İran prezidenti Məhəmməd Xatəmi arasında görüş keçirilmişdi. Görüşdə mütəmadi olaraq hər iki dövlətin yüksək rütbəli şəxsləri səviyyəsində görüşlərin təşkili qərara alınmışdı.

Artıq 90-cı illərin sonlarından etibarən Pakistan-İran münasibətlərində istiləşmə meylləri müşahidə olunmağa başlamışdır. Hər iki ölkənin diplomatiyası anlayır ki, mövcud problemləri qarşıdurma yolu ilə deyil, əməkdaşlıq yolu ilə həll etmək olar. Xüsusilə iqtisadi sahədə əməkdaşlıq hər iki dövlətin maraqlarına cavab verir.

1999-cu il dekabrın 8-9-da Pakistan İcra Hakimiyyətinin başçısı Pərviz Müşərrəf İrana rəsmi səfərə gəldi. Səfərdən əsas məqsəd Pakistanda cari ilin oktyabrında baş vermiş siyasi dəyişikliklərlə əlaqədar İran rəhbərliyini məlumatlandırmaq, regional məsələləri (ilk növbədə Əfqanıstan problemini) və iqtisadi əməkdaşlıq perspektivlərini müzakirə etmək idi. Danışıqlar gedişində P.Müşərrəf Pakistan-İran qaz kəmərinin Hindistan ərazisinə uzadılması ideyasına öz razılığını bəyan etdi. Xatırladaq ki, çəkilişi hələ həyata keçirilməmiş bu qaz kəmərinin uzunluğunun



2670 km olması və təxminən 5 milyard ABŞ dolları dəyərində başa gəlməsi nəzərdə tutulur. Qaz kəmərinin çəkilişi nəticə etibarilə hər üç dövlət arasında iqtisadi və deməli, siyasi əməkdaşlığın genişlənməsi, mövcud problemlərin öz həllini tapması üçün əlverişli şərait yarada bilər. Lakin dəfələrlə müzakirə edilməsinə rəğmən bu layihənin reallaşdırılması yolunda hələ ki, heç bir əməli tədbir görülməyib. Bu da ilk növbədə Hindistanın mövqeyi ilə bağlıdır: hind diplomatiyası Pakistanın tranzit ölkə statusundan istifadə edərək Hindistanı bu layihə vasitəsilə bir növ özündən asılı duruma salacağından ehtiyat edir[6].

2000-ci il iyunun birinci dekadasında P. Müşərrəf yenidən İrana səfər etmişdi. Səfər İƏT-nin sammiti ilə bağlı idi. Səfər zamanı P. Müşərrəf və M. Xatəmi Əfqanıstanda vətəndaş müharibəsinin dayandırılmasının zəruriliyini vurğulamışdılar.

Ümumilikdə götürülsə, təkcə on il ərzində (1990-2000) tərəflər arasında 17 səfər həyata keçirilmişdir. Pakistan rəsmiləri qonşu ölkəyə 9 dəfə (məsələn, prezidentlər Qulam İshaq Xan və Faruq Əhməd Leqari, baş nazirlər B. Bhutto, N. Şərif və s.), İran diplomatları isə Pakistana 8 dəfə (prezident M. Ə. Haşimi Rəfsəncani, xarici işlər nazirləri Əli Əkbər Vilayəti və Kamal Xərrazi) səfər etmişlər. Bu səfərlər gedişində müzakirə olunan əsas məsələlər Əfqanıstanda sabitliyə nail olunması, iqtisadi əməkdaşlıq yolları, regionda sülh və təhlükəsizliyin təmini, narkotik dövriyyəsinə qarşı birgə mübarizə olmuşdur[7].

Qarşılıqlı səfərlər 2001-ci il 11 sentyabr hadisələrindən sonra daha müntəzəm xarakter almağa başlamışdır. Həmin ilin noyabrında İranın xarici işlər naziri Kamal Xərrazi Pakistana 3 günlük səfərə gəlmişdi. Səfər gedişində PİR prezidenti P. Müşərrəf və pakistanlı həmkarı Əbdül Səttarla görüşən K. Xərrazi bəyan etmişdi ki, Pakistan hökuməti "Taliban"la əlaqələri kəsdikdən sonra İran və Pakistan arasında ciddi fikir ayrılıqları qalmayıbdır və iki ölkə arasında əməkdaşlığın yeni erası başlanıbdır. Bu optimist bəyanata rəğmən bir sıra ekspertlər əfqan məsələsində iki

dövlət arasında müəyyən fikir ayrılıqlarının mövcudluğunu qeyd edirdilər ki, bu da ilk növbədə posttaliban Əfqanıstanında kimin hakimiyyətə gələcəyi ilə bağlı idi: İran tacik mənşəli Bürhanəddin Rəbbaninin Əfqanıstanda hakimiyyətdə qalmasını istəyirdi, Pakistan isə yeni kabinetdə puştunların çoxluq təşkil etməsi və yeni prezidentin Əfqanıstanın keçmiş şahı Məhəmməd Zahir şah olmasını arzulayırdı[8]. Posttaliban Əfqanıstanının gələcəyi ilə bağlı daha iki məsələdə tərəflər arasında fikir ayrılığı mövcud idi: İran Kabilin istisnasız olaraq "Şimal Alyansı"nın nəzarətində qalmasını istəyirdisə, Pakistan paytaxtın demilitarizasiya zonası elan edilməsinin (yəni şəhərdə heç bir hərbi qüvvənin yerləşməməsinin) tərəfdarı idi. Bu zaman Pakistan diplomatiyası 1992-ci ilin acı nəticələrindən çıxış edirdi. Bildiyimiz kimi, həmin ilin aprelində ölkə paytaxtını ələ keçirən mücahidlər (onların bir çoxu 2001-ci ilin payızında "Şimal Alyansı"nın tərkibində döyüşürdülər) nəinki burada sabitliyi təmin edə bilməmiş, əksinə, Kabilə nəzarət uğrunda onların öz aralarında qanlı mübarizə başlanmışdı. Digər məsələ "mötədil taliblər"in yeni əfqan hökumətində iştirak edib-etməməsi idi. PİR "mötədillər"in hakimiyyətdə qalmasını istərkən İran qəti şəkildə bunun əleyhinə gedirdi. Bildiyimiz kimi, 3 il əvvəl aktual olan bu məsələ hal-hazırda öz həllini tapıb: ölkə paytaxtı beynəlxalq sülhməramlı qüvvələrin nəzarətindədir, yeni əfqan hökumətində isə taliblərin heç bir nümayəndəsi yoxdur.

2002-ci ilin dekabrında İran prezidenti M. Xatəmi Pakistana səfərə gəlmişdi. Səfər əsnasında ölkə prezidenti Pərviz Müşərrəf və yeni baş nazir Mir Zəfərulla Xan Camali ilə keçirdiyi görüşlərdə İranın dövlət başçısı regional problemləri, birinci növbədə isə İraq məsələsi və Hindistan-Pakistan qarşıdurmasını müzakirə etmişdi. Görüş zamanı həmçinin İran-Pakistan-Hindistan qaz kəməri ideyası da diqqət mərkəzində olmuşdu. Qeyd edək ki, bu səfərdən cəmi bir ay əvvəl – 2002-ci ilin noyabrında Pakistan Xalq Partiyasının liderlərindən biri və Şimal-Qərbi Sərhəd Əyalətinin keçmiş baş naziri Aftab Əhməd Xan bildirmişdi



ki, yenicə təşkil olunan Pakistan hökuməti ilk növbədə regionun müsəlman ölkələri və bu sırada birinci olaraq İranla əməkdaşlığı daha da genişləndirməyə çalışmalıdır. Bu fakt da onu göstərir ki, Pakistanda artıq regionun zəngin və qüdrətli dövlətlərindən olan İranla münasibətlərin pozulmasına yox, əksinə, inkişaf etdirilməsinə böyük əhəmiyyət verməyə başlamışlar[9].

Daha maraqlı bir məqam: ABŞ prezidenti Corc Buş-oğul 2001-ci ilin payızında "Şər oxu" terminindən istifadə edərkən (xatırladaq ki, bu ad altında 3 dövlət – İran, İraq və Şimali Koreya nəzərdə tutulurdu) Müşərrəf hökuməti bu təsnifat ilə razı olmadığını bəyan etmişdi[10]. Bu yolla PİR diplomatiyası ikinci əfqan savaşında ABŞ-a verdiyi əhəmiyyətli dəstəyin nəticəsində islam dünyasında zəifləmiş nüfuzunu bərpa etməyə, həmçinin İran rəhbərliyinə qarşıdurmada deyil, əməkdaşlıqda maraqlı olduğunu göstərməyə çalışırdı. Pakistan rəsmiləri dəfələrlə bəyan etmişdilər ki, heç bir vəchlə öz ölkələrindən qonşu İran əleyhinə istifadə edilməsinə (burada sözsüz ki, ilk növbədə ABŞ-ın hərbi müdaxiləsi nəzərdə tutulur) yol verməyəcəklər. Bir sözlə, istər Müşərrəf administrasiyasının C. Buşun məlum çıxışına reaksiyası, istərsə də yuxarıda qeyd edilən bəyanatlar bunu deməyə əsas verir ki, ABŞ ilə yaxın müttəfiq olmasına və İranla aralarında bir sıra problemlərin mövcudluğuna baxmayaraq Pakistan öz qonşusuna münasibətdə düşmənçilik və qarşıdurma niyyətlərindən uzaq olduğunu vurğulamağa çalışır.

2003-cü ilin oktyabrında İslam Konfransı Təşkilatının Kuala-Lumpurda (Malayziya) keçirilən toplantısında Pakistan prezidenti P.Müşərrəf və onun iranlı həmkarı M.Xatəmi arasında növbəti görüş keçirilmişdi. İran prezidenti Əfqanıstanda vəziyyətin gərgin və qeyri-stabil olmasından narahatlığını dilə gətirərək hər iki tərəfin Əfqanıstan və digər böhranlı ərazilərdə əməkdaşlığının zəruriliyini qeyd etmişdi. M. Xatəminin görüş zamanı toxunduğu digər maraqlı məsələ Əfqanıstandan xarici hərbi qüvvələrin çıxarılması idi. Xatəmiyə görə, bunu regionda yaşayan

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

xalqların maraqları tələb edir. Aydındır ki, xarici hərbi qüvvələr dedikdə İran prezidenti ABŞ hərbi kontingentini və Kabildə yerləşdirilmiş beynəlxalq sülhməramlı qüvvələri nəzərdə tuturdu. İranın bu mövqedən çıxış etməsi və xarici hərbi qüvvələrin Əfqanıstandan çıxarılması istiqamətində səylərini artırması anlaşılandır. ABŞ-ın "Şər oxu"na daxil etdiyi İran öz qonşuluğunda amerikan hərbi bazalarının mövcudluğunu sözsüz ki, narahatlıqla qarşılayır. Öz növbəsində Pakistan rəhbərliyi də Əfqanıstanda sülh və sabitlik bərqərar olduqdan sonra xarici hərbi qüvvələrin ölkədən çıxarılmasının tərəfdarı qismində çıxış edir ki, bu da maraq doğurmaya bilməz. Zənnimizcə, Pakistanın bu mövqeyi iki baxımdan izah oluna bilər:

a) Əvvəla, bu məsələdə ictimai rəyin nəzərə alınması və onunla hesablaşmaq faktoru mövcuddur. Pakistanda ictimai rəy isə qəti şəkildə qonşu Əfqanıstanda xarici hərbi qüvvələrin (ilk növbədə isə amerikan hərbçilərinin) qalmasına mənfi münasibət bəsləyir və vaxtaşırı onların çıxarılmasını tələb edir. Yəni Pakistan diplomatiyası bu məsələ ilə bağlı öz mövqeyini açıqlayarkən Pakistan ictimaiyyətinin əhvali-ruhiyyəsini nəzərə almış olur;

b) Digər tərəfdənsə, birinci əfqan müharibəsindən fərqli olaraq indi nəinki Əfqanıstanda, həmçinin Mərkəzi Asiya respublikalarında amerikan hərbi bazaları və deməli, amerikan hərbi iştirakı mövcuddur ki, bu da PİR rəhbərliyini qayğılandırmaya bilməz. Pakistan rəhbərliyi ehtiyat edir ki, bu hərbi bazaların mövcudluğu şəraitində (nəzərə alsaq ki, gələcəkdə ABŞ-ın regionda hərbi iştirakını artırmaq perspektivləri vardır) Pakistanın bu superdövlət üçün hərbi əhəmiyyəti bu və ya digər dərəcədə azalmış olacaq. Buna görə də Pakistan diplomatiyası yuxarıda qeyd etdiyimiz mövqedən çıxış edir.

Tərəflərin ortaq mövqedən çıxış etdikləri digər məsələlər sırasında aşağıdakıları göstərmək olar:

– İqtisadi əlaqələrin inkişaf etdirilməsi. Pakistan-İran iqtisadi əlaqələri 1986-cı ildə yaradılmış Pakistan-İran birgə İqtisadi Komissiyası tərəfindən tənzimlənir. Komissiya iqtisadi və ticari əməkdaşlığın konkret inkişaf yollarını araşdırır, həmçinin bu sahədə qəbul edilən qərarların həyata keçirilməsinə nəzarət edir[11]. 1996-2000-ci illərdə Pakistanın İran ilə ixrac-idxal əməliyyatlarının miqyasını daha yaxşı anlamaq məqsədilə aşağıdakı cədvələ nəzər yetirək:

Pakistanın İran ilə ixrac-idxal əməliyyatları:
(ABŞ dolları ilə)

| İl | İxrac | İdxal |
|---|---|---|
| 1996-97 | 15.900 min | 285.900 min |
| 1997-98 | 23.530 min | 157.900 min |
| 1998-99 | 11.310 min | 77.990 min |
| 1999-2000 | 11.480 min | 130.277 min |

Gördüyümüz kimi, 1996-98-ci illərdə hər iki ölkə arasında ticarət əməliyyatları kifayət qədər genişhəcmli olmuşdur. Lakin növbəti – 1998-99-cu illərdə ixrac-idxal əməliyyatlarının miqdarında azalma müşahidə olunur ki, bu da ilk növbədə bölgədə cərəyan edən siyasi proseslərlə – iranlı diplomatların taliblər tərəfindən qətli və "Taliban" hərəkatının İran sərhədlərinə çıxması ilə bağlıdır. Yalnız Pakistan rəsmilərinin, o cümlədən P. Müşərrəfin İrana səfərlərindən sonra mövcud gərginlik azalmağa və buna müvafiq olaraq ticarət əməliyyatlarının həcmi artmağa başladı. Biz bunu 1999-2000-ci illərin ixrac-idxal əməliyyatlarında aydın görə bilərik;

– Hər iki dövlət ümumi sərhədə malik olduğundan narkotik qaçaqmalçılığı və terrorizm əleyhinə birgə mübarizə hər iki dövlət üçün xüsusi əhəmiyyət kəsb edir. 2003-cü il martın 16-17-də Kvettada (Pakistan) Pakistan-İran sərhəd məsələlərinin nizamlanması üzrə Qarışıq Komissiyasının 13-cü iclası keçirilmişdi. İclasda müzakirə edilən əsas məsələlər sərhədyanı qaçaqmalçılıqla mübarizə, sərhədlərin birgə patrulu, hər iki ölkə sərhəd xidməti rəsmilərinin birgə əməkdaşlığı olmuşdu. Danışıqların yekunu olaraq

tərəflər arasında sərhədyanı qaçaqmalçılığın qarşısının alınması və Pakistan-İran sərhəddinin təhlükəsizliyinin möhkəmləndirilməsi barədə Memorandum imzalanmışdı[12];

– Sərhədyanı rayonlarda (ilk növbədə İranın Sistan və PİR-in Bəlucistan əyalətlərində) stabilliyin qorunub saxlanılması və iqtisadi əlaqələrin inkişaf etdirilməsi. Qeyd edək ki, bu iki qonşu əyalət arasında sıx iqtisadi əlaqələr mövcuddur. Məsələn, 2004-cü ildə PİR-in İrandakı səfiri Aqbal Əhməd Xanla İranın Zahedan Ticarət Palatasının sədri Fətholla Narui arasında görüş keçirilmişdi. Görüş zamanı hər iki əyalətin sənaye müəssisələri arasında əməkdaşlığın genişləndirilməsi yolları müzakirə olunmuşdu. Cənab Narui bildirmişdi ki, 1992-ci ildə Pakistan Bəlucistanı və İran Sistanı Ticarət palatalarının birgə Komitəsi yaradıldıqdan sonra qonşu əyalətlər arasında iqtisadi münasibətlər daha da sıxlaşıb və onlar arasında ticarət əməliyyatları ilə 85 milyon ABŞ dolları gəlir gətirir ki, bu da kifayət qədər böyük məbləğdir[13];

Hələ 1996-cı ilin ortalarında Bhutto administrasiyasının görkəmli fiqurlarından biri olan və İranpərəst mövqeyi ilə seçilən Murtaza Əli Bhutto İran rəhbərliyi ilə bir sıra layihələrin reallaşdırılması məqsədilə intensiv danışıqlar aparırdı. Bu layihələr aşağıdakılar idi:

a) İranın Bəndər-Abbas limanından Pakistanın Kəraçi şəhərinə qaz kəmərinin çəkilişi. Layihənin 3.5 milyard ABŞ dollarına başa gəlməsi nəzərdə tutulurdu;

b) Qətər qazının İran ərazisindən keçməklə Pakistana ixracı. Bu layihə isə təxminən 6 milyard ABŞ dolları civarında nəzərdən keçirilirdi;

c) İki dövlət arasında 650 km uzunluğunda sahilyanı şose yolunun və daxili Kvetta-İran şose yolunun çəkilişi[14].

Göründüyü kimi, bu planlar iqtisadi sferanı əhatə edirdi və PİR-in əsas yanacaq növlərindən sayılan qazdan asılılığını azaltmaq məqsədini güdürdü. Lakin bir qədər sonra M. Bhuttonun qətlə yetirilməsi, həmçinin "Taliban" faktoru



ilə əlaqədar iki dövlət arasında əlaqələrin pisləşməsi bu planların kağız üzərində qalması ilə nəticələndi;

– Hər iki dövlət BMT, İKT və İƏT çərçivəsində sıx əməkdaşlıq edir, bir sıra regional və qlobal məsələlərdə (məsələn, dünyanın çoxqütblülüyü) fikir həmrəyliyi nümayiş etdirirlər. Üstəlik İran Kəşmir probleminin BMT qətnamələri əsasında, Kəşmir xalqının rəyi nəzərə alınmaqla nizamlanması mövqeyindən çıxış edir ki, bu da Pakistanı razı salmaya bilməz[15].

Gördüyümüz kimi, Pakistanın yaxın qonşusu İranla 90-cı illərin ortalarında yaşadığı gərginlik XXI əsrin başlanğıcından etibarən öz kəsərini itirmiş və iki ölkə arasında əməkdaşlıq meylləri güclənməyə başlamışdır. Bu dəyişiklik isə ilk növbədə iqtisadi əlaqələrin inkişafına əhəmiyyət verilməsi və "Taliban"ın tarix səhnəsindən çıxması ilə əlaqədardır. Bir sıra problemlərin mövcudluğuna rəğmən hər iki tərəfin iqtisadi-sosial və regional əməkdaşlıqda maraqlı olması bu iki qonşu dövlət arasında mövcud münasibətlərin gələcəkdə də inkişaf etdiriləcəyini deməyə əsas verir.

Tarixə nəzər salsaq görərik ki, Pakistan-Əfqanıstan münasibətləri mürəkkəb, bəzi hallarda isə gərgin xarakter daşıyıb. İki qonşu dövlət arasında problem yaradan əsas məsələ "Böyük Puştunistan" (Əfqanıstan) ideyası ilə bağlı idi. Məsələ burasındadır ki, Pakistanın Əfqanıstanla həmsərhəd Şimal-Qərbi Sərhəd Əyaləti tarixən puştun (əfqan) torpaqları olub. Bu torpaqlar 1819-cu ilədək əfqan Dürranilər dövlətinin tərkibində olmuş, 1892-ci ildə ingilis diplomatı Dürandın əfqan əmiri Əbdürrəhmanla imzaladığı razılaşmaya əsasən qəti şəkildə Britaniya Hindistanının tərkibinə daxil edilmişdi. Əfqanıstan ilə Britaniya Hindistanı arasında çəkilən sərhəd xətti isə ingilis diplomatının adı ilə Dürand xətti adlandırılmışdı. 1947-ci ilin yayında – Hindistanın bölündüyü ərəfədə bu ərazilərdə keçirilən referendumda səs vermək hüququ olan əhalinin 289 min nəfəri (yəni 50.5%) Pakistanla, cəmi 3000 nəfər isə Hindistanla birləşməyin lehinə çıxış etmişdi. Beləliklə, bu əra-

zi Pakistan dövlətinin yurisdiksiyası altına keçmişdi (bu isə puştun millətçilərinin məğlubiyyəti demək idi)[16]. Buna baxmayaraq o zamandan etibarən bütün əfqan hökumətləri Dürand xəttinə qarşı çıxır və ümumi sahəsi 150.000 kv. km. olan bu ərazinin Əfqanıstana birləşdirilməsini tələb edirdilər[17]. Maraqlı bir məqam: 1947-ci ilin sentyabrında Pakistanın BMT-ə üzvlük məsələsi müzakirə edilərkən Əfqanıstan bunun əleyhinə səs vermişdi. 1961-ci ilin sentyabrından 1963-cü ilin mayınadək iki qonşu ölkə arasında diplomatik əlaqələr belə kəsilmişdi[18].

Pakistan-Əfqanıstan münasibətlərində yeni mərhələ 1979-cu ildə, Sovet qoşunlarının Əfqanıstana müdaxiləsindən sonra açıldı. Kommunist Əfqanıstanın bütövlükdə bölgə və konkret olaraq Pakistan üçün təhlükə olduğunu dərk edən PİR rəhbərliyi (ilk növbədə isə yeni əfqan hökumətinin Hindistanla dostluq əlaqələri yaradacağı və beləliklə, Pakistanın sovet-Hindistan mühasirəsinə düşəcəyi təhlükəsi real idi) hərbi-siyasi müxalifətin – əfqan mücahidlərinin əhəmiyyətli sponsorlarından birinə çevrilmiş oldu. Pakistan ərazisində mücahidlərin təlim düşərgələri və dayaq məntəqələri yaradıldı. Pakistanın antikommunist siyasəti artıq 80-ci illərin sonları üçün konkret bəhrəsini vermişdi: 1988-ci il Cenevrə sazişi və 1989-cu ildə Sovet qoşunlarının Əfqanıstandan çıxarılması Pakistanın bu dövr əfqan siyasətinin uğurları kimi qiymətləndirilə bilər[19].

90-cı illərin əvvəlləri Pakistan diplomatiyasının Əfqanıstanda əsas vəzifəsi kommunist Nəcibulla rejiminin aradan qaldırılması idi. 1992-ci ilin aprelində Pakistan diplomatiyası bu məqsədinə də çatmış oldu: Nəcibulla rejimi devrildi, hakimiyyətə mücahidlər gəldilər. Pakistan hökuməti dərhal mücahid liderlərindən Bürhanəddin Rəbbaninin başçılıq etdiyi yeni əfqan hökumətini tanıdı. Təsadüfi deyil ki, 1992-ci il aprelin 29-da – yəni Əfqanıstanda İslam Respublikası elan edildikdən cəmi bir gün sonra Kabilə ilk səfərlə Pakistanın baş naziri Nəvaz Şərif və Pakistan ordusunun Baş qərargah rəisi təşrif buyurmuşdular[20]. Pakistan rəhbərliyi yeni hakimiyyətin qurulması ilə bu ölkədə



sabitlik yaranacağına və əfqan savaşı illərində qazandığı mövqelərini qoruyub saxlayacağına ümidlər bəsləyirdi. Lakin çox tezliklə – bu dəfə mücahid liderlərinin öz aralarında vətəndaş müharibəsinin qızışması Pakistanın bu planlarına zərbə vurmuş oldu. Pakistanın Əfqanıstandakı vəziyyəti sabitləşdirmək cəhdləri isə heç bir nəticə vermədi. Pakistan xüsusi xidmət orqanlarının bütün səylərinə rəğmən mücahid liderlərini barışdırmaq və vətəndaş müharibəsinə son qoymaq mümkün olmadı. Və onda Pakistan bu qüvvələrlə bağlı olmayan yeni siyasi-hərbi qüvvə yaratmaq qərarına gəldi. "Taliban" belə yarandı[21].

İlkin dövrlər bəzi dairələrdə belə bir fikir geniş yayılmışdı ki, "Taliban" hərəkatı sırf dini hərəkat olub yalnız dini məqsədlər güdür. Əslində isə dövlətin milli maraqları bütün digər maraqların fövqündə dayanır və bütün imkanlar milli maraqların həyata keçirilməsinə səfərbər olunur. "Taliban" hərəkatı yaradılarkən məhz bu prinsip əsas götürülmüşdü. Bir sözlə, "Taliban"ı yaradarkən Pakistan aşağıdakı məqsədlərini reallaşdırmağa çalışırdı:

a) Əfqanıstanda on illərlə davam edən vətəndaş müharibəsinə son qoyulması, ölkədə sabitlik və əmin-amanlığın yaranması, həmçinin Kabildə Pakistana dost rejimin bərqərar olması[22];

b) Mərkəzi Asiya respublikaları ilə Pakistan arasında iqtisadi əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi. Zəif xammal ehtiyatına malik Pakistanı bu respublikaların zəngin təbii sərvətləri, ilk növbədə karbohidrogen resursları cəlb edirdi. Bu amil ona Hindistanla rəqabətdə müəyyən balans yaratmağa və iqtisadi yüksəlişə nail olmağa kömək edərdi. Mərkəzi Asiya respublikaları ilə Pakistan arasında iqtisadi münasibətlərin inkişaf etdirilməsi üçün qarşılıqlı layihələr də işlənib-hazırlanmışdı. Bu planların həyata keçməsinə bir mühüm amil mane olurdu: Əfqanıstanda davam edən vətəndaş müharibəsi;

c) 90-cı illərin ortalarında Pakistanın qaçqın düşərgələrində rəsmi məlumatlara görə 3 milyon əfqan qaçqını yaşayırdı. Nə qədər ki, Əfqanıstanda SSRİ əleyhinə mübari-

zə gedirdi, ABŞ Pakistana əfqan qaçqınlarının saxlanılması məqsədilə genişmiqyaslı maddi yardım göstərirdi. Sovet ordusu Əfqanıstandan çıxarıldıqdan və ABŞ-ın regiona marağı azaldıqdan sonra Pakistana edilən maddi yardımın miqdarı kəskin surətdə aşağı düşdü. "Taliban"ın yaradılması ilə on minlərlə düşərgə sakininin ona qoşulacağı və Əfqanıstanda siyasi sabitlik yarandıqdan sonra qaçqınların böyük əksərinin öz vətənlərinə geri dönəcəyi gözlənilirdi;

ç) "Böyük Puştunistan" ideyası Pakistan hakim dairələrinin başağrısı olaraq qalmaqda davam edirdi. Ölkənin şimal və şimal-qərbində isə bu ideyanın hərəkətverici qüvvəsi ola biləcək 20 milyondan çox puştun yaşayırdı. "Taliban"ın yaradılması puştun icmalarının diqqətini Əfqanıstanda gedən proseslərə yönəldəcək və beləliklə "Böyük Puştunistan" ideyası müvəqqəti də olsa unudulmuş olacaqdı;

d) "Taliban" hərəkatı yalnız Əfqanıstanın puştunlar yaşayan ərazilərini və paytaxt Kabili ələ keçirməliydi. Bundan sonra o, milli azlıqların nümayəndələri ilə danışıqlara başlamalı və milli həmrəylik əsasında koalision hökumət qurulmalı idi. Koalision hökumət uzun illər ərzində mövcud olmuş "Dürand xətti" probleminə də son qoymuş olacaqdı, belə ki, yeni hökumətdə təmsil olunacaq etnik qrupların nümayəndələri yeni puştun ərazilərinin Əfqanıstana birləşdirilməsi ilə razılaşmayacaqdılar. Pakistan rəhbərliyinin fikrincə, hakimiyyət başında duran puştun liderləri də sabitliyi qoruyub saxlamaq naminə bu məsələdə güzəştə getməyə məcbur olacaqdılar.

Göründüyü kimi, Pakistan Əfqanıstandakı proseslərə "Taliban" vasitəsilə müdaxilə edərkən ilk növbədə Əfqanıstanda sülhün bərqərar olması və milli həmrəyliyə nail olmağa çalışırdı.

"Taliban" hərəkatının yaradılması ilə bağlı ilk ideyalar hələ 1992-ci ildə, Pakistan rəhbərliyi Bürhanəddin Rəbbani hökumətində məyus olduqdan sonra meydana gəlmişdi. Lakin o zaman Pakistan qonşu ölkədə diplomatik yollarla sabitlik yaradılacağına ümidini hələ itirməmişdi.



"Taliban"ın Pakistan xüsusi xidmət orqanları tərəfindən yaradıldığı ilk əvvəl Pakistan hakim dairələri tərəfindən inkar olunsa da sonradan bu tendensiyadan uzaqlaşma müşahidə olunmağa başladı. 1998-ci ilin sentyabrında Pakistanın sabiq daxili işlər naziri Nəsirulla Babar etiraf etmişdi ki, 1994-cü ildə bu vəzifədə çalışarkən "Taliban" dəstələrinin yaradılması ilə yaxından məşğul olub. Ümumiyyətlə isə "Taliban"ın yaradılmasında İSİ (Pakistan İdarələrarası Kəşfiyyat Xidməti) və daxili işlər nazirliyi mühüm rol oynayıb[23]. Sonralar bu cür etiraflar digər yüksək rütbəli Pakistan rəsmilərinin dilindən də səslənmişdi.

1996-cı ilin sentyabrında taliblər Kabilə daxil olduqdan sonra Pakistan de-yure "Taliban" hökumətini tanıdığını bəyan etdi. Hər iki ölkə arasında diplomatik əlaqələr quruldu, diplomatik nümayəndəliklərin mübadiləsi aparıldı.

Lakin hadisələrin sonrakı inkişafı Pakistanın gözlədiyi kimi olmadı. Etnik qrupların (tacik, özbək, həzarə) liderləri ilə danışıqlara başlamaq əvəzinə taliblər ölkənin milli azlıqlar yaşayan şimal hissəsinə hücuma keçdilər.

Taliblərin bu addımı Pakistanın ilk əvvəl uğurla həyata keçirdiyi əfqan siyasətinə ciddi zərbə vurmuş oldu, belə ki:

– Taliblərin milli azlıqlara münasibətdə həyata keçirdiyi "təmizləmə" siyasəti və hərəkatın MDB sərhədlərinə çıxması nəticə etibarilə Pakistanla Mərkəzi Asiya respublikaları və Rusiya arasında münasibətlərin soyumasına səbəb oldu;

– Siyasi sabitlik nəinki əldə olunmadı, əksinə, taliblər Şimali Əfqanıstanda müharibə girdabında ilişib qaldılar;

– Taliblərin hərbi uğurları Pakistanın bu ölkədə mövqelərini müəyyən qədər möhkəmlətsə də Pakistanın öz daxilində tamam başqa reaksiya doğurdu. Sünni taliblərin qələbələri Pakistanda sünni-şiə qarşıdurmasını daha da gücləndirdi. Eyni zamanda Pakistan rəhbərliyinin səylərinə rəğmən "Vahid Puştunistan" ideyası öz

əhəmiyyətini itirməmişdi. "Taliban" rəhbərliyi ilə Pakistan arasında müəyyən narazılıq yaranan kimi taliblər Pakistanı "Vahid Puştunistan" uğrunda mübarizə ilə təhdid edirdilər[24]. Pakistanın şimal sərhədlərində yeni münaqişə ocağının qızışması təhlükəsi real olaraq qalırdı.

Pakistanın 90-cı illərdə yeritdiyi əfqan siyasətinin konkret bəhrə vermədiyini görən bir sıra dairələr bu problemə yeni yanaşma tələb edirdilər. Onlar Pakistanın öz qonşusu ilə siyasətini hərbi deyil, iqtisadi əsasda qurması ideyasını təbliğ edirdilər. Bir sıra pakistanlı ekspertlərin "Əfqanıstan üçün Marşall planı" ideyası da məhz bu kontekstdə nəzərdən keçirilməlidir. Planın mahiyyəti bundan ibarət idi:

"Dağıdılmış əfqan iqtisadiyyatı bərpa olunmalıdır. Bunun üçün Pakistan İslam Respublikası başda olmaqla bir sıra dost dövlətlər və beynəlxalq maliyyə-iqtisadi təşkilatların vəsaiti hesabına Xüsusi Fond yaradılmalıdır. Pakistan mallarının alınması və xidmətlərinin ödənilməsi üçün Pakistan hökuməti Əfqanıstana kredit ayırmalıdır. Xüsusilə kənd təsərrüfatının inkişafına əhəmiyyət verilməlidir. Sosial-iqtisadi proqramın həyata keçirilməsi milyonlarla qaçqının öz vətənlərinə dönməsi üçün əlverişli şərait yaradar".

Yəni bəzi pakistanlı iqtisadçılar problemin həlli üçün iqtisadi metodlardan istifadə olunmasını və bu yolla Pakistanın Əfqanıstanda mövqelərini gücləndirməyi məsləhət bilirdilər. Bu ideya bir sıra pakistanlı politoloqlar tərəfindən də dəstək qazanmışdı. Onlar hesab edirdilər ki, "Taliban"ın tanınması tələsik atılmış addım olub və nəticədə "Şimal Alyansı"nın Əfqanıstanın şimalında müstəqil dövlət yaratmaq təhlükəsi meydana gəlib[25].

Əfqanıstanda sabitliyə nail olmaq məqsədilə Pakistan diplomatiyası 90-cı illərin sonlarında bu yöndə öz siyasətini fəallaşdırdı. 1998-ci ilin aprel-may aylarında məhz Pakistanın təşəbbüsü ilə İslamabadda əfqan siyasi partiyalarının iştirakı ilə toplantı çağrıldı. Toplantı əfqan probleminin həll edilməsi üçün Üləmalar Komissiyasının



çağrılmasını təmin etməliydi. Bu Komissiya Əfqanıstanda daimi və sabit idarəçilik təmin olunana qədər keçid hökuməti rolunu oynamalıydı. Lakin sülh prosesi şiə Hezb-i Vəhdət partiyasının may ayında Əfqanıstanın şimalında yeni gərginlik yaratması ilə pozulmuş oldu. Bu uğursuzluğa baxmayaraq Pakistan diplomatiyası qonşu ölkədə siyasi-diplomatik vasitələrlə sabitlik yaradılacağı ümidindən əl çəkmirdi. 1999-cu il 19-20 iyul tarixində Özbəkistanın paytaxtı Daşkənddə ilk regional görüş keçirildi. Görüşdə Özbəkistan, Pakistan, İran, Çin, Türkmənistan, Tacikistan, həmçinin ABŞ və Rusiya iştirak edirdi. Görüşdən əsas məqsəd "Taliban" və "Şimal Alyansı"nı danışıqlar stolu arxasına oturtmaq idi. Buna nail olunmasa da əfqan probleminin 6+2 formulası (yəni region dövlətləri üstəgəl ABŞ və Rusiya) əsasında nizamlanması qərara alındı[26].

Bununla yanaşı PİR diplomatiyası beynəlxalq görüş və toplantılarda özünün əfqan probleminin nizamlanmasına dair planını nəzərə çatdırırdı. Planın mahiyyəti bundan ibarət idi:

– Əfqanıstanda hərbi əməliyyatlar birdəfəlik və bütün döyüşən qüvvələr tərəfindən dayandırılır;

– Əfqanıstana silah satışına embarqo qoyulur;

– BMT-nin xüsusi missiyasının ölkədə stabillik və təhlükəsizliyin təmin olunması sahəsində səylərinə dəstək verilir;

– Hərbi əməliyyatların dayandırılması və embarqoların həyata keçirilməsinə nəzarət mexanizmi yaradılır[27].

Pakistan diplomatiyası beynəlxalq səviyyəli konfransların təşkili və keçirilməsindən əlavə xüsusi missiyalar vasitəsilə də talibləri yola gətirməyə çalışırdı. Məsələn, Pakistanın keçmiş xarici işlər naziri Naiz Naik "Taliban" rəhbərliyini inandırmağa çalışırdı ki, əgər taliblər insan hüquqları sahəsində güzəştə getsələr və "Şimal Alyansı" ilə keçid hökuməti qursalar, onda talibiərə beynəlxalq maliyyə-texniki yardımlar göstəriləcək və rejim dünya ictimaiyyəti tərəfindən tanınacaq. Lakin talibiərin adları

çəkilən məsələlərdə heç bir kompromisə getməməsi bu təklifin də reallaşmamasına gətirib çıxartdı[28].

Ümumiyyətlə, XX əsrin son onilliyində Pakistan-Əfqanıstan münasibətləri bu münasibətlər üçün xarakterik gərginliklə müşayiət olunub.

Gərginliyi doğuran səbəblərdən biri Əfqanıstanın "Taliban"ın himayəsi altında olan ərazilərində təlim düşərgələrinin açılması və bu düşərgələrdə digər dövlətlərin vətəndaşları ilə yanaşı bəzi Pakistan vətəndaşlarının da təlim keçməsi idi. "Qaynar nöqtələr"də döyüşdükdən sonra vətənlərinə qayıdan bu şəxslər burada radikal islami qruplaşmaların sıralarına daxil olurdular. Pakistan rəhbərliyi bu düşərgələrin bağlanmasını dəfələrlə tələb etsə də "Taliban" rejimi ölkəsində bu cür təlim mərkəzlərinin fəaliyyət göstərdiyini inkar edirdi.

Münasibətlərdə yaranan digər problem taliblərin beynəlxalq ictimaiyyətdə ciddi narazılıq doğuran dini islahatları ilə bağlı idi. Bu üzdən beynəlxalq ictimaiyyətin hədəfinə tuş olmamaq üçün Pakistan rəhbərliyi taliblərlə əlaqələrini reklam etdirməməyə çalışırdı.

ABŞ tərəfindən 1 №-li terrorçu elan edilən Üsamə bin Ladenin Əfqanıstan ərazisində gizlənməsi də əfqan-Pakistan münasibətlərində gərginlik yaradan amillərdən idi. Səudiyyə Ərəbistanından olan Ü. bin Laden 1998-ci ilin avqustunda Keniya və Tanzaniyada ABŞ səfirlikləri qarşısında terror aktının sifarişçisi olmaqda günahlandırılırdı[29]. Əfqanıstanda sığınacaq tapmış Ü. bin Ladenin taliblərlə mövcud münasibətləri Pakistanın beynəlxalq imicinin aşağı düşməsinə səbəb olduğundan Pakistan hökuməti 2001-ci ilin iyulunda Kvetta şəhərində ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) mərkəzinin açılmasına icazə verdi. Bu mərkəz Ü. bin Laden və onun əlaltılarının fəaliyyətini izləməli idi.

2001-ci il 11 sentyabr hadisələri ilə bağlı Pakistanın əfqan siyasəti və ikinci əfqan kampaniyasında iştirakı növbəti – ikinci fəslin ikinci paraqrafında ətraflı şərh



olunduğundan bu məsələ üzərində dayanmadan birbaşa aşağıdakı mətləbə keçmək istərdik:

2001-ci il 11 sentyabr hadisələrindən sonra Pakistan-əfqan münasibətlərində normallaşma müşahidə olunurmu və Pakistan əfqan siyasətində qarşısına qoyduğu məqsədlərinə çata bilibmi? Təəssüflə qeyd edilməlidir ki, Pakistan-əfqan münasibətlərində hələ də problemlər və inamsızlıq qalmaqdadır. Bir çox Pakistan ekspertləri bunun başlıca səbəbi kimi yeni əfqan hökumətində təmsil olunan "Şimal Alyansı" nümayəndələrinin Pakistana münasibətdə sərt mövqeyini əsas götürür. Yuxarıda da qeyd etdiyimiz kimi, vətəndaş müharibəsi illərində Pakistan talibləri dəstəkləyir və "Şimal Alyansı"na tam hakimiyyətin verilməsinin əleyhdarı kimi çıxış edirdi. Buna görə də bir çox Alyans liderləri bu gün də Pakistanı dost qismində nəzərdən keçirmirlər. Qarşılıqlı münasibətlərdə müəyyən narazılıq və narahatlıq doğuran digər faktor isə Pakistanın şimal rayonlarında taliblərin və "Əl-Qaidə" üzvlərinin gizlənməsi, eyni zamanda Pakistan ordusu və xüsusi xidmət orqanlarında (xüsusilə zabit heyətində) taliblərə rəğbətin qalmasıdır. Münasibətlərin tam inkişafı yolunda maneələrdən biri də Alyans liderlərinin etnik-mədəni və siyasi baxımdan daha yaxın olduqları İranla iqtisadi-ticari əlaqələri genişləndirmək istəyidir.

Yuxarıda qoyduğumuz ikinci suala isə həm "bəli", həm də "yox" cavabını vermək mümkündür. Bir tərəfdən qonşu dövlətdə Pakistanın dəstəklədiyi koalision hökumət formalaşdırılıb; bu hökumətdə əsas rol puştunlara məxsus olsa da milli azlıqlar da yeni kabinetdə əhəmiyyətli postlar tuturlar. Pakistan qonşu ölkədə puştun nüfuzunun həddən artıq güclənməsinin tərəfdarı olmadığından (bu, "Böyük Puştunistan" ideyasının yenidən baş qaldırmasına gətirib çıxara bilər) mövcud hal onun üçün məqbul variantdır. Üstəlik Əfqanıstanda nisbi sabitlik yaranıb ki, bu da öz növbəsində Transəfqan kəməri ideyasının yenidən aktuallaşmasına və bu barədə müzakirələrin intensivləşməsinə səbəb olub. Lakin digər tərəfdən Əfqanıstanda

tam sabitliyin bərqərar olmasından danışmaq hələ tezdir. Ölkənin cənub və şərq əyalətlərində taliblərin partizan müharibəsi aparması, ölkənin şimalında isə səhra komandirləri arasında tez-tez silahlı toqquşmaların baş verməsi TƏK-in həyata keçirilməsi məsələsini şübhə altına almış olur. Məhz bu baxımdan Pakistan dövlətinin bu gün üçün əfqan siyasətində bir nömrəli vəzifəsi mərkəzi hakimiyyətin gücləndirilməsində, silahlı qruplaşmaların ləğv edilməsində, narkotik dövriyyəsi əleyhinə mübarizə sahəsində əfqan hökumətinə sıx yardım etmək və bu ölkədə tam sabitliyin yaradılmasına nail olmaqdır. Yaxın gələcək üçün Pakistan diplomatiyası bütün səylərini məhz bu məqsədlərin reallaşmasına yönəltməlidir.

## § 2. Pakistan-Çin əməkdaşlığı

Pakistan-Çin müttəfiqlik münasibətlərinin inkişafı 1960-cı illərin əvvəllərinə təsadüf edir. 1962-ci ilin oktyabr-noyabr aylarında Çin ilə Hindistan arasında sərhəd probleminin hərbi qarşıdurma ilə nəticələnməsi dünya ictimaiyyətində geniş rezonans doğurmaqla yanaşı Pakistan xarici siyasətinin inkişaf istiqamətinə də böyük təsir göstərmiş oldu (xatırladaq ki, o dövrdə Çin Hindistan Kəşmirinin ümumi sahəsi 43.000 kv.km. olan 2 şimal rayonunu zəbt etmişdi). Tədricən Pakistan ilə Çin arasında yaxınlaşma başlandı. Çin Xalq Respublikası ilə yaxınlaşmaqla PİR diplomatiyası aşağıdakı məqsədləri güdürdü:

a) Regionda antihind siyasətinin gücləndirilməsi və bu yolla Hindistanın sıxışdırılması;

b) Bu dövr ABŞ ilə münasibətlərin pisləşməsi ucbatından və Kəşmir məsələsində dəstək əldə etmək üçün yeni müttəfiq axtarışı;

c) SSRİ-ə münasibətdə eyni cəbhədə çıxış etmə[30].

Öz növbəsində Çin də Pakistanla sıx əməkdaşlıq etməklə bölgədə Hindistanın rolu və nüfuzunun həddən artıq güclənməsini əngəlləməyə çalışır, həmçinin Cənubi



Asiya bölgəsində dayaqlarını möhkəmləndirmək siyasəti yeridirdi.

1964-cü ilin fevralında Çin Dövlət Şurasının sədri Çjou En Lay Pakistanda səfərdə olmuşdu. Məhz bu səfər ilə iki dövlət arasında ardıcıl görüş və siyasi məsləhətləşmələrin əsası qoyulmuş oldu. Pakistan prezidenti Məhəmməd Əyyub xanla Çjou En Lay arasında ikitərəfli görüş zamanı Cənubi Asiyada mövcud vəziyyət diqqət mərkəzində olmuşdu. Görüş əsnasında Çin rəsmisi Kəşmir məsələsində Pakistanın mövqeyini tam şəkildə dəstəklədiklərini bəyan etmişdi ki, bu da yerli və xarici mətbuatda Pakistan diplomatiyasının nailiyyəti kimi dəyərləndirilmişdi[31].

Tərəflər arasında siyasi məsləhətləşmələr M.Əyyub xanın Çinə 1965-ci il mart səfəri gedişində davam etdirildi. İkitərəfli görüş zamanı beynəlxalq problemlərin geniş spektri, o cümlədən Vyetnam məsələsi müzakirə edilsə də tərəflər əsas diqqətlərini Pakistan-Hindistan və Çin-Hindistan münasibətlərinə yönəltmişdilər. Çin rəhbərliyi bu dəfə də Kəşmir problemində Pakistanı dəstəklədiyini ortaya qoymuş oldu. 1965-ci il martın 6-da Çin xarici işlər naziri Çen İ rəsmən Pakistan rəhbərliyinə bildirmişdi ki, "Pakistana hərbi təcavüz olacağı təqdirdə (aydındır ki, bu zaman təcavüzün məhz ümumi rəqib Hindistan tərəfindən həyata keçiriləcəyi nəzərdə tutulurdu) ÇXR Pakistana yardım göstərəcəkdir". Bununla bağlı bir faktı vurğulamağı lazım bilirik ki, cəmi bir neçə ay sonra – 1965-ci ilin sonlarında Pakistan ilə Hindistan arasında növbəti – ikinci müharibənin alovlanmasında bu bəyanatın da bu və ya digər dərəcədə rolu olmuşdu. Çin rəhbərliyinin Pakistanı qeyd-şərtsiz dəstəkləmə siyasəti Pakistan siyasi elitasında özünəinam hissini artırmaqla yanaşı müharibə olacağı təqdirdə Çinin yardım edəcəyi fikrinin də formalaşmasına səbəb olmuşdu (1965-ci il savaşı Pakistanın məğlubiyyəti ilə nəticələndi). Üçüncü Hindistan-Pakistan müharibəsi zamanı da Çin diplomatiyası sonuncunu dəstəkləmiş, müharibə ərəfəsində – 1970-ci ildə öz müttəfiqinə 20 milyon

dollar məbləğində kredit ayıraraq onu silah və hərbi sursatla təchiz etmişdi[32].

1979-89-cu illər sovet-əfqan müharibəsində də Pakistan və Çin müttəfiq kimi çıxış etmişdilər. Çin rəhbərliyi hesab edirdi ki, Kabildə sovetpərəst bir rejimin hakimiyyətə gəlməsi sovet diplomatiyasının Çin ətrafında hərbi-siyasi blok yaratmaq və bu yolla Çini zəiflətmək siyasətinin tərkib hissəsidir. Buna görə də Çin diplomatiyası Əfqanıstanda SSRİ əleyhinə aparılan mübarizədə Pakistanla bir sırada yer almışdı[33].

90-cı illərin əvvəllərində dünyada və regionda cərəyan etmiş siyasi proseslər – Hindistanın bölgədə nüfuzunun güclənməsi, Pakistan-ABŞ münasibətlərində soyuqluğun yaranması və ABŞ-ın Pakistanın nüvə proqramına qoyduğu qadağa təbii olaraq bu iki dövlət arasında ittifaqı zəruri edirdi. Bu gün iki dövlət arasında əməkdaşlıq əsas etibarilə hərbi-texniki sahədə aparılır. Artıq bəllidir ki, Pakistan nüvə silahını yaradarkən Çinin yardımından faydalanıbdır. Çinin bu sahədə yardımı ilk növbədə uranın zənginləşdirilməsinə dair texniki informasiyaların Pakistan tərəfinə ötürülməsini, Kahuta və Dera Qazi Xan şəhərlərində (Pakistan) uranın zənginləşdirilməsi üzrə zavodların işə salınmasını ehtiva edirdi[34].

Atom energetikası sahəsində də bu iki ölkə arasında sıx əməkdaşlıq mövcuddur. Hələ 1999-cu ildə Çinin yaxından yardımı sayəsində Pakistan ilk atom elektrik stansiyasını işə salmışdı; 2000-ci ildə bu stansiya tam gücü ilə fəaliyyətə başladı. Hal-hazırda isə Pakistanın Çaşma şəhəri yaxınlığında 300 meqavat gücündə növbəti AES-in tikilməsi planlaşdırılır (bu layihənin dəyəri 600 milyon dollar civarında ölçülür). ABŞ dəfələrlə hər iki dövləti atom energetikası sahəsində əməkdaşlığa son qoymağa çağırsa da tərəflər proqramın sırf dinc xarakter daşıdığını bəyan etmişlər[35].

Ümumiyyətlə Pakistan-Çin əməkdaşlığından söz açarkən ABŞ faktoruna toxunmamaq olmaz. Yaxın müttəfiqi Pakistan ilə Şərqi Asiyanın ən qüdrətli dövləti olan Çin



arasında münasibətlərin inkişaf etdirilməsi istər "Soyuq müharibə" illərində, istərsə də müasir dövrdə nə dərəcədə ABŞ-ın maraqlarına uyğundur və bu superdövlət üçün hansı nəticələrə gətirib çıxara bilər?

"Soyuq müharibə" illərində Pakistanın Çin Xalq Respublikası ilə yaxınlaşmaq siyasəti ABŞ diplomatiyasının diqqət mərkəzində idi. Prinsipcə ABŞ bu əlaqələrin genişlənməsinin əleyhinə deyildi, lakin müəyyən şərtlər daxilində: Pakistan-Çin münasibətləri Pakistan-ABŞ ittifaqına zərbə vurmayacaq səviyyədə inkişaf etdirilməli idi. Pakistanın bu çərçivədən kənara çıxması, məsələn, Çin ilə hərbi-siyasi ittifaq müqaviləsi və ya hücum etməmək barədə sazişi imzalaması nəticə etibarilə amerikan yardımlarının kəsilməsi və Pakistanın ABŞ-ın hərbi-siyasi və iqtisadi dəstəyindən məhrum olması demək olardı. Pakistan diplomatiyası da bu həqiqəti gözəl bildiyindən Çin qarşısında konkret öhdəliklər götürməkdən və bununla da ÇXR-in asılılığına düşməkdən çəkinirdi. Maoçu Çin rəhbərliyinin antisovet yönümlü olması və regionda antisovet baryeri yaratmaq səyləri isə ABŞ-ın maraqlarına cavab verən amillər idi[36].

XX əsrin sonuncu onilliyindən etibarən beynəlxalq münasibətlər sistemində Çin faktoru getdikcə böyük əhəmiyyət kəsb etməyə başlayıb. Bu da öz növbəsində yarım əsr ərzində iki qarşıduran blok arasında bir növ balansir rolunu oynayan Çinin "Soyuq müharibə" bitdikdən sonra Asiya-Sakit okean bölgəsində rolunun artması, başlıcası isə iqtisadiyyatının dinamik inkişafı ilə bağlıdır. Bir sıra ekspertlər vurğulayır ki, iqtisadi inkişafın müasir templəri şəraitində yeni minilliyin ilk 20 ili ərzində Çin potensial olaraq qlobal supergücə çevrilmək imkanlarına malikdir. Xüsusilə Çin ÜDM-in əhəmiyyətli qismini silahlı qüvvələrinin modernləşdirilməsinə, ilk növbədə isə strateji raket-nüvə potensialının təkmilləşdirilməsinə yönəldə bilər. Çinin iqtisadi potensialını aydın təsəvvür etmək üçün bəzi rəqəmlərə nəzər yetirək: 1979-cu ildən etibarən Çin iqtisadiyyatı ümumilikdə 9.15 dəfə artmışdır. 1999-2003-cü

illərdə Çinin dünya ixracatındakı payı 2 dəfə artaraq 6.4 %-ə çatmışdır. Hətta bir sıra ekspertlər gələcək 5 il ərzində Çinin ixracatının 1.2 trilyon dollara çatacağını və onun bu göstəriciyə görə ABŞ-ı geridə qoyacağını bildirirlər. Müqayisə üçün deyək ki, ABŞ-ın 2003-cü ildə ixracı 713.1 milyard dollar təşkil etmişdir və bu göstərici çox yavaş artır – 1999-cu ildən bu yana cəmi 4.3%[37].

Sözsüz ki, bütün bu sadalananlar Çin Xalq Respublikasının qüdrəti barədə dolğun təsəvvürlər yaradır və ABŞ diplomatiyasının diqqət mərkəzindən kənarda qala bilməz. Görkəmli ABŞ dövlət xadimi və politoloq Zbiqnev Bjezinski özünün «Геостратегия для Евразии» əsərində göstərir: "Amerikan siyasətçiləri dərk edirlər ki, Çin-ABŞ strateji əməkdaşlığı olmadan ABŞ-ın Asiya kontinentində geostrategiyasından danışmaq artıqdır."[38]. Qeyd etdiyimiz bu reallıq ABŞ hakim dairələri tərəfindən də dərk edilmişdir. Təsadüfi deyil ki, ABŞ-ın 1993-2001-ci illərdə prezidenti olmuş Bill Klintonun administrasiyası tərəfindən hazırlanmış "Yeni Əsr üçün Milli Təhlükəsizlik Strategiyası"nda deyilir: "Biz Çinlə dərin dialoqa başlamalıyıq. Təcrid olunmuş, qapalı siyasət yeridən Çin nə Amerika, nə də dünya üçün əlverişlidir... Asiyada sülh və tərəqqi perspektivləri əsasən Çinin beynəlxalq birliyin məsuliyyətli üzvü olmasından asılıdır"[39]. Göründüyü kimi, ABŞ rəhbərliyi hesab edir ki, Çin ilə qarşıdurmaya deyil, əməkdaşlığa üstünlük verilməlidir və Pakistan-Çin əməkdaşlığı bir sıra aspektlərdən "Soyuq müharibə" illərində olduğu kimi ABŞ-ın maraqlarına cavab verir. Burada ilk növbədə Cənubi Asiyanın ən qüdrətli dövləti, son illər sürətli inkişaf yoluna qədəm qoymuş Hindistanın qarşısını almaq məsələsi nəzərdə tutulur. Zbiqnev Bjezinskiyə görə, məhz Çinin Pakistanla sıx hərbi əməkdaşlığı nəticə etibarilə Hindistanın bölgədə liderliyə yüksəlməsi və Çinlə geosiyasi rəqib olması imkanlarını məhdudlaşdırır[40]. Lakin bununla yanaşı amerikan diplomatiyası yarım əsr öncə olduğu kimi müasir dövrdə də Pakistan-Çin münasibətlərinin müəyyən çərçivədə inkişafının tərəfdarıdır. Pakistan rəhbərliyi bu çərçivədən bir qədər kənara çıxmaq meyli nümayiş etdirəndə ABŞ buna sərt reaksiya verir. Məsələn, Pakistan ilə Çin arasında raket proqramı sahəsində əməkdaşlığın ciddi xarakter alması 1993-cü ildə ABŞ tərəfindən sanksiyaların tətbiqi ilə nəticələnmişdi.



Pakistan ordusunun təchizatçılarından biri də məhz Çindir. Çin ABŞ ilə birlikdə bu sahədə qabaqcıl yerlərdən birini tutur. Son dövrlər isə Çin Pakistana raket texnologiyası satışını artırıb. Məsələn, hələ 80-ci illərin sonunda tərəflər 290 km uçuş məsafəsinə malik M-11 raketlərinin Pakistana satışı barədə razılığa gəlmişdilər. Yalnız ABŞ-ın işə müdaxiləsindən sonra 1991-ci ildə müqavilənin icrası dayandırıldı. Buna baxmayaraq 1992-94-cü illərdə Çin M-11 modelli 50 raketi Pakistana satmışdı[41]. Pakistan ordusunun ixtiyarında olan "Yer-Yer" tipli "Hətf-3" raketləri də məhz Çin texnologiyası əsasında hazırlanıb.

Hərbi-texniki əməkdaşlıqla bahəm bu iki dövləti həmçinin bir sıra problemlərə münasibətdə ortaq mövqe nümayişi birləşdirir. Onlar aşağıdakılardır:

– Pakistan Tayvan problemində, Çin isə Kəşmir problemində bir-birilərini dəstəkləyirlər; Pakistan Tayvan adasının Çinin tərkib hissəsi olduğunu və onun bu ada üzərində siyasi-diplomatik və iqtisadi yollarla suverenliyini bərpa etmək prinsipini tanıyır. Pakistan bu mövqeyini bir daha açıq şəkildə 2000-ci ilin payızında ortaya qoymuşdu. Belə ki, həmin il noyabrın 15-i Çin Hərbi Dəniz Qüvvələrinin siyasi komissarı Yan Xuaytsının başçılıq etdiyi nümayəndə heyətini qəbul edən Pakistanın İcra Hakimiyyəti Başçısı P. Müşərrəf Tayvan və Tibet problemlərində qəti şəkildə Çini dəstəklədiklərini və Çinin ərazi bütövlüyünün bərpa olunacağına ümidini bildirmişdi. Xatırladaq ki, Çin hərbi nümayəndə heyəti 2000-ci il 12-16 noyabr tarixində Pakistanda səfərdə olmuş və bu zaman tərəflər arasındakı hərbi-texniki əməkdaşlıq yolları əsas müzakirə obyekti olmuşdu;

– Hər iki dövlət çoxqütblü dünya sistemi ideyasını dəstəkləyir;

– Ədalətli və bərabər yeni beynəlxalq iqtisadi sistemin yaradılması və beynəlxalq maliyyə sisteminin təkmilləşdirilməsi sahəsində hər iki ölkənin mövqeyi üst-üstə düşür[42].

Lakin bunlarla yanaşı Pakistan-Çin münasibətlərində bir sıra problemli sahələr də mövcuddur:

Hər iki dövlət zəngin xammal ehtiyatlarına malik Mərkəzi Asiya respublikalarının bazarlarına sahib olmağı xarici siyasi fəaliyyətlərində qarşılarına məqsəd qoyublar. Bu isə təbii olaraq regionda onların maraqlarının bu və ya digər dərəcədə toqquşması deməkdir.

1994-cü ilin payızında Əfqanıstanın siyasi səhnəsində "Taliban" hərəkatının parlamasını da Çin narahatlıqla qarşıladı. Bu narahatlığın üç mühüm səbəbi var idi: a) Çin davam etməkdə olan vətəndaş müharibəsinin və taliblərin radikal dini-siyasi baxışlarının Mərkəzi Asiya respublikalarında qeyri-sabitlik doğuracağından; b) Pakistanın "Taliban" vasitəsilə zəngin Mərkəzi Asiya bazarlarına çıxış əldə edə biləcəyindən ehtiyatlanırdı; c) taliblərin Əfqanıstanda açdıqları hərbi təlim düşərgələrində uyğur döyüşçülərinin də təlim keçməsi Pakistanla Çinin münasibətlərində müəyyən soyuqluq yaratmış oldu. Hətta 2000-ci ilin iyulunda Pakistana səfər etmiş Çinin xarici işlər naziri Tan Tszyasyuan PİR rəhbərliyindən taliblərin Sintszyan partizanları ilə əlaqələrini kəsməyə vadar etməsini tələb etmişdi. 2000-ci ilin dekabrında BMT TŞ-da "Taliban"a qarşı sanksiyaların tətbiqi məsələsi müzakirə olunarkən ÇXR bitərəf mövqe nümayiş etdirmiş və nəticədə TŞ sanksiyaların qəbuluna nail olmuşdu.

Bu dövr Çin-Hindistan münasibətlərində müəyyən istiləşmənin olmasını da Taliban faktoru ilə bağlayırlar, belə ki, hər iki dövlət taliblərlə Kəşmir və Sintszyan-uyğur partizanlarının əlaqələrindən narahat idilər və bu da təbii olaraq onların arasında müəyyən yaxınlaşmaya səbəb olmuşdu. 1996-cı ildə ÇXR-in rəhbəri Tszyan Tszemin Dehli səfəri zamanı bəyan etmişdi ki, Çin Kəşmir problemində tərəflərdən heç birini dəstəkləməyəcək.[43] "Soyuq müharibə" illəri və 90-cı illərin əvvəllərindən fərqli olaraq Çin rəhbərliyinin bu bəyanatı Kəşmir problemində Çinin neytral mövqe tutacağını göstərirdi ki, bu da Pakistanın ciddi diplomatik dəstəkdən məhrum olması demək idi. Bu hal 1999-cu il Kargil böhranı zamanı da təkrarlandı. Çin Pakistan diplomatiyasının gözləntilərinin əksinə olaraq PİR-i dəstəkləmədi. Hətta bu məqsədlə iyunun əvvəllərində Pakistan Silahlı Qüvvələri Baş qərargah rəisinin və iyunun 10-da Pakistanın xarici işlər naziri Sərtac Əzizin Çinə rəsmi səfərləri də istənilən nəticəni vermədi. Kargil böhranı zamanı Çin neytral mövqe nümayiş etdirməyi üstün saydı. Əlbəttə, bütün bunların kökünü sadəcə Taliban faktorunda axtarmaq da düzgün olmazdı. Bölgədə balanslaşdırılmış siyasət yeritməyə çalışan Çin diplomatiyası böyük nüfuza və iqtisadi potensiala malik Hindistanla münasibətləri kəskinləşdirməməyə çalışırdı.

Tərəflər arasında müəyyən dərəcədə problem yaradan digər amil 1998-ci ilin mayında keçirilmiş nüvə sınaqları ilə bağlı idi. Yuxarıda qeyd etmişdik ki, Pakistanın nüvə silahını yaratmasında və raket proqramını inkişaf etdirməsində ÇXR-in kifayət qədər böyük rolu olmuşdur. Bu yolla ÇXR nüvə silahına malik Hindistana münasibətdə bölgədə hərbi-siyasi tarazlıq yaratmaq istəyirdi. Lakin 1998-ci ilin yazında qarşıduran dövlətlərin keçirdiyi nüvə sınaqları ÇXR rəhbərliyini məsələyə ehtiyatla yanaşmağa vadar etdi. Çinin qonşuluğunda iki əzəli rəqib arasında açıq nüvə yarışının getməsi narahatlıq üçün kifayət qədər əsas yaradırdı. Məhz buna görə Çin rəhbərliyi BMT TŞ-nın Hindistan və Pakistanın nüvə sınaqlarını ittiham edən qətnaməsini tam şəkildə dəstəklədi. Həmçinin Rusiya Federasiyası və ÇXR-in birgə qəbul etdikləri bəyanatda hər iki Cənubi Asiya ölkəsi Nüvə sınaqlarının qadağan olunması haqqında çoxtərəfli sazişə qoşulmağa çağrılırdı. Əlbəttə, Çinin öz tərəfdaşına qarşı belə sərt mövqe tutmasında yuxarıda qeyd etdiyimiz səbəbdən başqa beynəlxalq ictimaiyyətin Hindistan və PİR-ə münasibətdə sərt mövqe nümayişi də böyük rol oynamışdı. Beynəlxalq

aləmdə təklənməmək naminə Çin rəhbərliyi də analoji addım atmışdı[44].

ÇXR ilə yaranmış soyuq münasibətlərin aradan qaldırılması yolunda ilk addım Pakistan İcra Hakimiyyətinin başçısı P. Müşərrəf tərəfindən onun 2000-ci ilin yanvarında ÇXR-ə səfəri zamanı atıldı. Səfərin ilk günü – yanvar ayının 17-də ÇXR Dövlət Şurasının sədri Çju Juntszı ilə görüş zamanı tərəflər iqtisadi və texniki əməkdaşlığa dair bir sıra sazişlər paketi imzalamışdılar. Ertəsi gün – yanvarın 18-də ÜmumÇin Xalq Nümayəndələri Palatasının – Çin parlamentinin Daimi Komitəsinin sədri Li Penlə görüşən Pakistan lideri onu ölkəsində 1999-cu ilin payızında baş vermiş siyasi dəyişikliklər barədə məlumatlandırmış, Pakistan-hind münasibətləri və Çin-Pakistan əməkdaşlığının perspektivləri haqda fikir mübadiləsi aparılmışdı. Çin tərəfi Kəşmir problemində Pakistanın mövqeyini və bu ölkənin terrorizmlə mübarizəsini dəstəklədiklərini bildirmişdi. Elə həmin gün P. Müşərrəf ÇXR sədri Tszyan Tszeminlə görüşmüşdü. Görüş zamanı Çin dövlət başçısı bütün regional problemlərin (o cümlədən dini və etnik) sülh yolu ilə həllinə tərəfdar olduqlarını bəyan etmişdi[45].

2001-ci dekabrın 20-25-də Pakistan prezidentinin ÇXR-ə rəsmi səfəri zamanı isə müzakirə edilən əsas məsələlər hərbi əməkdaşlığın genişləndirilməsi və iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsi yolları idi. Səfər əsnasında həmçinin Çin tərəfindən "Kəşmir məsələsi üzrə Pakistan Nazirliyi"nə bölgənin iqtisadi inkişafı üçün kredit ayrılması məsələsi müzakirə olunmuşdu.

2002-ci il yanvarın əvvəllərində – CARƏT-in Katmandu (Nepal) sammiti ərəfəsində P. Müşərrəf ÇXR-ə gələrək burada nazir Çju Juntszı ilə görüşmüş və onunla Pakistan-Hindistan münasibətlərində 2001-ci ilin sonlarından yaranmış gərginliyi müzakirə etmişdi. PİR prezidentinin səfəri sammit ərəfəsində ÇXR-in dəstəyini əldə etmək və bununla Hindistanın qarşısına Çin ilə koalisiyada çıxmaq idi, lakin ÇXR rəhbərliyi bu cür həssas məqamda neytralitet saxlamağı məsləhət bildi. Qarşılıqlı münasibətlərdə



həyata keçirilmiş ən son səfərlərə aşağıdakıları aid etmək olar:

2002-ci il avqustun 2-də Pekində ÇXR sədri T. Tszeminlə P. Müşərrəf arasında görüş keçirilmişdi. Görüşdə Əfqanıstanda mövcud vəziyyət müzakirə edilmişdi. T. Tszemin bəyan etmişdi ki, Çin bu ölkədə sülh prosesi və əfqan iqtisadiyyatının bərpa olunmasını dəstəkləyir: "Əfqanıstanda yeni hökumətin formalaşdırılması bu ölkədə sülh və sabitliyin davamlılığına bir açar rolunu oynayır" deyə ÇXR sədri əlavə etmişdi. Çin rəsmisi həmçinin Əfqanıstana göstərilən yardımdan söz açmış, ÇXR tərəfindən Əfqanıstana 30 milyon yuan (3.6 milyon dollar) maddi yardım edildiyini vurğulamışdı[46].

2004-cü il aprelin 8-i Çin xarici işlər naziri Li Çjaosin ilə onun pakistanlı həmkarı Xurşid Mahmud Kasuri arasında görüşdə müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə, regional və beynəlxalq problemlərə toxunulmuşdu. L. Çjaosin bildirmişdi ki, Pakistan və Çin sıx siyasi əlaqələrin saxlanılması, ticari-iqtisadi əməkdaşlığın genişləndirilməsi, ictimai səviyyədə təmasların gücləndirilməsi və regional əməkdaşlığın yeni yollarının araşdırılması üzərində çalışırlar. Daha sonra çinli nazir PİR-Hindistan münasibətlərinə toxunaraq bu iki ölkə arasında siyasi dialoqun davam etdirilməsi və mövcud problemlərin dinc yollarla nizamlanmasının vacibliyini vurğulamışdı. Görüşün sonunda Çin və Pakistan xarici işlər nazirlikləri arasında əməkdaşlıq haqqında Memorandum imzalanmışdı. Memorandum gələcəkdə beynəlxalq və regional məsələlərdə məsləhətləşmə və əməkdaşlığın dərinləşdirilməsini nəzərdə tuturdu[47].

Bu sənədin imzalanması və görüş zamanı müzakirə edilən məsələlərin təhlili göstərir ki, Pakistan və Çin yaxın perspektivdə istər siyasi, istər iqtisadi, istərsə də ictimai-mədəni sahələrdə əlaqələrin genişləndirilməsi və bu sahələr üzrə (birinci növbədə isə xarici siyasət məsələləri) ortaq mövqe nümayiş etdirmək niyyətindədirlər.

İki dövlət arasında əməkdaşlıq yalnız xarici siyasət və hərbi-texniki sahələri əhatə etmir. Qarşılıqlı əhəmiyyət kəsb edən bir sıra daxili məsələlər də hər iki ölkə rəsmilərinin diqqət mərkəzindədir. Məsələn, 2004-cü ilin iyulunda Çinin İctimai təhlükəsizlik naziri Çjou Yunkan Pakistanın daxili işlər naziri Feysəl Saleh Xəyyatı qəbul etmişdi. Danışıqlar gedişində hər iki ölkənin daxili işlər və ictimai təhlükəsizlik xidmətlərinin terrorizm, separatizm, ekstremizm və transmilli cinayətkarlıqla mübarizə yolları, həmçinin Pakistanda Çin vətəndaşları və müəssisələrinin təhlükəsizliyinin təmini (ilk növbədə radikal islami qruplaşma üzvlərinin çinli işçilərə basqınlarının qarşısını almaq) məsələsi müzakirə olunmuşdu[48].

2002-ci il noyabrın 22-də Pakistanın yeni seçilmiş baş naziri Mir Zəfərulla Xan Camali keçirdiyi mətbuat konfransında Pakistan-Çin münasibətlərinə toxunaraq bildirmişdi: "Pakistan-Çin münasibətləri Himalaylardan da yüksəkdə durur"[49]. Əlbəttə, bu deyimdə obrazlılıq və müəyyən mənada mübaliğə olsa da fakt faktlığında qalır: bu günümüz üçün PİR-in bölgədə ən yaxın tərəfdaşı məhz Çin Xalq Respublikasıdır. Hindistanın bölgədə supergücə çevrilmə iddiası, hər iki dövlətin hərbi-texniki əməkdaşlıqda marağı, bir sıra dünyəvi və regional məsələlərdə eyni mövqe nümayiş etdirmələri – bütün bu kimi amillər deməyə əsas verir ki, bu tərəfdaşlıq gələcəkdə də inkişaf etdiriləcək.

## ƏDƏBİYYAT


[1] Леонид Ганкин «Ядерный альянс» http://www.ourtx.com/?a=358

[2] С.М.Задонский "Стратегические аспекты визита президента ИРИ М. Хатами" http://www.iimes.ru/rus/stat/2003/04-04-03.bhtm

[3] Алексей Болотников "На два фронта" http://www.ng.ru/world/2002-05-29/6_iran.html

[4] "Пакистан и Центральная Азия" http://www.ca-c.org/journal/08-1997/st_14_gusein.s

[5] "Pakistan-İran relations" http://www.forisb.org/fpolicy

[6] Narbaev B. "Transafghan gas pipeline", "Central Asia's affairs" jurnalı, səh.36

[7] "Pakistan-İran relations" http://www.forisb.org/fpolicy

[8] "Между Ираном и Пакистаном исчезли серьезные разногласия" http://www.podrobnosti.com.ua/power/2001/12/01/871

[9] "Лидер ПНА считает необходимым укрепление пакистано-иранских отношений" http://www.centran.ru/cgi-bin/index.pl?cal=2002-11

[10] "Pakistan-İran relations" http://www.forisb.org/fpolicy

[11] "Стратегические аспекты визита М. Хатами" http://www.iimes.ru/rus/stat/2003/04-04-03.bhtm

[12] "Заседание пакистано-иранской смешанной комиссии" http://www.centran.ru/cgi-bin/index.pl?cal=2003-03

[13] «Разыскиваются пути расширения сотрудничество между провинциями Пакистана и Ирана» http://www.rambler.ru/db/news/msg.html?mid=4544516

[14] НСН:Рынок аналитики http://www.nns.ru/analit/pol/ugroza5.html

[15] "Pakistan-İran relations" http://www.forisb.org/fpolicy

[16] Джабборов Т.Д. «Северо-Западная Провинция Пакистана». М., 1977, səh. 24

[17] Сафрончук В. "Афганистан при Бабраке Кармале и Наджибулле", "Азия и Африка сегодня" jurnalı, № 7/96, səh. 29

[18] Ганковский Ю.В., Гордон-Полонская Л.Р. «История Пакистана». М., 1961, səh. 15

[19] Ганковский Ю.В. «Пакистан» (справочник). М., 1991, səh.3

[20] Пьер Абрамовиси "Тайная история переговоров между Вашингтоном и талибами" http://www.dogryyol.org/article/1995.html

[21] Ганковский Ю.В. ""Исламское движение талибов" и Пакистан", "Азия и Африка сегодня", № 3/99, səh. 4

[22] Белокреницкий В.Я. «Мусульманские страны у границ СНГ». М., 2002, səh. 212

[23] "Центральная Азия до и после 11 сентября: геополитика и безопасность"
http://www.kisi.kz/Parts/books/02-12-03Central_Asi

[24] Ганковский Ю.В. "Нестабильность становится перманентной", "Азия и Африка сегодня", № 5/99, səh. 19

[25] Ганковский Ю. В. "Исламабад пересматривает свою афганскую политику?" ,"Азия и Африка сегодня", № 6/99, səh. 43

[26] "Afghan conflict and opening with Central Asia"
http://www.forisb.org/fpolicy

[27] Д-р Рифат Гусейн "Пакистан и Центральная Азия"
http://www.ca-c.org/journal/08-1997/st_14_gusein.s

[28] «Тайная история переговоров между Вашингтоном и талибами»
http://www.dogryyol.org/article/1995.html

[29] Нестерова Д.В. и др., «Известные теракты». М., 2003, səh. 371

[30] Мукимджанова Р.М. "Пакистан, Южная Азия и политика США (60-нач.70-х гг)". М., 1974, səh. 116

[31] Ганковский Ю.В. «Современный Пакистан». М., 1976, səh. 31

[32] Baxışov M. "Beynəlxalq münasibətlər tarixi". B., 2004, səh. 272

[33] Говоров Ю.Л. "Внешний фактор в афганской революции"
http://www.history.kemsu.ru/PUBLİC/govorov/gov_2-10-4.htm

[34] Samina Ahmed "Pakistan's nuclear weapons program", "İnternational Security" jurnalı, № 4, 1999, səh.186

[35] "Китай поможет Пакистану построить атомную электростанцию" http://www.globalaffairs.ru/live/news.asp?id=45022

[36] Мукимджанова Р.М. Göstərilən əsəri, səh. 80

[37] "Günay" qəzeti, 2004, 6 noyabr

[38] Нартов Н.А. «Геополитика». М., 2003, səh. 278

[39] "A National Security Strategy for the New Century", White House, Washington DC, may 1997, səh. 24

[40] Бжезинский З. «Великая шахматная доска». М., 1998, səh. 197

[41] A.V.Torkunovun red. altında, "Современные международные отношения". М., 2000, səh. 392

[42] "Relations with mayor powers and regional blocs"
http://www.forisb.org/fpolicy

[43] Деймон Бристоу Журнал «Международная политика»
http://www.deutschebotschaft-moskau.ru/ru/biblioth



[44] Samina Ahmed "Pakistan's nuclear weapons program", səh. 199

[45] «Визит пакистанской делегации в КНР»
http://bufes.iatp.org.ua/mag/n1-00/s01_2000_18.htm

[46] "Председатель КНР Т. Тсземинь и президент Пакистана П. Мушарраф обсудили в Пекине обстановку в Афганистане"
http://anews.ru/archive/85348.html

[47] "Ответы представителя МИД КНР Кун Цюана на вопросы корреспондентов на пресс-конференции"
http://www.chinaembassy.ru/rus/fyrth/t84170.htm

[48] "Переговоры Чжоу Юньканя с министром внутренних дел Пакистана" http://www1.belta.by/huachi.nsf/b00b7a7ca6161b1d42

[49] «Премьерство Джамали будет благом для Пакистана»
http://www.centran.ru/cgi-bin/index.pl?cal=2002-11

## II FƏSİL

## PAKİSTAN İSLAM RESPUBLİKASININ XARİCİ SİYASƏTİNDƏ ABŞ-ın YERİ VƏ ROLU

### § 1. 90-cı illərdə Pakistan-ABŞ münasibətləri

Pakistan xarici siyasətinin təməl daşlarından birini ABŞ ilə müttəfiqlik münasibətləri təşkil edir. Pakistan-ABŞ münasibətlərinin yaranma tarixi Pakistanın müstəqillik qazandığı ilk illərə təsadüf etsə də iki dövlət arasında yaxınlaşma öz başlanğıcını 1950-ci illərin II yarısından götürür. Bu yaxınlaşmanı tərəflər üçün zəruri edən şərtlər aşağıdakılar idi: Kəşmir və Puştunistan problemləri ilə qarşı-qarşıya qalmış, iqtisadi və sosial çətinliklər məngənəsində sıxılan Pakistan dövləti beynəlxalq arenada ciddi siyasi dəstəyə ehtiyac duyurdu. Pakistanın ABŞ-ın simasında Qərb dünyasına istiqamətlənməsinin əsas səbəbini isə onun rəqibi Hindistanın SSRİ ilə sıx münasibətlər qurmasında axtarmaq lazımdır. Öz növbəsində SSRİ ilə "Soyuq müharibə" vəziyyətində olan ABŞ-ı Pakistanın əlverişli geostrateji mövqeyi cəlb edirdi. Pakistan amerikan diplomatiyası tərəfindən yaradılması nəzərdə tutulan antisovet yönümlü hərbi-siyasi blokun fəal üzvü kimi nəzərdən keçirilirdi[1]: 1951-ci il fevralın 9-da ABŞ Konqresinin qəbul etdiyi "Beynəlxalq inkişaf haqqında Qanun"a əsasən Pakistan ilə ABŞ arasında ilk ikitərəfli saziş imzalandı. Sazişə əsasən ABŞ Pakistana 600.000 dollar məbləğində yardım etməyi öhdəsinə götürürdü. Bu məbləğ Pakistanda çalışan amerikan məsləhətçi və müşavirlərinin, həmçinin ABŞ-da texniki təhsil alan 100 pakistanlı tələbənin maaş və müavinətlərini ödəməyə yönəldilməli idi.



Ümumiyyətlə, 1947-52-ci illər ikitərəfli münasibətlərin inkişaf tarixində birinci mərhələ kimi nəzərdən keçirilir. Bu mərhələdə ABŞ ilk növbədə iqtisadi-texniki əməkdaşlıq yolu ilə Cənubi Asiyanın bu ölkəsində mövqelərini möhkəmləndirməyə çalışırdı. 1950-ci illərin II yarısından etibarən isə qarşılıqlı münasibətlər hərbi-siyasi müstəviyə keçməyə başladı. 1954-cü ildə ABŞ ilə Pakistan arasında imzalanmış "Müdafiənin təmin edilməsi sahəsində qarşılıqlı yardım haqqında müqavilə" ilə Pakistan-ABŞ müttəfiqliyinin əsası qoyulmuş oldu: bu müqaviləyə əsasən ABŞ Pakistan ordusunu silah, hərbi sursatla təmin etməyi və hərbi təlim sahəsində sıx əməkdaşlığı öhdəsinə götürürdü[2].

50-ci illərlə müqayisədə 60-70-ci illər ikitərəfli münasibətlərdə müəyyən problemlərin yaranması və ciddi xarakter alması ilə xarakterizə oluna bilər. Belə ki, 1961-ci ilin yanvarında ABŞ-da Con Kennedinin başçılıq etdiyi demokratların hakimiyyətə gəlməsi ilə Cənubi Asiya bölgəsində amerikan siyasətinə yenidən baxılması tendensiyası özünü qabarıq göstərməyə başladı. Amerikan strategiyasının mahiyyəti dəyişməz qalmışdı: bu rayonu antisovet müdafiə baryerinə çevirmək. Sadəcə olaraq Kennedi kabinetinin taktikası dəyişmişdi: bunun üçün Pakistana arxalanmaqla yanaşı Hindistanla əlaqələri genişləndirib onun siyasətini ABŞ-ın maraqlarına uyğunlaşdırmaq. Bu isə sözsüz ki, Hindistanla rəqabət vəziyyətində olan PİR-i narahat etməyə bilməzdi[3]. 70-ci illərdə Pakistan-ABŞ hərbi-siyasi bloku konsepsiyası artıq xeyli dərəcədə öz əhəmiyyətini itirmişdi ki, bu da bir sıra amillərlə bağlı idi: blok Pakistanı öz iqtisadi və maliyyə imkanlarını nəzərə almadan silahlanma yarışına cəlb etmişdi, bunun da nəticəsi olaraq ölkənin xarici borcları artmış və sosial ziddiyyətlər dərinləşmişdi[4]. Öz növbəsində Pakistanın hərbi nüvə proqramını inkişaf etdirməsi ABŞ tərəfindən narazılıqla qarşılanmış, 1977-ci ilin sentyabrı və 1979-cu

ilin aprelində Pakistana qarşı hərbi və iqtisadi sanksiyalar tətbiq olunmuşdu[5]. Lakin 70-ci illərdən fərqli olaraq 80-ci illər qarşılıqlı münasibətlərdə yüksəliş dövrü kimi xarakterizə oluna bilər. Bu, Sovet İttifaqının 1979-cu ildə Əfqanıstana hərbi müdaxiləsi ilə əlaqədar idi. SSRİ-nin bölgədə möhkəmlənmək təhlükəsi PİR-ABŞ münasibətlərində yaranmış soyuqluğun aradan qaldırılmasını zəruri edirdi. Tarixində ilk dəfə idi ki, PİR-ABŞ ittifaqı özünün əsas məqsədinə – SSRİ-ə qarşı birgə mübarizəyə xidmət edirdi. Bununla əlaqədar 1981-ci ildə ABŞ ilə Pakistan arasında hərbi-texniki əməkdaşlığın genişləndirilməsinə dair müqavilə imzalanmışdı. Bu sənədə əsasən ABŞ 6 il müddətində PİR-ə 3.2 milyard dollar həcmində hərbi yardım etməyi (o cümlədən "M-60" tankları və "F-16" qırıcıları) öhdəsinə götürürdü[6]. Ümumiyyətlə bu dövr Pakistan-ABŞ münasibətlərindən danışarkən maraqlı bir faktı qeyd edək ki, 80-ci illər üçün Pakistan ABŞ-dan alınan hərbi yardımın həcminə görə dünyada yalnız İsrail və Misirdən geri qalırdı. Bu da birbaşa olaraq yuxarıda qeyd etdiyimiz amillə –Sovet ordusunun Əfqanıstana müdaxiləsi ilə bağlı idi.

Bu dövr Pakistanın ABŞ üçün əhəmiyyətini artıran daha bir amil isə İranda baş vermiş islam inqilabından sonra İranın ABŞ ilə müttəfiqliyinə son verməsi idi. Bölgədə İran inqilabından sonra yaranmış vakuumu doldurmaq məqsədilə ABŞ diplomatiyası Pakistanla daha sıx əməkdaşlıq xəttini götürmüşdü[7].

90-cı illərin əvvəllərində "Soyuq müharibə"nin bitməsi ilə avtomatik olaraq PİR-in ABŞ üçün əhəmiyyəti azalmış oldu, belə ki, "Soyuq müharibə" illərində ABŞ bu Cənubi Asiya ölkəsini sosializmə qarşı mübarizə aparan blokun bir üzvü kimi nəzərdən keçirir və onunla qlobal deyil, regional əməkdaşlığa üstünlük verirdi. Pakistanın əhəmiyyətinin ABŞ üçün azalması ilə eyni zamanda Hindistanın önəmi artmağa başladı[8]. Hələ "Soyuq müharibə" illərində bir çox amerikan siyasi dairələrində (xüsusilə demokratlar düşərgəsində) Hindistan faktoruna böyük önəm verirdilər. Hindistanın potensialı və inkişaf templərini nəzərə alan bu dairələrin nümayəndələri hesab edirdi ki, Hindistan ilə yaxınlaşmaqla onun potensialından ABŞ-ın xeyrinə yararlanmaq lazımdır. 90-cı illərin əvvəllərində yuxarıda qeyd etdiyimiz səbəblər üzündən bu nöqteyi-nəzər özünə daha çox tərəfdar toplamağa başladı. Onlar tələb edirdilər ki, ABŞ "Soyuq müharibə"dən sonrakı geosiyasi reallıqları nəzərə alaraq Hindistan ilə yaxınlaşsın.

Paralel proses Pakistanda da gedirdi. Kəşmir probleminin həlli və iqtisadi dirçəlişə nail olmaqla bağlı ABŞ-a bəslənən ümidlərin puça çıxması, ABŞ-Hindistan əlaqələrinin genişlənməsi PİR rəhbərliyini də öz xarici siyasət kursuna yenidən baxmağa vadar edirdi. Pakistan da öz növbəsində Çin ilə əlaqələrini genişləndirməyə, islam dünyası ilə sıx əməkdaşlığa can atırdı.

Beləliklə, XX əsrin sonuncu onilliyində Pakistan-ABŞ münasibətlərində nəzərəçarpacaq soyuqluq yaranmağa və getdikcə artmağa başladı. XX əsrin son onilliyində bu iki dövlət arasında qarşıdurma obyektinə çevrilmiş məsələlər aşağıdakılardır:

– Nüvə sınaqları – Pakistanın nüvə proqramı barədə III fəslin II paraqrafında ətraflı məlumat veriləcəkdir. Hələliksə onu qeyd edək ki, artıq 80-ci illərin ortaları üçün PİR-in bu sahədə müəyyən uğurlar əldə etməsi ABŞ Konqresini 1985-ci ildə "Xarici dövlətlərə yardım haqqında qanun"a Pressler düzəlişini qəbul etməyə vadar etdi. Düzəlişə əsasən Reyqan administrasiyası hər il ya Pakistanın nüvəsiz dövlət statusunu təsdiq etməli, ya da (əgər Pakistan atom silahını əldə etməyə ciddi surətdə yaxınlaşıbsa) ona qarşı sanksiyalar tətbiq etməli idi. 1990-cı ildə ABŞ prezidentinin Pakistanın nüvəsiz dövlət statusunu təsdiq etməsindən imtina etməsi elə həmin il Pressler düzəlişinin qüvvəyə minməsi ilə nəticələndi[9]. ABŞ Pakistana hərbi texnologiya və silah satışını dayandırdı[10]. Bu qadağa ilk növbədə Pakistana 38 ədəd "F-16" qırıcılarının (dəyəri 658 milyon dollar) verilməsini əhatə edirdi. Xatırladaq ki, Pressler düzəlişinin qüvvəyə mindiyi dövr Əfqa-

nıstanda sovetlər əleyhinə birgə ABŞ-Pakistan mübarizəsi yenicə başa çatmışdı. Bu da təsadüfi sayılmamalıdır, belə ki, sovet ordusunun Əfqanıstandan çıxması ilə ABŞ-ın öz regional müttəfiqinə ehtiyacı, hətta belə demək mümkünsə, asılılığı öz əhəmiyyətini itirmiş və amerikan diplomatiyası onu narahat edən məsələlər ilə bağlı daha açıq siyasət yeritməyə başlamışdı. Hətta 11.000-lik Pakistan hərbi kontingentinin birinci Körfəz savaşında iştirakı belə sanksiyaların yumşaldılmasına səbəb olmadı[11]. Yalnız 1996-cı ildə uzunsürən və gərgin danışıqlardan sonra Xarici Yardım Aktı haqqında Braun düzəlişinə əsasən ABŞ Pakistana 368 milyon dollar dəyərində hərbi sursat satmaq razılığına gəldi[12]. Bu, ABŞ-ın öz müttəfiqinə qarşı tətbiq etdiyi sanksiyaları yumşaltmaq istəyinin bariz nümunəsi idi. Buna baxmayaraq Pressler düzəlişi öz qüvvəsində qalırdı.

1998-ci ilin mayında Hindistanın nüvə sınaqları keçirməsi ABŞ-ın hakim dairələrində dərin narahatlıqla qarşılandı. ABŞ Dövlət katibinin müavini Stroub Telbot may ayının 15-də Pakistana 2 günlük səfərə gəldi. Səfərdən məqsəd Pakistanı analoji addım atmaqdan çəkindirmək idi. Bu məqsədinə nail olmaq üçün ABŞ diplomatı hətta Pakistana bir sıra iqtisadi-hərbi xarakterli güzəştlər, o cümlədən Pressler düzəlişinin tam şəkildə icrasının dayandırılmasını təklif edirdi. Lakin bildiyimiz kimi, ABŞ-ın bu cəhdləri heç bir nəticə vermədi və Pakistan mayın sonları özünün nüvə sınaqlarını keçirtdi[13]. Buna cavab olaraq hər 2 dövlətə münasibətdə amerikan sanksiyaları yenidən işə düşmüş oldu. Amerikan sanksiyaları özündə bu maddələri ehtiva edirdi:

– ABŞ tərəfindən dövlət yardım proqramlarının dayandırılması;

– Amerika hökumətinin zəmanəti əsasında kredit verilməsinin dayandırılması;

– Hərbi texnika və ikili təyinatlı (yəni həm mülki, həm də hərbi xarakterli məqsədlər üçün istifadə oluna biləcək) avadanlıqların satışının qadağan olunması;



– Beynəlxalq təşkilatlar tərəfindən Pakistana maliyyə yardımlarının dayandırılması;

– Amerika bankları tərəfindən kommersiya kreditlərinin verilməsinin dayandırılması.

Üstəlik ABŞ hökuməti tələb edirdi ki:

– Hər iki dövlət nüvə sınaqlarından tam şəkildə imtina etsinlər;

– NSQÇS-ə qoşulsunlar;

– Nüvə döyüş başlıqlarını yaratmasınlar və ballistik raketlərin bu tip başlıqlarla təchizinə son qoysunlar;

– Birbaşa danışıqlara başlasınlar.

Sanksiyaların tətbiqi nəticəsində ölkədə iqtisadi vəziyyətin daha da pisləşdiyini və siyasi izolyasiyaya düşdüyünü görən Pakistan rəhbərliyi təcili surətdə vəziyyətdən çıxış yolu axtarmağa başlamışdı. 1998-ci ilin dekabrında Pakistanın baş naziri Nəvaz Şərifin ABŞ-a səfərini də bu kontekstdə nəzərdən keçirmək lazımdır. Səfərdən məqsəd nüvə sınaqlarından sonra Pakistana münasibətdə sərt mövqe nümayiş etdirən Bill Klinton administrasiyası ilə problemi yoluna qoymaq idi. Pakistanın baş naziri buna qismən nail oldu, belə ki, ikitərəfli görüşdən sonra ABŞ prezidenti B. Klinton nüvə gərginliyinin azaldılması sahəsində müəyyən addımlar atdığına görə PİR-ə qarşı tətbiq edilmiş sanksiyaların yumşaldılmasına razılığını verdi. Sanksiyaların yumşaldılması beynəlxalq maliyyə institutlarının, birinci növbədə isə BVF-nun Pakistana yardım proqramlarının bərpası ilə müşayiət olundu[14].

– Kəşmir münaqişəsinin nizamlanması ilə bağlı tərəflərin baxışlarında mövcud fikir ayrılıqları da iki dövlət arasında problem yaradan məsələlərdəndir. ABŞ tələb edir ki, Pakistan Kəşmir partizanlarına hərbi-maliyyə dəstəyini dayandırsın və onları qanundan kənar elan etsin – başqa sözlə, ABŞ münaqişənin istisnasız olaraq diplomatik yollarla çözülməsinin tərəfdarıdır. Bununla əlaqədar bildirmək istərdik ki, məhz ABŞ diplomatiyasının səyləri ilə 1990 və 1999-cu illərdə regionda növbəti hind-Pakistan müharibəsi təhlükəsi aradan qaldırılmışdı. Pakistanın hər

iki halda belə demək mümkünsə "davakar" siyasəti ABŞ-ın etirazına səbəb olmuş və Pakistan rəhbərliyi ciddi tənqidlərə məruz qalmışdı. Bununla yanaşı qeyd etmək zəruridir ki, ABŞ digər münaqişə tərəfi – Hindistanı da problemə münasibətdə radikal addımlardan çəkinməyə və güzəştlərə hazır olmağa çağırır. Məsələn, 2002-ci il iyulun 28-də Dehli səfəri zamanı ABŞ-ın dövlət katibi Kolin Pauell Kəşmir münaqişəsinin nizamlanması çərçivəsində siyasi dustaqların azad edilməsini (ABŞ diplomatı ilk növbədə son bir neçə ayda hind hakimiyyət orqanları tərəfindən həbs edilmiş hindistanlı jurnalistləri və siyasətçiləri nəzərdə tuturdu) və 2002-ci ilin payızında Cammu və Kəşmir ştatında keçiriləcək parlament seçkilərində beynəlxalq müşahidəçilərin iştirakının vacibliyini vurğulamışdı. ABŞ diplomatının fikrincə, məhz azad və ədalətli seçkilər 55 illik tarixə malik münaqişənin həlli yolunda irəli addım demək olardı. Bundan başqa, Kəşmir probleminin həllini tezləşdirmək məqsədilə ABŞ dəfələrlə Pakistan və Hindistana müraciət edərək problemin həllini tapacağı təqdirdə hər 2 tərəfə genişhəcmli iqtisadi yardım göstərəcəyini vəd etmişdir, lakin təklifə müsbət cavab verilməmişdir. Son dövrlər isə ABŞ diplomatiyası belə bir tezislə çıxış edir ki, Kəşmir probleminin həllində maraqlı tərəflər iqtisadi-ticari əməkdaşlığı genişləndirməlidirlər. ABŞ-ın fikrincə, məhz iqtisadi münasibətlərin genişləndirilməsi nəticə etibarilə Kəşmir probleminin nizamlanması üçün bazis rolunu oynaya bilər[15].

– PİR-də hərbi rejimlərin mövcudluğu hər zaman demokratiya və insan hüquqları prinsiplərinə sadiqlik nümayiş etdirməyə çalışan ABŞ-ın narahatlığına səbəb olub. Lakin SSRİ ilə mübarizədə regional müttəfiqinə ehtiyac duyan ABŞ bu məqamı qabartmamağa çalışırdı[16]. 1999-cu il oktyabrın 12-də general Pərviz Müşərrəfin baş nazir N. Şərifi devirərək hakimiyyətə gəlməsi ABŞ-ın kəskin tənqidinə tuş gəldi, Pakistana münasibətdə yeni sanksiyalar işə düşdü. ABŞ çevriliş nəticəsində həmçinin Hindistanla sülh dialoqunun pozulacağından da ehtiyat edirdi. Təsadüfi deyil ki, 2000-ci ildə Cənubi Asiya turnesinə çıxan ABŞ prezidenti B. Klinton martın 25-də Pakistanda səfərdə olarkən Pakistanın İcra Hakimiyyəti başçısı P. Müşərrəfdən tələb etmişdi ki, Kəşmir separatçılarının dəstəklənməsi dayandırılsın və Hindistanla sülh danışıqlarına başlanılsın. Əks təqdirdə Pakistan beynəlxalq təcridə düşə bilər. Diqqət çəkən daha bir məqam isə Pakistanı cəmi 6 saatlığa ziyarət edən ABŞ prezidentinin qonşu Hindistanda 5 günlük səfərdə olması idi[17](Onu da əlavə edək ki, 1999-cu ildə B. Klintonun Hindistana səfəri zamanı ABŞ prezidentini müxtəlif dairələrə, o cümlədən biznes sferasına mənsub olan 2000 şəxs müşayiət edirdi. Bu bir daha ABŞ elitasının Hindistanla əlaqələrin gücləndirilməsində necə maraqlı olduğunu göstərmiş olur)[18]. Bu da sözsüz ki, Pakistanda baş vermiş dövlət çevrilişi ilə əlaqədar idi;

– XX əsrin sonuncu onilliyində tərəflər arasında ciddi fikir ayrılığı doğuran məsələlərdən biri də əfqan problemi idi. İstər birinci əfqan müharibəsi zamanı, istərsə də Nəcibulla rejiminə qarşı mübarizədə Pakistan ilə ABŞ eyni mövqedən çıxış edirdilər. 1994-cü ildə "Taliban" hərəkatı meydana çıxarkən bir sıra siyasi dairələrdə bu hərəkatın arxasında Pakistan ilə yanaşı ABŞ-ın da dayandığı fikri geniş yayılmışdı. Lakin 1996-cı ilin payızından etibarən ABŞ diplomatiyası Əfqanıstanda gedən proseslərə münasibətini dəyişməyə başladı. ABŞ Pakistan rəhbərliyindən tələb edirdi ki, o da taliblərlə bütün əlaqələrə son versin və onları dəstəkləmə siyasətindən imtina etsin. Lakin bir sıra mülahizələr üzündən PİR taliblərlə münasibət saxlamaqda davam edirdi. Əfqanıstanda ABŞ əleyhinə ciddi təbliğatın aparıldığı bir sıra hərbi təlim düşərgələrinin mövcudluğu və ABŞ tərəfindən axtarışda olan Ü. bin Ladenin məhz Əfqanıstan ərazisində gizlənməsi də Pakistan-ABŞ mü-nasibətlərində narazılıq və narahatlıq yaradan məqamlardan idi.

Bütün bunlara rəğmən 2000-01-ci illər qarşılıqlı münasibətlər tarixində çoxsaylı səfərlər dövrü kimi yadda qalıb.

2000-ci ilin mayında ABŞ Dövlət katibinin siyasi məsələlər üzrə müavini Tomas Pikerinq, iyunda konqresmen Cozef Pitts, iyulda konqresmen David Bonior, dekabrda konqresmen Meycor Ouens, 2001-ci ilin yanvarında isə senator Arlen Spekter Pakistana, 2000-ci ilin iyununda Pakistanın xarici işlər naziri Əbdül Səttar, sentyabrda isə BMT-nin Minillik sammiti ilə əlaqədar P. Müşərrəf ABŞ-a səfər etmişdilər. Həmin ilin noyabrında isə Narkotiklər üzrə Pakistan Dövlət katibinin başçılıq etdiyi nümayəndə heyəti ABŞ-a yollanmışdı. Bütün bu sadalanan səfərlər zamanı əsas müzakirə obyektləri qarşılıqlı münasibətlərin inkişaf mexanizminin təkmilləşdirilməsi, Kəşmir və nüvə sınaqları, sanksiyaların ləğvi, həmçinin beynəlxalq cinayətkarlığa qarşı birgə mübarizə məsələləri olmuşdur[19].

## § 2. Pakistanın Əfqanıstanda "antiterror kampaniyası"nda iştirakı: məqsəd və nəticələr

2001-ci il sentyabrın 11-i ABŞ-ın Vaşinqton və Nyu-York şəhərlərində baş vermiş və minlərlə insanın ölümü ilə nəticələnən terror aktları dünya ictimaiyyətində terrorizmə münasibəti kökündən dəyişdirdi. Əgər 11 sentyabr hadisələrinə qədər bu münasibət sanki tolerant xarakter daşıyırdısa, 11 sentyabr hadisələrindən sonra dünya dövlətləri "Qara İnternasional"a – beynəlxalq terrorizmə qarşı koalisiyada birləşdilər[20].

Birləşmiş Millətlər Təşkilatının 2001-ci il sentyabrın 28-də qəbul etdiyi qətnamə də bu amala xidmət edirdi. Qətnamə beynəlxalq terrorizm və ona qarşı mübarizə metodlarına həsr olunmuşdu. Qətnamədə bildirilirdi ki, bütün dövlətlər terrorizmin maliyyələşdirilməsinin qarşısını almalı, terrorizmlə əlaqədə şübhəli bilinən şəxslər və qurumların maliyyə vəsaitləri və bank hesablarını dondurmalıdır. Dövlətlər terror aktlarında əli olan şəxslərə münasibətdə dəstəyin hər hansı formasından imtina etməli, terror aktlarının sifarişlərinin qarşısını almaq üçün zəruri addımlar atmalı, terror aktlarının maliyyələşdirilməsi, planlaşdırılması, dəstəklənməsi və həyata keçirilməsində əli olan şəxslərə sığınacaq verməməlidirlər. Dövlətlər terrorçulara öz ərazilərindən başqa dövlətlərə və vətəndaşlara qarşı istifadə etməyə şərait yaratmamalıdırlar. Həmçinin dövlətlər terror aktları və terror hərəkatları, silah və narkotik alveri, terrorçu qruplaşmalar tərəfindən kommunikasiya və texnologiyaların istifadəsi barədə informasiya mübadiləsini sürətləndirməli və artırmalıdırlar.

ABŞ-dakı terror aktlarından dərhal sonra Corc Buş administrasiyası bu aksiyanın arxasında ərəb milyoner-terrorçusu Üsamə bin Laden və onu himayə edən əfqan "Taliban" rejiminin dayandığını elan etdi. Əfqanıstanda müharibə planı ABŞ-ın xarici siyasətində 1 №-li vəzifəyə çevrilərkən ABŞ-Pakistan münasibətlərinin normallaşması məsələsi gündəmə gəldi. Münasibətlərin normallaşmasını zəruri edən faktor məhz Əfqanıstanda aparılması nəzərdə tutulan antiterror əməliyyatı idi. Antiterror kampaniyasında Pakistanın əhəmiyyətini gözəl anlayan (Pakistanın Əfqanıstanla qonşuluqda yerləşməsi və bu ölkədə gedən proseslərə təsir imkanlarının olması) Buş administrasiyası 11 sentyabr hadisələrindən sonrakı ilk günlərdə bu ölkənin rəhbərliyi ilə intensiv danışıqlar aparırdı. Danışıqlardan məqsəd Pakistanın beynəlxalq koalisiyanın tərkibində əfqan savaşına qatılması idi[21].

2001-ci ilin payızı siyasi baxımdan Pakistan rəhbərliyi üçün ağır dövr kimi xarakterizə oluna bilər. Hətta bir çox ekspertlər belə hesab edirdi ki, Pakistan antiterror kampaniyasında iştirakdan boyun qaçıracaq. Bunu onlar hədəfə çevrilmiş "Taliban" ilə Pakistan arasında mövcud münasibətlərlə əlaqələndirirdilər. Lakin gözlənilənlərin əksinə olaraq PİR öz seçimini etdi və antiterror kampaniyasında iştirak etmək qərarına gəldi. Bu zaman ortaya belə bir sual çıxır: nəyə görə Pakistan "Taliban"a qarşı çıxmaq və ABŞ-ı dəstəkləmək qərarını verdi? Bunun səbəblərini aşağıdakı kimi qruplaşdırmaq olar:

a) "Taliban"ın mövcud olduğu son 5 il ərzində (1996-2001) o, Pakistanın bölgədə mövqelərini möhkəmləndirmək əvəzinə bu mövqelərə zərbə vurmuşdu. Təsadüfi deyil ki, rus müəlliflərindən Aleksandr Lyaxovski yazırdı: ""Taliban" hərəkatı eyni zamanda İran, Hindistan və Rusiyaya qarşı yönəlmiş ağıllı geosiyasi kombinasiyadır"[22]. Hərəkat öz radikal siyasəti ilə məhz bu düşüncənin formalaşmasına səbəb olmuşdu. Bir sözlə, "Taliban" artıq Pakistanın milli maraqlarına və region dövlətləri ilə münasibətlərinə əngəl törədən amil kimi qavranılırdı;

b) Hələ I əfqan savaşı zamanı (1979-89) ABŞ-ın strateji partnyoru olmaqla Pakistan bölgədə çox ciddi nailiyyətlər əldə etmişdi. 90-cı illərin əvvəllərində ABŞ-ın regiona marağı azaldıqdan sonra Pakistan Hindistanla rəqabətdə geri qalmağa başladı. Antiterror kampaniyası Pakistan İslam Respublikasına bu disbalansı düzəltmək üçün bir şans verirdi. Eyni zamanda əgər Pakistan ikinci əfqan müharibəsində iştirakdan boyun qaçırsaydı, Hindistan bu fürsətdən yararlanıb ABŞ-la yaxınlaşa bilərdi. Bu isə Pakistanın bölgədə mövqelərinin zəifləməsi demək olardı;

c) Ağır iqtisadi durumda olan və 173 ölkə içərisində sosial inkişaf indeksinə görə 134-cü yeri tutan Pakistan əfqan kampaniyasında iştirakı müqabilində ABŞ-dan sanksiyaların ləğvini və geniş iqtisadi-maliyyə yardımı gözləyirdi[23];

ç) Antiterror kampaniyasında iştirak etməklə Pakistan diplomatiyası Kəşmir problemi ilə bağlı ABŞ-ın dəstəyini əldə etmək və bu dəstəkdən istifadə edərək rəsmi Dehlini danışıqlar stolu arxasına oturtmaq istəyirdi. Təsadüfi deyil ki, Pakistanın antiterror kampaniyasında iştirakı ilə bağlı İslamabada səfər etmiş ABŞ-ın Dövlət katibi Kolin Pauellə görüş zamanı Pərviz Müşərrəf bəyan etmişdi: "Əfqanıstan müharibəsi qısa, qurulacaq əfqan hökuməti koalision, Kəşmir isə Pakistanın olmalıdır";

d) "Taliban"ın devrilməsi ilə Pakistanın zəngin karbohidrogen ehtiyatlarına malik Mərkəzi Asiya respublikaları ilə iqtisadi münasibətlərinin daha da genişlənəcəyi gözlənilirdi (Əfqanıstanın şimalında, Mərkəzi Asiya respublikaları ilə həmsərhəd ərazilərdə vətəndaş müharibəsinin getməsi buna mane olurdu)[24].

2001-ci il sentyabrın ortalarında ABŞ-ın Pakistandakı səfiri Vendi Çemberlini qəbul edən PİR rəhbəri Pərviz Müşərrəf danışıqlar gedişində ABŞ administrasiyasının bütün istəklərini qəbul edir. Bu istəklər isə özündə Pakistan-Əfqanıstan sərhədinin bağlanılması, Pakistan səması və hərbi bazalarından amerikan ordusunun istifadə etməsi, MKİ (Mərkəzi Kəşfiyyat İdarəsi) ilə İSİ-nin (Pakistan İdarələrarası Kəşfiyyat Xidməti) əməkdaşlığını və müttəfiq dövlətlərlə sıx işbirliyini ehtiva edirdi[25].

Bununla yanaşı ifrat Qərbpərəst siyasət yeritməklə ölkə daxilində və islam dünyasında kəskin etirazla üzləşmək istəməyən PİR diplomatiyası ehtiyatlı siyasət yeridir, "Taliban" ilə əlaqələrini tam şəkildə kəsmir, əfqan savaşına qatılacağı ilə bağlı qəti mövqe ortaya qoymaqdan çəkinirdi. Pakistan rəhbərliyi əfqan müharibəsinə qoşulacağı təqdirdə yarana biləcək bir sıra çətinlikləri nəzərə alırdı:

– Əfqanlar Pakistanda sayca ikinci etnosdur və ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayırlar. Əfqanıstan savaşına Pakistanın da qatılması 20 milyonluq puştun icmasının ayağa qalxması üçün bir siqnal rolunu oynaya bilərdi;

– Savaşın başlanması ilə ölkəyə yeni qaçqın axını ola bilərdi. Bu isə Pakistanın yenidən iqtisadi-maliyyə çətinlikləri ilə qarşılaşması demək idi;

– İctimai rəy əfqan müharibəsi və bu müharibədə Pakistanın iştirakının əleyhinə idi. Aparılan rəy sorğularına görə, əhalinin cəmi 7%-i P.Müşərrəfin siyasətini dəstəkləyirdi, 63% isə bunun qəti əleyhinə idi;

– Hərbi əməliyyatların Pakistan ərazisinə keçmə ehtimalı böyük idi[26].

Pakistanda ABŞ əleyhinə etiraz dalğasının artması Pakistan lideri Pərviz Müşərrəfi televiziya vasitəsilə açıqlama ilə çıxış etməyə vadar etmişdi. O, ölkəsinin mövcud durumda ağıllı qərar verməsinin lazım olduğunu söyləyə-

rək ABŞ-ın yalnız Üsamə bin Ladenlə maraqlandığını, islam və əfqanlar əleyhinə olmadığını bildirmişdi. P.Müşərrəf ABŞ ilə əməkdaşlıqdan imtinanın ölkəsinə ağır başa gələcəyini və əzəli rəqib Hindistanın bundan yararlanacağını da vurğulamışdı. Eyni zamanda Molla Məhəmməd Ömərə məktub göndərdiyini bildirən Pakistan lideri məqsədinin "Taliban"ın zərər görməməsi olduğunu bəyan etmişdi.

O dövr bir sıra politoloqlar və ekspertlər belə hesab edirdi ki, tezliklə Pakistanda dövlət çevrilişi ola və hakimiyyətə radikal islamçılar gələ bilər. Öz fikirlərini onlar Üsamə bin Ladenin Qətərin "Əl-Cəzirə" telekanalına verdiyi müsahibə ilə əsaslandırırdılar. Bu müsahibədən onun "İki müsəlman dövləti bir olsa, ABŞ onlara bata bilməz" fikirləri sitat kimi gətirilir və bildirilirdi ki, iki müsəlman dövləti deyiləndə Pakistanın nüvə potensialı və əfqan mücahidləri nəzərdə tutulur.

Həqiqətən də antiterror əməliyyatının ilk günləri Pakistan şəhərlərində keçirilən izdihamlı nümayişlər, islami hərbi-siyasi qruplaşmaların hədə-qorxuları və bəzi yerlərdə silahlı iğtişaşlar elə təsəvvür yaradırdı ki, vəziyyət hər an kökündən dəyişə bilər. Lakin Müşərrəf hökuməti vəziyyəti sabitləşdirə bildi. Buna o, iki yolla nail oldu:

a) Pakistan hökumətini "Taliban" tərəfdarlarından təmizlədi. Bu, ilk növbədə güc strukturlarına aid idi. Belə ki, Pakistan kəşfiyyatının şefi Mahmud Əhmədi və Baş qərargah rəisinin müavini Müzəffər Uzami istefaya göndərildilər[27];

b) Əfqanıstan-Pakistan sərhəddini bağladı. Bununla da radikal ünsürlərin və artıq miqdarda qaçqınların ölkəyə daxil olmasının qarşısını aldı[28].

Pakistan xarici işlər nazirliyinin mətbuat katibliyinin nümayəndəsi Məhəmməd Riaz xan keçirdiyi brifinqlərdən birində bildirmişdi ki, Pakistan hökuməti Üsamə bin Laden və onun əlaltılarının bank hesablarını dondurub və Pakistanda çalışan bütün əfqan şirkətlərinin filiallarını bağlayıb. Lakin taliblərə humanitar yardım göstərilməkdə



davam edilirdi, çünki əks-təqdirdə bu, Əfqanıstan ərazisindən kütləvi qaçqın axınına səbəb ola bilərdi. Sentyabrın 23-də keçirdiyi digər brifinqdə isə M.Riaz xan bəyan etmişdi ki, Pakistan "Taliban"ın dünyanın digər dövlətləri ilə əlaqəsi üçün açılan bir pəncərədir və bu üzdən Pakistan talib hökuməti ilə diplomatik münasibətləri kəsmək fikrində deyildir. Göründüyü kimi, Pakistan rəsmilərinin bu tip bəyanatları PİR diplomatiyasının ehtiyatlı mövqe nümayiş etdirdiyini göstərməklə yanaşı islam aləmini bir növ sakitləşdirmək məqsədini də güdürdü. Lakin antiterror koalisiyasının Əfqanıstanda qazandığı hərbi uğurlar Pakistanı da tədricən öz mövqeyini dəyişməyə vadar etdi. 2001-ci il noyabrın əvvəllərində dünya turnesinə çıxan Pakistan rəhbəri Pərviz Müşərrəf Parisdə Fransa prezidenti Jak Şirakla görüşündə bəyan etdi: "Taliban" rejimini dəyişdirməyin vaxtı çatıb". Həmin il noyabrın 22-də isə Pakistan rəhbərliyi İslamabadda fəaliyyət göstərən "Taliban" səfirliyini bağladı[29]. Bundan bir qədər əvvəl Pakistanın Kəraçi, Kvetta və Peşəvər şəhərlərindəki "Taliban" konsulluqları da bağladılmışdı. Beləliklə, Pakistanın bu addımından sonra "Taliban" rejimi tam siyasi təcridə düşmüş oldu və dekabrın 7-də sonuncu istinadgahı Qəndəhar şəhərinin alınması ilə süquta uğradı.

Bu dövr əfqan siyasətində Pakistan diplomatiyasını narahat edən məsələlərdən məhz biri də post-Taliban Əfqanıstanında hansı qüvvənin hakimiyyətə gələcəyi idi. Pakistan rəsmiləri dəfələrlə bəyan etmişdilər ki, hakimiyyətə "Şimal Alyansı"nın (Əfqanıstanda etnik qrupların hərbi-siyasi koalisiyası) gətirilməsi və bu yolla etnik çoxluq olan puştunların (əfqanların) maraqlarının nəzərə alınmaması nəinki Əfqanıstanda, ümumilikdə regionda vəziyyəti yenidən gərginləşdirəcək. Buna görə də Əfqanıstanda milli həmrəylik əsasında yeni hökumət qurulmalıdır.

Ümumiyyətlə Pakistanın II əfqan savaşında iştirakından danışarkən qeyd etmək lazımdır ki, Pakistan təkcə siyasi-diplomatik vasitələrlə ABŞ-ın apardığı hərbi kampaniyaya dəstək vermirdi. Əfqanıstanla həmsərhəd rayonlarda ta-

liblərə qarşı Pakistan ordusunun vaxtaşırı keçirdiyi əməliyyatlar, həmçinin "Taliban" və "Əl-Qaidə" ierarxiyasında yüksək pillə tutan şəxslərin Pakistan xüsusi xidmət orqanları vasitəsilə həbsi dediklərimizi təsdiq edə bilər. "Əl-Qaidə"nin 3 lideri – Əbu Zübeydə, Şeyx Xalid Məhəmməd və təşkilatın xəzinədarı Mustafa Əhməd əl-Həvsəvi məhz Pakistan ərazisində həbs olunublar[30]. Pakistan xüsusi xidmət orqanlarının "Əl-Qaidə" ilə mübarizəsində qazandığı sonuncu irimiqyaslı uğur isə 2004-cü il iyulun sonlarında bu təşkilatın Tanzaniyadan olan lideri Əhməd Halfan Qeylaninin ölkə ərazisində həbsidir. Xatırladaq ki, bu şəxs 1998-ci il Keniya və Tanzaniyada ABŞ səfirlikləri qarşısında terror aktlarının təşkilində ittiham olunur[31].

Əfqanıstanda antiterror kampaniyasından artıq 4 ilə yaxın vaxt ötür və biz Pakistanın əldə etdiyi nailiyyətlərdən söhbət aça bilərik:

a) ABŞ Konqresi PİR-in 1998-ci il nüvə sınaqları və 1999-cu il dövlət çevrilişindən sonra üzləşdiyi sanksiyaları tam şəkildə ləğv etdi. Sanksiyaların ləğvi öz növbəsində ABŞ-ın və ümumilikdə beynəlxalq maliyyə institutlarının Pakistana iqtisadi yardım proqramlarının yenidən işə düşməsinə səbəb oldu: ABŞ-ın yaxından dəstəyi ilə Beynəlxalq Valyuta Fondu genişləndirilmiş kreditləşdirmə proqramı əsasında PİR-ə 136 milyon dollarlıq tranş təqdim etdi. Prezident Corc Buş öz növbəsində Pakistana ilkin olaraq 100 milyon dollarlıq yardımın göstərilməsi barədə sərəncam imzaladı[32]. ABŞ Dövlət katibi K. Pauell isə 2002-ci il yanvarın 17-də, çıxışlarından birində Beynəlxalq inkişaf üzrə ABŞ Agentliyi – USAİD-in nümayəndəliyinin yaxın gələcəkdə yenidən Pakistanda fəaliyyətini bərpa edəcəyini bildirmişdi. 1948-ci ildən Pakistanda fəaliyyət göstərən bu agentlik 1990-cı ildə Pakistanın nüvə proqramını inkişaf etdirməsinə etiraz əlaməti olaraq bu ölkədə fəaliyyətini dayandırmışdı[33]. Öz növbəsində digər böyük dövlət və Pakistanın partnyoru Böyük Britaniya da Pakistana 40 milyon funt-sterlinq həcmində maliyyə yardımı ayırmışdı. Beləliklə, Pakistan milli iqtisadiyyat üçün ağır zərbə olan sanksiyalardan qurtuldu və yenidən Qərbin iqtisadi-maliyyə proqramlarına çıxış əldə etdi;

b) ABŞ Konqresi Pakistanın xarici borcundan 2.3 milyard dolları silmək barədə qərar qəbul etdi ki, bu da yüksək xarici borca malik (37 milyard dollar) Pakistan üçün əhəmiyyətli akt idi;

c) ABŞ ilə Pakistan arasında nüvə sınaqları və 1999-cu il 12 oktyabr dövlət çevrilişindən sonra dayandırılmış hərbi-texniki əməkdaşlıq bərpa edildi: 2002-ci il fevralın 10-da Ravalpindidə (Pakistan) tərəflər arasında son 20 il ərzində ilk dəfə hərbi əməkdaşlıq haqqında saziş imzalandı. Saziş ilk növbədə birgə hərbi təlimlərin keçirilməsini və hərbi-kəşfiyyat xarakterli informasiya mübadiləsini nəzərdə tuturdu. Sazişə uyğun olaraq 2002-ci ilin oktyabrında Pakistan ərazisində PİR-ABŞ hərbi kontingentlərinin birgə hərbi təlimləri keçirildi[34]. 2003-cü il oktyabrın 2-də isə Pakistanın Müdafiə katibi Həmid Nəvaz Xan ABŞ-a səfəri gedişində amerikan hərbi elitası tərəfindən Pakistana 341 milyon dollar həcmində hərbi yardım ayrılmasına nail olmuşdu;

ç) Pakistan diplomatiyası illərdən bəri çalışdığı, lakin nail ola bilmədiyi məqsədinə də çatmış oldu: Əfqanıstanda milli birlik zəminində koalisiyalı hökumət yaradıldı və bu qonşu ölkədə nisbi sabitlik bərqərar edildi.

Beləliklə, gördüyümüz kimi antiterror kampaniyasına qatılarkən Pakistan diplomatiyası konkret məqsədlər güdürdü və kampaniya gedişində bu məqsədlərini reallaşdıra bildi. Lakin PİR diplomatiyasının qazandığı ən böyük nailiyyət 90-cı illərdə gərgin münasibətlərdə olduğu ABŞ ilə yaxınlaşma və Pakistanın bu superdövlət ilə strateji partnyorluq münasibətlərini gücləndirməsi oldu.

Pakistan prezidenti Pərviz Müşərrəfin 2002-ci il fevralın ortaları ABŞ-a rəsmi səfəri də 11 sentyabr hadisələrindən sonra PİR-ABŞ münasibətlərinin getdikcə yüksələn xətt üzrə inkişafından xəbər verir. ABŞ prezidenti Corc Buş-oğulla görüşündə tərəflər Kəşmir münaqişəsi, əfqan məsələsi, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi və bey-

nəlxalq terrorizmlə mübarizə kimi aktual məsələləri müzakirə etmişdilər. Kəşmir probleminə toxunan Pakistan lideri bəyan etmişdi ki, Kəşmir probleminin, həmçinin Pakistan ilə Hindistan arasında mövcud digər problemlərin sülh yolu ilə həllinə tərəfdardır. P.Müşərrəf ABŞ-ı Kəşmir probleminin həllində vasitəçi rolunu oynamağa çağırmışdı. Əfqan məsələsinə toxunan P.Müşərrəf qeyd etmişdi ki, Əfqanıstan üçün reabilitasiya və rekonstruksiya dövrü başlamalı, mərkəzi hökumət gücünü artıraraq öz hakimiyyətini bütün ölkə üzərində bərqərar etməlidir. Öz növbəsində Kəşmir münaqişəsinə toxunan ABŞ prezidenti C.Buş bəyan etmişdi ki, Kəşmir məsələsi ilə bağlı ABŞ-ın edə biləcəyi ən yaxşı məsələ hər iki qarşıduran tərəfi danışıqlar stolu arxasına oturdaraq siyasi dialoq təşkil etməyə inandırmaqdır. ABŞ prezidenti həmçinin beynəlxalq terrorizmlə mübarizədə Pakistanın böyük rol oynadığını da vurğulamağı unutmamışdı. Görüş zamanı tərəflər İraq məsələsinə də toxunmuşdular. ABŞ prezidenti C.Buş ölkəsinin bu istiqamətdə yeritdiyi siyasətlə bağlı bəyan etmişdi ki, ABŞ Səddam Hüseyn rejiminin devrilməsi məqsədilə bu ölkəyə hərbi müdaxiləni istisna etmir. Yeri gəlmişkən, Pakistanın İraq probleminə və II Körfəz savaşına münasibəti maraq doğuran məsələlərdən biridir. Bu da onunla bağlıdır ki, I Körfəz savaşından fərqli olaraq Pakistan hərbi qüvvələri S.Hüseyn rejiminin devrilməsində iştirak etməmişdir. Ümumilikdə götürülsə Pakistan bu problemə münasibətdə daha çox neytral mövqedən çıxış etməyə üstünlük verir. Bunun da səbəbləri aydındır: əfqan savaşında ABŞ-ı yaxından dəstəklədiyinə görə Müşərrəf hökuməti istər ölkə daxilində, istərsə də ölkə xaricində kəskin tənqidlərə tuş gəlmişdi. İraq savaşında da ABŞ-ın dəstəklənməsi Pakistanın islam aləmində nüfuzunun kəskin surətdə aşağı düşməsi ilə nəticələnə bilərdi. Ölkəsinin bu mövqeyini P. Müşərrəf bir daha İraq müharibəsi ərəfəsində Lahorda jurnalistlər qarşısında verdiyi bəyanatında da təsdiqləmişdi. Bəyanatda PİR prezidenti Pakistan qoşunlarının yalnız BMT, İKT və ya digər beynəlxalq qurumlar çərçivəsində İraqa göndərilə biləcəyini vurğulayırdı[35].



P.Müşərrəfin ABŞ rəsmiləri ilə müzakirə etdiyi digər məsələ, qeyd etdiyimiz kimi, iqtisadi-maliyyə məsələsi idi. Səfər gedişində – fevralın 14-ü Ağ Evin verdiyi bəyanatda deyilirdi ki, Buş administrasiyası Pakistanın ABŞ-a 2.8 milyard dollarlıq borcundan 1 milyard dolları silmək barədə Konqreslə fəal iş aparacaqdır.

Səfər gedişində həmçinin ABŞ tərəfindən 2002-ci il üçün Pakistanın təhsil proqramına 34 milyon dollar ayrılması məsələsi də razılaşdırılmışdı.

Qeyd edək ki, üç günlük səfər gedişində Pakistan prezidenti ABŞ prezidenti C.Buşla yanaşı müdafiə naziri Donald Ramsfeld, Dövlət katibi Kolin Pauell, maliyyə naziri Pol O'Nil və ticarət naziri Don Evansla görüşlər keçirmişdi[36].

Beləliklə, son olaraq biz 1947-2003-cü illər Pakistan-ABŞ münasibətlərinə ümumiləşdirilmiş nəzər salsaq, görərik ki, bu münasibətlər idealdan uzaq olub. İstər "Soyuq müharibə" illərində, istərsə də müasir dövrdə mövcud olan, bir sıra hallarda isə hətta kəskinləşən problemlər buna bariz nümunədir. Lakin bütün bu problemlərin fonunda PİR-ABŞ müttəfiqlik münasibətlərinin yüksələn xətt üzrə inkişaf edəcəyini (xüsusilə 11 sentyabr hadisələrindən sonra) proqnozlaşdırmaq mümkündür. Bu, hər iki dövlətin müttəfiqlik münasibətlərini şərtləndirən əsas faktorların bu gün də dəyişməz qalması ilə bağlıdır: ABŞ ilə ittifaqda çıxış edən Pakistan bu yolla regionda öz dayaqlarını möhkəmləndirməyə, sosial-iqtisadi problemlərin həllinə və Hindistanla rəqabətdə hərbi-siyasi-iqtisadi balans yaratmağa çalışır. ABŞ isə öz növbəsində regional müttəfiqi vasitəsilə bölgədə mövqelərini gücləndirmək, narahat Əfqanıstanda hadisələrin gedişinə nəzarət etmək və İranın qarşısını almaq məqsədlərini güdür.

Nə qədər ki, hər iki dövlətin xarici siyasət prioritetlərində sadaladığımız bu məsələlər duracaq, Pakistan-ABŞ müttəfiqliyi də inkişaf edəcəkdir.

# ƏDƏBİYYAT


[1] Белокреницкий В.Я., Москаленко В.Н. «Пакистан». М., 1981, səh.18

[2] Мукимджанова Р.М. «Политика США в Пакистане. 1947-60». М.,1961, səh. 84

[3] Мукимджанова Р.М. "Пакистан, Южная Азия и политика США". səh. 371

[4] «Пакистан: экономика и история» (ответственный редактор Ганковский Ю.В.). М., 1980, səh. 119

[5] S.Ahmed "Pakistan's nuclear weapons program", səh. 186

[6] Москаленко В.Н. «Внешняя политика Пакистана». М., 1987, səh. 45

[7] Москаленко В. Н. "Внешняя политика стран Азии". М., 1985, səh.67

[8] A.V.Torkunovun red.altında. Göstərilən əsəri, səh. 394

[9] «Глава 4. Межгосударственные конфликты и региональная безопасность в Южной Азии» «Восток и Запад». М.,2002, səh. 425

[10] «Из биографий ядерных оружий Индии и Пакистана» http://www.cwpj.org/Publications/nucrep/n13-14/art

[11] "Ввод Советских войск в Афганистан. Нарушение геополитического равновесия" http://www.continent.kz/library/KN-2/2-1_8.html

[12] "Pakistan's nuclear weapons program", səh. 192

[13] Yenə orada, səh. 194

[14] "Pakistan-US relations" http://www.forisb.org/fpolicy

[15] Белокреницкий В.Я., Москаленко В.Н., Празаускас А.А. «Южная Азия: конфликты и геополитика». М., 1999, səh. 46

[16] Мукимджанова Р.М. «Пакистан и империалистические державы. 70-нач. 80-х гг.». М., 1984, səh. 54

[17] Алексей Тамилин "Клинтон переехал в Пакистан" http://www.ng.ru/world/2000-03-25/6_klinton.html

[18] Белокреницкий В.Я. Göstərilən əsəri, səh.30

[19] "Pakistan-US relations" http://www.forisb.org/fpolicy

[20] Нестерова Д.В. и др., «Известные теракты». səh. 368

[21] В.Кравченко "Пакистан. Война против террора", "Азия и Африка сегодня", № 12/01, səh. 31





[22] Нартов Н.А. Göstərilən əsəri, səh. 336

[23] «Центральная Азия до и после 11 сентября» http://www.kisi.kz/Parts/books/02-12-03Central_Asi

[24] Narbaev B. "Transafghan gas pipeline", səh.36

[25] Украинская сеть новостей «Пакистан признал свидетельства против бен Ладена убедительными» http://www.korrespondent.net/main/29968

[26] "Центральная Азия до и после 11 сентября" http//www.kisi.kz/Parts/books/02-12-03Central_Asi

[27] Московский Центр Карнеги-Публикации http://www.carnegie.ru//ru/pubs/media/48060

[28] Afganistan.Ru-Политика пакистанской разведки (İSİ) http://afghanistan.ru/doc.xhtml?id=792

[29] "Пакистан рвет отношения с талибами" http://www.dni.ru/news/world/2001/11/22/2338.html

[30] "США отзвучили статистику 2-летней антитеррористической кампании" http://www.podrobnosti.ua/power/2003/11/27/89607.html

[31] "Günay" qəzeti, 2004, 6 avqust

[32] АЭИ "ПРАЙМ-ТАСС" "Конгресс США отменил все санкции против Пакистана" http://www.rambler.ru/db/news/msg.html?mid=1987947

[33] "Агентство США по международному развитию откроет свое представительство в Пакистане" http://news.pravda.ru/abroad/2002/01/17/35688.html

[34] "Центрально-Азиатские новости" "Американо-пакистанские военные учения" http://centran.ru/cgi-bin/index.pl?cal=2002-10-16

[35] "Пакистан направит войска в Ирак только под эгидой ООН" http://www.rambler.ru/db/news/msg.html?mid=3671476

[36] «Президент Пакистана прибыл в Вашингтон для переговоров с Джорджем Бушем» http://www.strana.ru/news/112001.html

## III FƏSİL

## PAKİSTAN-HİNDİSTAN MÜNASİBƏTLƏRİNİN MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

### § 1. Kəşmir problemi: ikitərəfli münasibətlərdə başlıca maneə

Tarixə ekskurs etsək görərik ki, 60 illik tarixə malik Pakistan-Hindistan münasibətləri hər zaman öz gərgin xarakteri ilə fərqlənmişdir. Bu gərginliyin səbəbləri XX əsrin 40-cı illərindən – yarımadada milli azadlıq hərəkatının genişlənməsi və Britaniya diplomatiyasının fəaliyyətindən qaynaqlanır.

Qeyd etmək lazımdır ki, Pakistan ərazisində milli azadlıq hərəkatının önündə 1906-cı ildə yaradılmış Müsəlman Liqası partiyası və onun görkəmli lideri Məhəmməd Əli Cinnə gedirdi. 1940-cı ilin əvvəllərində Lahorda keçirilmiş toplantıda ML bəyan etmişdi ki, partiyanın əsas məqsədi müsəlman Pakistan dövlətinin yaradılması uğrunda mübarizə olacaqdır[1]. Bu siyasi xətt 1945-ci ilin iyun və 1946-cı ilin mayında Simlada Hindistan milli azadlıq hərəkatının liderləri ilə ingilis müstəmləkə dairələrinin nümayəndələri arasında keçirilmiş danışıqlar zamanı da təsdiq edilmişdi. M. Ə. Cinnə hesab edirdi ki, Hindistan ərazisində müsəlmanların əksəriyyət təşkil edəcəyi bir dövlətin yaradılmasına ehtiyac var. ML-nın lideri görkəmli hind inqilabçısı M. Qandinin məşhur "bir dövlət-bir millət" prinsipini özünün "iki dövlət-iki millət" (yəni hinduslar və müsəlmanlar) prinsipi ilə əvəzləməyin tərəfdarı qismində çıxış edirdi[2].



Sonradan Hindistanın dini zəmində parçalanması və bu zaman baş vermiş hindus-müsəlman qırğınları, fərqli xarici siyasət kurslarının mövcudluğu, tərəflərin bir-birilərini özlərinin ərazi bütövlüyü və suverenliyinə təhlükə kimi qavramaları – bütün bunlar Pakistan ilə Hindistan arasında bu gün də davam edən gərginliyin formalaşmasına xidmət edən faktorlar olmuşdur. Lakin iki dövlət arasında başlıca qarşıdurma obyekti – mübahisəli Kəşmir ərazisidir[3].

Kəşmir probleminin kökləri 1947-ci ilə – Britaniya Hindistanının bölündüyü dövrə təsadüf edir. Bu problemin yaranma səbəblərini də ilk növbədə Britaniya imperiyasının yeritdiyi "parçala və hökm et" siyasətində axtarmaq lazımdır. II dünya müharibəsindən sonra genişlənən milli azadlıq hərəkatı nəticəsində Cənubi Asiya regionunda uzun müddət qala bilməyəcəyini anlayan ingilis diplomatiyası Hindistanı 2 yerə bölməklə bölgə üzərində nəzarətini saxlamağa çalışırdı. 1947-ci ilin iyulunda Mauntbetten planı əsasında qəbul olunmuş "Hindistanın müstəqilliyi haqqında Akt"a görə Britaniya Hindistanının 2 dominiona – hinduslarla məskunlaşmış Hindistana və müsəlmanların çoxluq təşkil etdiyi Pakistana bölünməsi nəzərdə tutulurdu. Ümumiyyətlə, bu sənədin mahiyyətini anlamaq və onun sonrakı proseslərə nə kimi təsir göstərdiyini başa düşmək üçün o zamankı Hindistanın siyasi xəritəsinə diqqət yetirmək zəruridir. Məsələ burasındadır ki, 1947-ci ildə Hindistan iki inzibati-ərazi hissəsindən ibarət idi. Bunlardan birincisi 8 əyalətdən ibarət olub Britaniya Hindistanı adlanır və birbaşa Böyük Britaniyanın tabeliyində idi. Digər hissə isə 600-ə yaxın knyazlığı özündə birləşdirirdi və rəsmən Britaniya Hindistanına daxil deyildi (faktik olaraq isə onun tabeliyində idi). "Akt"da məhz bu knyazlıqların taleyi məsələsi açıq qalmışdı[4] (bu knyazlıqlar isə ümum-Hindistan ərazisinin 45.3%-ni təşkil edirdilər). Knyazlıqlar "azad seçim" prinsipi əsasında dominionlardan birini seçərək onun tərkibinə daxil ola bilərdilər. Ən iri knyazlıqlardan olan Kəşmir knyazlığına həm Hindistan, həm də

Pakistan ərazi iddiaları ilə çıxış edirdilər. Bu da səbəbsiz deyildi, belə ki, Kəşmir hakimləri – maharacalar (və ümumilikdə Kəşmir elitası) hindus olsalar da əhalinin böyük əksərini müsəlmanlar təşkil edirdi. Buna görə də Kəşmir maharacası Hari Sinqh 1947-ci il oktyabrın 27-də Hindistanın tərkibinə daxil olmaq barədə bəyanat verəndə bu, bölgə müsəlmanları və ilk növbədə Pakistan tərəfindən kəskin etirazla qarşılandı[5]. Bölgədə yaranmış gərgin siyasi atmosfer 3 dəfə – 1947-49, 1965 və 1971-ci illərdə iki dövlət arasında müharibəyə rəvac vermiş oldu.

Aparılan müharibələr nəticəsində Kəşmir ərazisinin 2/3-i Cammu və Kəşmir ştatı adı ilə Hindistanın, 1/3-i isə Azad Kəşmir adı altında Pakistanın nəzarətinə keçdi. Bu iki Kəşmiri isə biri-birindən 1972-ci ildə formalaşdırılmış Nəzarət Xətti ayırır[6].

Əlbəttə, bu dövr Pakistan-Hindistan münasibətlərinin yalnız müharibələr və siyasi-diplomatik qarşıdurmadan ibarət olduğunu düşünmək sadəlövhlük olardı. Kəşmir probleminin dinc yollarla nizamlanması məqsədilə tərəflər bir neçə dəfə danışıqlar stolu arxasına oturmuşdular. 1966-cı il Daşkənd və 1972-ci il Simla görüşləri buna əyani misaldır. Daşkənd görüşündə imzalanmış eyniadlı bəyannaməyə əsasən tərəflər mübahisəli məsələlərin həlli üçün qüvvə tətbiqindən imtina etməyi, qoşunları 1965-ci il 5 avqust sərhədlərinə çəkməyi və münasibətlərin tam həcmdə bərpasını öhdələrinə götürürdülər. 1972-ci ildə imzalanmış Simla sazişinə görə də tərəflər mübahisəli məsələlərin dinc yollarla həllinə çalışacaqlarını, beynəlxalq hüquq prinsiplərinə əməl etməyi və həlledici sülh müqaviləsi bağlanana qədər Kəşmirdə mövcud status-kvonun saxlanılmasını qərara almışdılar. Simla razılaşması əsasında həmçinin tərəflər arasında telefon, teleqraf və ticarət əlaqələrinin bərpası, hərbi əsirlərin qaytarılması həyata keçirilmiş, 1976-cı il iyulun 24-də qonşu dövlətlər arasında diplomatik münasibətlər bərpa edilmişdi[7].

1980-ci illər Kəşmir problemi tarixində siyasi dialoqlar və ikitərəfli görüşlərin mühüm əhəmiyyət kəsb etməyə başladığı bir dövr kimi nəzərdən keçirilə bilər. Buna misal olaraq 1987-ci il fevralın 4-də Caypur (Hindistan) görüşündə və 1989-cu ilin iyulunda Hindistanın baş naziri Raciv Qandinin Pakistana səfəri gedişində tərəflərin Kəşmir probleminin dinc vasitələrlə nizamlanacağı və hərbi qarşıdurmadan çəkinəcəkləri barədə bəyanatlarını göstərmək olar[8].

90-cı illərin əvvəllərində beynəlxalq münasibətlər sistemində baş vermiş bir sıra köklü dəyişikliklər (ilk növbədə SSRİ-nin süqutu və "Soyuq müharibə"nin bitməsi) Kəşmir probleminə münasibətdə Pakistan diplomatiyasının fəallaşmasına təkan verdi. SSRİ-nin dağılması ilə bölgədə sosializmin və Hindistanın mövqelərinin zəifləyəcəyi qənaətində olan Pakistan yaranmış şəraitdən öz xeyrinə yararlanmağa və beynəlxalq ictimaiyyətin diqqətini Kəşmir probleminə yönəltməyə çalışırdı. Bu məqsədlə Pakistan diplomatiyası problemi tez-tez beynəlxalq təşkilatların (ələlxüsus Birləşmiş Millətlər Təşkilatı və İslam Konfransı Təşkilatı) toplantılarında qaldırmağa, Nəzarət Xəttini tanımaqdan imtina etməyə və Kəşmirdə plebissit (referendum) keçirilməsini Hindistandan qətiyyətlə tələb etməyə başladı[9].

1989-90-cı illərdə Hindistanın yeritdiyi ayrı-seçkilik siyasəti və ağır iqtisadi durum Cammu və Kəşmir ştatında üsyana səbəb olduqda bu üsyan dərhal o zamankı PİR prezidenti Qulam İshaq xanın administrasiyası tərəfindən dəstəkləndi[10]. Pakistan Kəşmirdəki qruplaşmalara hərbi-texniki və maliyyə yardımı göstərməyə başladı.

Kəşmir üsyanı və bunun ardınca Pakistan-Hindistan münasibətlərinin kəskinləşməsi regionda dördüncü müharibənin başlanacağını deməyə bədbin əsaslar verirdi. Yalnız ABŞ diplomatiyasının məsələyə qarışması real savaş təhlükəsini aradan qaldırmış oldu. Prezident Corc Buşatanın xüsusi nümayəndəsi Robert Geytsin bölgəyə səfərindən sonra tərəflər danışıqlar stolu arxasında oturmağa razılıq verdilər.

1990-94-cü illərdə hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində 7 raundluq danışıqlar keçirildi. Danışıqların əsasında Kəşmir problemi və onun diplomatik yollarla nizamlanması məsələsi dururdu. Lakin gözlənilmədən danışıqlar 1994-cü ilin yanvarında uğursuzluqla başa çatdı. Danışıqların uğursuzluğunun əsas səbəbini ilk növbədə tərəflərin tutduğu radikal mövqedə axtarmaq lazımdır. Tarixə nəzər salsaq görərik ki, problemin mövcud olduğu 60 illik bir dövr ərzində nə Pakistan, nə də Hindistan problemə baxışlarında ciddi korrektələr etməmişdilər. Tərəflərin 1948-ci ildəki mövqeyi ilə 1994-cü ildəki mövqeyi arasında prinsipial fərq yox idi. Problemlə bağlı qarşıduran dövlətlərin mövqeyini aşağıdakı kimi qruplaşdırmaq olar:

– Pakistan tələb edir ki, problem BMT Təhlükəsizlik Şurasının 1948-ci il 13 avqust və 1949-cu il 5 yanvar tarixli qətnamələrinə uyğun şəkildə öz həllini tapsın. BMT TŞ-nın qətnamələrində isə Hindistan tərəfindən Kəşmirdə plebissit keçirilməsi və əhalinin öz siyasi iradəsini azad şəkildə bildirməsi nəzərdə tutulur. Buna qəti etiraz edən Hindistan isə bəyan edir ki, plebissitdən söhbət belə gedə bilməz, çünki Kəşmir xalqı artıq öz siyasi iradəsini nümayiş etdirib; bu zaman 1952-ci il Kəşmir knyazlığının ştat hüququnda Hindistanın tərkibinə daxil olması barədə Dehli sazişi və 1956-cı il Kəşmir Müəssislər Məclisinin ştatı Hindistan İttifaqının tərkib hissəsi elan etməsi haqda qərarı nəzərdə tutulur[11].

– Pakistan problemin nizamlanmasında üçüncü tərəfin vasitəçi kimi müdaxiləsini təqdir edir, lakin hind tərəfi qəti şəkildə vasitəçilərin xidmətindən imtina edir (1992-ci ildə Qazaxıstan prezidenti N.Nazarbayevin, 1994-cü ildə BMT baş katibi B.B.Qali və 1998-ci ildə Yaponiyanın baş naziri R.Xasimotonun xeyirxah xidmətlərinin rədd edilməsi buna əyani sübutdur)[12];

– Pakistan Kəşmiri öz ərazisi deyil, mübahisəli ərazi hesab edir və hind qoşunlarının bu ərazidən çıxarılmasını tələb edir. Öz növbəsində Hindistan Azad Kəşmiri işğal



edilmiş Hindistan torpaqları sayaraq onların qaytarılmasını Pakistandan tələb edir;

– Pakistan Kəşmir mübarizlərinə yalnız mənəvi və siyasi dəstək verdiyini bəyan etsə də Hindistan onu Kəşmir partizanlarına silah, pul və muzdlularla yardım etməkdə ittiham edərək əlində bu haqda kifayət qədər sübutların olduğunu bəyan edir[13];

– Pakistan rəsmiləri Hindistanı Kəşmirdə insan hüquqlarını kobudcasına pozmaqda günahlandırır. Pakistan tərəfinin məlumatına görə, Kəşmirdə üsyanın başlandığı 1990-cı ildən bu yana hind ordusunun əməliyyatları nəticəsində 65.000 kəşmirli həlak olmuş, yüz minlərlə kəşmirli isə vətənlərindən didərgin düşmüşdür (yeri gəlmişkən, bu kimi faktlar hətta Hindistan qeyri-hökumət insan hüquqları təşkilatları tərəfindən də etiraf olunur)[14].

Gördüyümüz kimi, tərəflərin problemlə bağlı tutduğu mövqe bir-birindən kəskin surətdə fərqlənir. Qarşılıqlı ittihamların mövcudluğu, eyni zamanda problemin həllinə təkan vermək məqsədi ilə səsləndirilən təkliflərin bir qayda olaraq rədd edilməsi (xüsusilə hind diplomatiyası tərəfindən) sözsüz ki, problemin status-kvo vəziyyətində qalmasını şərtləndirir.

1994-cü ilin sentyabrında İslam Konfransı Təşkilatı ölkələrinin İslamabadda çağrılmış konfransında atılmış addımı məhz bu status-kvonun dəyişdirilməsinə cəhd kimi dəyərləndirmək olar. Belə ki, toplantı gedişində Kəşmir Təmas Qrupu yaradıldı. Qrupa 4 iri müsəlman dövləti–Pakistan, Nigeriya, Türkiyə Cümhuriyyəti və Səudiyyə Ərəbistanı daxil oldu. Problemin beynəlmiləlləşdirilməsinə çalışan Pakistan bu yolla Kəşmir məsələsinin dünya ictimaiyyətinin diqqət mərkəzində qalmasına və mövcud problemə münasibətdə İslam dünyasının həmrəyliyini nümayiş etdirməyə çalışırdı[15] (qeyd edək ki, Pakistan diplomatiyasının bu yöndə atdığı addımlar hələ ki ciddi səmərə verməyibdir. Bir sıra problemlərdən (o cümlədən Dağlıq Qarabağ münaqişəsindən) fərqli olaraq Kəşmir problemini hələ də tam beynəlmiləlləşmiş problemlər kateqoriyasına aid

etmək olmaz, dünya ictimaiyyəti bu münaqişəni daha çox iki dövlətin daxili işi kimi qiymətləndirir).

1996-cı ilin mayında Hindistanın tərkibində olan Cammu və Kəşmir ştatının Milli Assambleyasına seçkilər keçirilməsi 2 dövlət arasında yeni gərginliyin yaşanmasına səbəb oldu. Seçkilərdən məqsəd 1990-cı ilin məlum hadisələrindən sonra fəaliyyəti dayandırılmış Cammu və Kəşmir parlamentinin işini bərpa etmək idi. Pakistanın və ÜmumPakistan Hürriyyət Konfransının (1993-cü ildə yaradılıb. Özündə 20-dən artıq partiya və siyasi qruplaşmanı birləşdirərək Kəşmirin Hindistandan azadlığı uğrunda çıxış edir) etirazlarına baxmayaraq seçkilər baş tutdu və Kəşmir parlamenti yenidən Hindistan parlamentində təmsil olunma hüququ əldə etdi. Həmin ilin oktyabrında isə ştatın əyalət hökuməti yenidən öz fəaliyyətinə başladı. Hindistana yaxınlığı ilə tanınan Faruq Abdulla hökumətin sədri oldu.

Parlament seçkilərinin yaratdığı gərginliyə baxmayaraq 1997-98-ci illər Kəşmir probleminin çözülməsi yolunda diplomatik səylərin genişləndirildiyi bir dövr kimi xarakterizə oluna bilər. Bu yöndə ilk addım Pakistan tərəfindən atıldı: Parlament seçkilərində qalib gəlmiş Pakistan Müsəlman Liqası partiyasının lideri Nəvaz Şərif sülh danışıqlarını bərpa etmək təşəbbüsü ilə çıxış edərkən təşəbbüs hind diplomatiyası tərəfindən dəstəkləndi. Ən əlamətdar cəhət isə o idi ki, Pakistanın istəklərinə doğru addım atan Hindistan rəhbərliyi 1997-ci ilin martında ilk dəfə olaraq Kəşmir probleminin mövcudluğunu etiraf etdi. Bu etiraf hind rəsmilərinin dilindən Maldivin paytaxtı Maledə keçirilən Cənubi Asiya Regional Əməkdaşlıq Təşkilatının (CARƏT) sammitində səsləndi. O zamana qədər isə Hindistan Cammu və Kəşmiri özünün tərkib hissəsi hesab edərək bu adda problemin olmasını inkar edirdi. Hind diplomatiyasının bu addımı atması nə ilə bağlı idi? Zənnimizcə, bu, ilk növbədə Hindistan rəhbərliyinin siyasi gerçəkliyi aydın dərk etməsindən irəli gəlirdi. Siyasi gerçəklik isə yarım əsr ərzində hind rəsmilərinin iddia etdiyi kimi,



Kəşmir adlı problemin olmaması deyil, əksinə, bu problemin mövcudluğu idi. Kəşmir probleminin mövcudluğunu tanımaqla hind rəhbərliyi eyni zamanda kompromislərə hazır olduğunu və problemin nizamlanması istiqamətində siyasi dialoq xəttinə üstünlük verəcəyini nümayiş etdirməyə çalışırdı. 1997-ci il iyunun 23-də Pakistan xarici işlər naziri Şamşad Əhməd və onun hindistanlı həmkarı Salman Hayder arasında baş tutmuş danışıqlar zamanı hind tərəfi daha bir güzəştə gedərək Kəşmiri ayrıca problem kimi müzakirə etməyə və Kəşmir üzrə İşçi Qrupunun yaradılmasına razılığını verdi[16].

1998-ci ilin iyulunda CARƏT-in Kolombada (Şri-Lanka) keçirilmiş X forumunda baş nazirlər N.Şərif və A.B.Vacpai arasında görüş təşkil edilmişdi. Görüşün əlamətdar cəhəti isə onun nüvə sınaqlarından sonra keçirilmiş ilk görüş olması idi[17].

Kəşmir probleminin nizamlanması prosesindən danışarkən Lahor görüşünü xüsusi qeyd etmək lazımdır. 1999-cu il fevralın 20-də Dehli-Lahor avtobus xəttinin açılış mərasimində iştirak etmək məqsədilə Lahora (Pakistan) səfər edən Hindistanın baş naziri Atal Bihari Vacpai burada pakistanlı həmkarı N. Şəriflə görüşərək Kəşmir məsələsi ətrafında yaranmış durumu müzakirə etmişdi. Bu müzakirələrin nəticəsi olaraq səfərin ikinci günü – fevralın 21-də tərəflər arasında "Lahor Bəyannaməsi" və "Birgə Bəyanat" meydana çıxmış oldu. Həmçinin xarici işlər üzrə katiblər K.Raqunath və Şamşad Əhməd arasında "Anlaşma Memorandumu" imzalandı. Lahor Bəyannaməsinin əsasında Kəşmir probleminin yalnız və yalnız dinc vasitələrlə nizamlanmasına çalışılacağı, bu yöndə səylərin artırılacağı vədləri dururdu. Tərəflər bir-birilərinin daxili işlərinə qarışmayacaqlarına söz verirdilər. Sənəddə əksini tapmış daha bir məsələ terrorizmin bütün forma və təzahürlərinin pislənilməsi və ona qarşı mübarizə idi. Lahor Bəyannaməsində Pakistan diplomatiyasının iki mühüm nailiyyəti də öz əksini tapmışdı: Hindistan Cammu və Kəşmir ştatında insan hüquq və azadlıqlarına riayət edəcəyi barədə

öhdəlik götürürdü. Bəyannamədə Pakistanın əldə etdiyi digər nailiyyət isə Kəşmir probleminin ayrıca problem kimi götürülməsi idi[18].

Lahor Bəyannaməsi hər 2 dövlətin siyasətçiləri və ekspertləri tərəfindən böyük ümidlərlə qarşılandı. Onlar danışıqların nəticəsi olaraq ölkələr arasında ticarət əlaqələrinin genişlənəcəyinə, bunun da hər 2 dövlətin sosial-iqtisadi və siyasi həyatına müsbət təsir göstərəcəyinə ümid bəsləyirdilər. Lakin Lahor Bəyannaməsindən cəmi bir neçə ay sonra Kargil sektorunda baş vermiş hadisələr optimist proqnozların özünü doğrultmayacağını göstərdi.

Kargil sektoru Pakistan və Hindistan Kəşmirini bir-birindən ayıran Nəzarət Xəttində yerləşir. Mayda Kəşmir partizanları bu sektora daxil olaraq bir sıra strateji əhəmiyyətli yüksəklikləri ələ keçirdilər. Yenidən iki nüvə dövləti arasında müharibə təhlükəsi meydana çıxdı. Münaqişə bir tərəfdən davam edərkən, digər tərəfdən iyunun 12-də Dehlidə Hindistan və Pakistan xarici işlər nazirləri görüşdülər. Lakin görüş uğursuzluqla başa çatdı. Pakistan tərəfinin hava və artilleriya zərbələrinin dayandırılması, əvvəl ekspertlər, daha sonra siyasi xadimlər səviyyəsində danışıqlar aparılması təklifinə hind diplomatları rədd cavabı verdilər. Hindistan Kəşmir silahlılarını Kargil sektorundan çıxartdıqdan sonra danışıqlara getmək əzmindəydi, əks təqdirdə o, dolayısı ilə Pakistanın Kargildəki uğurunu təsdiqləmiş olacaqdı.

Kargil böhranı dünya dövlətlərinin də diqqət mərkəzində idi. İyunun 15-də ABŞ prezidenti Bill Klinton hər iki dövlətin hökumət başçıları ilə telefon söhbətində yaranmış vəziyyətdən narahat olduğunu bildirərək tərəfləri sabitliyi bərpa etməyə çağırmışdı. İyunun 20-də Almaniyanın Köln şəhərində toplaşmış "Böyük-8"-in toplantısında qəbul edilmiş bəyanatda isə deyilirdi ki, Nəzarət Xəttində status-kvo bərpa olunmalı, bunun üçün isə hərbi əməliyyatlar dayandırılmalı və Hindistan Kəşmirinə soxulmuş qüvvələr buranı tərk etməlidir (bəyanatda diqqətçəkən məqam bu qüvvələrin kimliyinin açıqlanmaması idi). İyunun 26-da İKT ölkələri xarici işlər nazirlərinin Burkina-Fasoda (Afrika) keçirilən toplantısında Kargil böhranı ilə əlaqədar iki mühüm qətnamə qəbul olunmuşdu. Qətnamələrdən birində Kəşmir probleminin BMT TŞ-nın məlum qərarları əsasında nizamlanmasının vacibliyi vurğulanırdı, digər qətnamədə isə göstərilirdi ki, Nəzarət Xətti hind ordusunun təxribatçı əməlləri nəticəsində pozulub[19]. Gördüyümüz kimi, hər iki qətnamə məhz Pakistanın diplomatik dəstəklənməsi kimi qəbul oluna bilər. Bununla belə ümumilikdə götürülsə, Kargil böhranı zamanı PİR-in beynəlxalq vəziyyəti daha ağır idi. Dünya ictimaiyyəti baş verənlərdə məhz Pakistanın himayəsi altında olan qüvvələri günahlandırırdı. Vəziyyəti daha da gərginləşdirən məqam isə ondan ibarət idi ki, tərəflərdən heç biri güzəştə getmək istəmirdilər. Hər iki tərəf bununla həm daxildə, həm də xaricdə nüfuzlarını itirəcəklərindən ehtiyat edirdilər. Üstəlik sentyabrda Hindistanda parlament seçkiləri keçiriləcəkdi, Vacpai hökuməti isə Kargil məğlubiyyəti ilə bu seçkilərə getmək niyyətində deyildi. Bu dəfə də ABŞ-ın diplomatik müdaxiləsi yaranmış böhrandan çıxmağa yardım etdi. Əvvəlcə prezident B. Klintonun şəxsi nümayəndəsi, general Entoni Zinninin bölgəyə 25 iyun gəlişi, daha sonra Pakistanın baş naziri N. Şərifin ABŞ-a 4-5 iyul səfəri Kargil böhranının həllini tapmasına təkan verdi. Məhz sonuncu səfər gedişində qəbul edilmiş "Birgə Bəyanat"da PİR rəhbərliyi Nəzarət Xəttində status-kvonun bərpası ilə razılaşırdı. Bunun müqabilində ABŞ Pakistana Kəşmir probleminin nizamlanması sahəsində fəal yardım edəcəyinə söz verirdi[20].

Kargil böhranı və 1999-cu il 12 oktyabr çevrilişi nəticəsində Pakistanda hakimiyyət başına hərbçilərin gəlməsi sülh prosesinin ləngiməsinə səbəb oldu. Hind tərəfi Hindistana münasibətdə həmişə öz radikallığı ilə seçilmiş hərbçilərin hakimiyyətə gəlməsini dərin bir narahatlıqla izləyirdi. Lakin gözlənilənlərin əksinə olaraq Pakistanın yeni rəhbəri Pərviz Müşərrəf Hindistana münasibətdə sülhpərvər siyasət yeritməyə üstünlük verdi. Çıxışlarından

birində Pakistanın yeni lideri bəyan etmişdi ki: "İstənilən vaxt, istənilən yerdə və istənilən səviyyədə Kəşmir problemi ilə bağlı ikitərəfli danışıqlara hazıram". O həmçinin bildirmişdi ki, ordu Hindistanla sərhəddən ölkənin içərilərinə doğru çəkiləcək. P. Müşərrəfin bu yönlü mesajları əks tərəfin də sülhpərvər addımlar atmasını şərtləndirdi. 2001-ci il mayın 25-də baş nazir A. B. Vacpai P. Müşərrəfi rəsmən Hindistana, sülh danışıqlarına dəvət etdi. Dəvət qəbul olundu: 2001-ci il iyul ayının 14-16-da Hindistanın Aqra şəhərində 2 ölkə arasında sülh prosesinə həsr olunmuş sammit keçirildi. Sammitlə bağlı mövzuya keçməzdən öncə onu qeyd edək ki, sammit ərəfəsində hind diplomatiyası bir sıra təkliflərlə çıxış etmişdi: təkliflər sırasında Hindistan həbsxanalarında saxlanılan 400 pakistanlının azad edilməsi, viza rejiminin yumşaldılması, pakistanlı tələbələrin Hindistanda təhsil alması və bəzi Pakistan mallarına gömrük tariflərinin azaldılması var idi. Bu təkliflər Pakistan rəhbərliyi tərəfindən müsbət qarşılansa da P.Müşərrəf sammitdə müzakirə ediləcək əsas məsələnin iqtisadi-ticari xarakterli problemlər deyil, Kəşmir münaqişəsi olacağını bəyan etmişdi[21].

Gözlənildiyinin əksinə olaraq Aqra sammiti ciddi uğurlar əldə edə bilmədi. Qeyd edək ki, sammit planlaşdırıldığından 9 saat gec başa çatmışdı. Bunun da əsas səbəbi liderlərin ortaq mövqedən çıxış edə biləcəkləri maddələrin tapılmaması və təklif olunan kommünike layihələrinin heç birinin təsdiq olunmaması idi. Aqra sammitində Pakistan lideri tələb etmişdi ki, Kəşmir probleminin nizamlanması prosesinə üçüncü tərəf kimi ÜmumPakistan Hürriyyət Konfransı da buraxılsın. Lakin bu təklif Hindistan tərəfindən rədd cavabı ilə qarşılanmışdı. Sammit gedişində əldə edilmiş yeganə nailiyyət isə ildə 2 dəfə xarici işlər nazirləri və hər il hökumət başçıları səviyyəsində görüşlərin keçirilməsi haqqında razılığın əldə olunması oldu. Aqra sammitində həmçinin iqtisadi əməkdaşlıq məsələləri, ilk növbədə isə İrandan Hindistana Pakistan ərazisindən keçməklə çəkilməsi nəzərdə tutulan qaz kəməri ideyası və CARƏT-nın XI sammitinin yaxın günlərdə keçirilməsi məsələsi müzakirə olunmuşdu. Tərəflər həmçinin 2001-ci ilin sentyabrında Nyu-Yorkda BMT Baş Məclisinin toplantısında görüşməyi də qərara almışdılar[22].

Aqra sammitinin əhəmiyyəti və nəticələrindən danışarkən aşağıdakı məqamlara diqqət yetirmək zəruridir:

a) Aqra sammiti Pakistan-Hindistan siyasi dialoqunda 1999-cu ilin mayından mövcud status-kvonu – yəni durğunluq dövrünü aradan qaldırmış oldu. Yuxarıda qeyd etdiyimiz kimi, Kargil böhranı və Pakistanda 12 oktyabr çevrilişindən sonra istər regionda, istərsə də beynəlxalq arenada bir çox siyasi-ictimai dairələr Cənubi Asiya bölgəsində sülh danışıqlarının bərpasını kifayət qədər çətin sayır, yaranmış gərginliyin hələ uzun müddət mövcud olacağını zənn edirdilər. Lakin Aqra sammiti bu pessimist proqnozlara son qoydu. Sammitin əldə etmiş olduğu ən mühüm nailiyyət də məhz budur;

b) Aqra sammiti eyni zamanda keçən iki il ərzində tərəflərin mövqelərində ciddi dəyişikliklərin olmadığını da ortaya qoymuş oldu. Məsələn, istər sammit gedişində, istərsə də iyulun 20-i keçirdiyi mətbuat konfransında P. Müşərrəf Kəşmir probleminə daha çox yer ayırmış, qarşılıqlı münasibətlərdə hərtərəfli inkişafın yalnız bu problemin həllindən sonra mümkün olmasını vurğulamışdı. Başqa sözlə, hər iki tərəf problemə baxışlarında mövcud prinsiplərdən geri çəkilməyəcəklərini göstərmişdilər ki, bu da nəticə etibarilə nə üçün sammitdə ciddi uğur qazanılmamasını gözəl izah edir.

**Kəşmir problemi 2001-ci il 11 sentyabr hadisələrindən sonra.** 2001-ci il 11 sentyabr hadisələrinin təsiri Kəşmir problemindən də yan ötüşmədi. Hər 2 dövlət – həm Hindistan, həm də Pakistan maksimum surətdə yaranmış şəraitdən faydalanaraq Kəşmir məsələsində öz mövqelərini möhkəmləndirməyə çalışırdılar.

Bölgədə 80-ci illər sanki yenidən təkrarlanırdı. O zaman əfqan müharibəsində ABŞ-ın ən yaxın müttəfiqi olan Pakistan 2001-ci ilin oktyabrında startı verilmiş II əfqan

kampaniyasında da bu superdövlətin müttəfiqi rolunda çıxış edirdi. Bu hal Hindistanı narahat etməyə bilməzdi. Hindistan qorxurdu ki, bu rolundan istifadə edən Pakistan ABŞ-ı Kəşmir məsələsində öz xeyrinə müəyyən güzəştlərə vadar etsin[23]. Lakin məsələyə digər prizmadan yanaşdıqda Kəşmirdəki silahlı qruplaşmalara antiterror kampaniyası adı altında zərbə endirərək onların mövqelərini sarsıtmaq və Pakistanın bölgədə dayaqlarını zəiflətmək üçün gözəl fürsət yaranmışdı.

Məhz sadalanan bu amillərin diqtəsi altında Hindistan 11 sentyabr hadisələrindən sonra Kəşmir siyasətində xeyli fəallaşdı. 2001-ci il sentyabrın 25-də Hindistan xüsusi xidmət orqanları Kəşmirdə fəaliyyət göstərən silahlı qruplaşmaların siyahısını amerikalı həmkarlarına təqdim edərək terrorçu hesab etdikləri bu qruplaşmalara qarşı sərt tədbirlərin görülməsini tələb etdilər. Siyahıda 135 təlim düşərgəsi və sıralarında 3500 mücahidi birləşdirən "Ləşkər-e Taibə", "Əl-Bədr", "Ceyş-e Məhəmməd", "Hizb-ül mücahidin", "Camaat-e mücahidin", "Hərəkət ül-mücahidin" və "Hərəkət-e cehade İslami" qruplaşmalarının adı vardı[24].

Paralel olaraq hind xüsusi xidmət orqanları hər vəchlə Kəşmir partizanları ilə 1 №-li terrorçu hesab edilən Üsamə bin Laden arasında əlaqələrin mövcudluğunu təsdiq edən dəlillər tapmağa çalışırdılar. Hind rəsmiləri beynəlxalq toplantılarda BMT-nin terrorizmlə mübarizə haqqında 2001-ci il 28 sentyabr qətnaməsinin Kəşmirdə mübarizə aparan qruplaşmalara da şamil olunmasını və Pakistanın terroru dəstəkləyən dövlət kimi tanınmasının zəruriliyini isbat etməyə çalışırdılar.

Öz növbəsində Pakistan diplomatiyası da Kəşmir məsələsində fəallaşmışdı. Hindistan diplomatiyasının öncədən gördüyü kimi, PİR rəhbərliyi ABŞ-a dəstəyi müqabilində bu supergücün vasitəsilə Hindistana təzyiqlər etmək və onu danışıqlar stolu arxasına oturmağa vadar etmək niyyətində idi.



2001-ci il dekabrın 13-də bir qrup silahlı şəxsin hind parlamentinə basqını 11 sentyabr hadisələrindən sonra gərilmiş münasibətlərin daha da pisləşməsinə səbəb oldu. Dekabrın 14-də hind kabinetinin bir sıra məsul şəxsləri bəyan etdilər ki, basqının arxasında Pakistanyönümlü "Ləşkər-e Taibə" və "Ceyş-e Məhəmməd" qruplaşmaları dayanır.

Parlamentə basqından az sonra Hindistan Pakistandan tələb etdi:

a) Kəşmirdə separatçı fəaliyyətlə məşğul olan qruplaşmalara dəstəyi dayandırsın;

b) Öz ölkəsində bu qruplaşmalara qarşı sərt tədbirlər görsün;

c) Basqında əli olmaqda şübhəli bilinən 20 nəfər şəxsi Hindistana təhvil versin;

ç) Yalnız bundan sonra problemin nizamlanması üzrə siyasi dialoq davam etdirilə bilər[25].

Tezliklə hind tərəfi sözdən qəti əmələ keçdi: Pakistana qarşı sanksiyalar tətbiq olundu. Sanksiyalar ilk növbədə Pakistan təyyarələrinin Hindistan üzərindən uçuşuna qadağa qoyur, həmçinin dəmir yol, hava və avtobus əlaqələrinin kəsilməsini əhatə edirdi. Sanksiyalar 2002-ci il yanvarın 1-dən qüvvəyə minirdi.

Dekabrın sonlarında isə diplomatik müharibə özünün kulminasiya nöqtəsinə çatdı: dekabrın 21-də Hindistanın Pakistandakı səfiri Vicay Nambiara geri çağrıldı; cəmi bir gün sonra isə PİR-in Hindistandakı səfirliyinin 125 əməkdaşından 67-i persona-non-grata elan edilərək ölkədən çıxarıldı[26].

O zaman yaranmış durumu analiz etsək görərik ki, Pakistan diplomatiyası daha yumşaq siyasət yeridir, yaranmış qarşıdurmanın dialoq yolu ilə aradan qaldırılmasına üstünlük verir və dünya dövlətlərini vəziyyətə müdaxilə etməyə çağırırdı. Məsələn, 2001-ci il dekabrın sonlarında Pakistan xarici işlər nazirinin müavini Əziz Əhməd xan çıxışında Hindistan ilə münasibətlərin gərginləşməsində maraqlı olmadıqlarını bəyan etmişdi. Xarici işlər naziri

Əbdül Səttar da televiziya ilə çıxışında bildirmişdi ki, hər 2 dövlət qarşıdurmaya son qoymalı və ilkin şərtlər olmadan danışıqlara başlamalıdır. Öz növbəsində Pakistan prezidenti P.Müşərrəf Hindistanı iqtisadi və diplomatik sanksiyaları aradan qaldırmağa çağırmışdı: "Pakistana müharibə yox, regionda sülh lazımdır". Pakistan lideri həmçinin A.B.Vacpai ilə görüşərək sülh danışıqlarını bərpa etmək istəyində olduğunu da bildirmişdi.

Lakin bütün bu diplomatik səylərə rəğmən Hindistanın heç bir vəchlə güzəştə getməməsi Pakistanı gərginliyi azaltmaq naminə müəyyən tədbirlər görməyə vadar etdi: 2001-ci il dekabrın son günləri adları 13 dekabr hadisələrində hallandırılan "Ceyş-e-Məhəmməd"in lideri Masud Əzhər və "Ləşkər-e-Taibə"nin lideri Hafiz Məhəmməd Səid həbs edildilər. 2002-ci ilin ilk günləri isə P. Müşərrəf xüsusi antiterror əməliyyatının başlandığını elan etdi. Əməliyyat nəticəsində ümumilikdə radikal islami qruplaşmaların minlərcə fəalı və lideri həbs edildi, Kəşmirdə fəaliyyət göstərən bəzi qruplar ləğv olundu, "Ceyş-e Məhəmməd" və "Ləşkər-e Taibə"nin bank hesabları donduruldu. Bütün bu tədbirlər hind hökuməti tərəfindən təqdir olunsa da Hindistan terrorçu hesab etdiyi 20 nəfəri almayınca Pakistan ilə sülh dialoqunun bərpa edilməsindən söhbət belə gedə bilməyəcəyini vurğulamaqda davam edirdi. Hindistanın daxili işlər naziri Lal Krişna Advaninin 2002-ci ilin yanvarında ABŞ-a səfəri zamanı dediyi sözlər də hind rəhbərliyinin qonşu ölkədə aparılan antiterror kampaniyasından razı qalmadığını göstərirdi: "Pakistanın hərbi lideri ABŞ-ın ümidlərinin doğrulması üçün maksimum əlindən gələni edib, lakin hind tərəfinə heç bir ciddi güzəşt etməyib"[27].

Cənubi Asiya regionunda yaranmış gərgin durum 2002-ci il yanvarın əvvəllərində işə başlamış Cənubi Asiya dövlətlərinin Katmandu sammitində də müzakirə obyekti oldu. Sammit ərəfəsi – yanvarın 3-də Katmanduda Pakistan xarici işlər naziri Əbdül Səttar ilə Hindistanın xarici işlər naziri Casvant Sinqh görüşmüşdülər. Görüşdən sonra Pakistanın xarici işlər naziri bəyan etmişdi ki: "İslamabad ikitərəfli dialoqun bərpası naminə Hindistanın tələblərinə doğru qətiyyətli addım atmağa hazırdır". Ölkəsinin bu mövqedən çıxış etdiyini sammitin işi gedişində P.Müşərrəf də vurğulamışdı. Lakin Pakistan liderindən fərqli olaraq sərt bəyanatla çıxış edən A. B. Vacpai Pakistandan islamçıların həbsini daha da genişləndirməyi tələb etmişdi. Baş nazir bu tələbi onunla əsaslandırırdı ki, P. Müşərrəfin antiterror əməliyyatı heç bir müsbət dəyişikliyə səbəb olmayıb və kosmetik xarakter daşıyır. Bu fikrini Hindistanın baş naziri sammitin işindən vətənə qayıtdıqda da təkrarlamışdı: "Şərtlərin hamısı yerinə yetirilməyincə danışıqlardan söhbət gedə bilməz". Buna cavab olaraq 2002-ci il fevralın 5-də – Kəşmirlə Həmrəylik Günündə çıxışı zamanı P.Müşərrəf Hindistanı terrorçu dövlət adlandıraraq Kəşmirdə mövcud mübarizənin məhz Hindistanın işğalçı siyasətinin nəticəsi olduğunu bəyan etmişdi.

Bəs 2001-ci ilin sonları-2002-ci ilin əvvəllərində Cənubi Asiya regionunda yaranmış duruma böyük dövlətlərin münasibəti necə idi?

11 sentyabr hadisələrindən sonra ABŞ-ın Kəşmir probleminə marağı nəzərəçarpacaq dərəcədə artmışdı ki, bunun da öz səbəbləri vardı: Kəşmir ABŞ-ın müharibə apardığı Əfqanıstanın yaxınlığında yerləşir və bu baxımdan ABŞ-ın marağında deyildi ki, ordusunun əməliyyat apardığı bölgədə daha bir münaqişə ocağı alovlansın. 13 dekabr hadisələri ilə bağlı ABŞ diplomatiyası balanslaşdırılmış siyasət yeritməyə çalışırdı. O, bir tərəfdən Pakistanı Kəşmirdəki qruplaşmalara münasibətdə müəyyən ölçülər götürməyə çağırır və Hindistanı qane edəcək bəzi addımlar atırdısa (məsələn, "Ceyş-e Məhəmməd" və "Ləşkər-e Taibə"nin terrorçu qruplar elan edilməsi, həmçinin onların ABŞ ərazisində bank hesablarının dondurulması), digər tərəfdən Hindistanı sərhəddə vəziyyəti gərginləşdirməməyə və P. Müşərrəfin ölkəsində həyata keçirdiyi antiterror əməliyyatına adekvat cavab verməyə səsləyirdi. 2001-ci il dekabrın 26-da ABŞ-ın Dövlət katibi Kolin

Pauell P.Müşərrəf və Casvant Sinqhlə bir neçə dəfə telefon vasitəsilə əlaqə saxlayaraq tərəfləri siyasi dialoqa səsləmişdi.

Digər böyük dövlət – Böyük Britaniya da bölgədə yaranmış gərgin vəziyyətdən narahatlığını gizlətmirdi. Qarşıdurmanın sülh yolu ilə həll olunmasına nail olmaq məqsədilə bu ölkənin baş naziri Toni Bler 2002-ci il yanvarın 3-də Cənubi Asiya regionuna səfərə gəlmişdi. Hər iki ölkənin liderləri ilə görüşən Böyük Britaniyanın baş naziri münaqişənin həlli üçün bütün mümkün siyasi-diplomatik vasitələrdən yararlanmağı məsləhət görmüşdü.

Hər iki dövlətin yaxın qonşusu olan Çin Xalq Respublikası da bitərəf mövqe nümayiş etdirməyə çalışırdı. Bu ölkənin xarici işlər nazirliyinin 2001-ci il dekabrın 27-də verdiyi bəyanatda tərəflərə siyasi dözüm nümayiş etdirməyə və problemi dialoq yolu ilə çözməyə çağırış vardı. 2002-ci ilin əvvəllərində ÇXR rəhbərliyi bir daha bölgədə yaranmış durumdan narahat olduğunu bəyan edərək vurğulamışdı ki, əgər vəziyyət nəzarət altından çıxsa, onda nəinki Əfqanıstanda sülh prosesi, həmçinin Asiyada qüvvələr balansına ziyan vurulacaqdır.

Bölgə dövlətlərindən olan İran da tərəfləri siyasi dialoqa səsləyirdi. İran xarici işlər nazirliyinin nümayəndəsi Həmid Asəfi bildirmişdi ki, onun dövləti yaranmış durumdan narahatdır: "Biz hər iki dövlətin hökumətlərini hərbi gərginliyə dinc vasitələrlə son qoymağa çağırırıq"[28].

Yuxarıda adları çəkilən dövlətlərdən fərqli olaraq Rusiya Federasiyası bu məsələyə daha konkret yanaşma tərzi ilə seçilirdi. Belə ki, 2002-ci il aprelin 4-də Dehliyə səfər edən Rusiya Federasiyası Təhlükəsizlik Şurasının o zamankı katibi Vladimir Ruşaylo Pakistandan 20 yaraqlını verməyi tələb etmişdi[29]. Xatırladaq ki, bu, 11 sentyabr hadisələrindən sonra Rusiyanın öz müttəfiqi Hindistanı birinci dəfə açıq şəkildə dəstəkləməsi idi.

Bu yerdə bir məsələyə toxunmaq istərdik: Pakistan rəhbərliyinin ölkədəki radikal dini qruplaşmalara qarşı mübarizəyə başlaması və bu yolla Hindistanın müəyyən istəklərinə doğru getməsi maraqlı məqamlardan biridir: əfqan kampaniyasının başlanması ilə radikal dini qruplaşmaların nüfuzunun yüksəlməsi, əhalinin böyük qisminin məhz onların mövqeyini dəstəkləməsi hakimiyyətdə təzə-təzə möhkəmlənən Müşərrəf administrasiyası üçün potensial təhlükə mənbəyi idi. Hətta 2001-ci ilin sonlarında belə bir fikir geniş yayılmışdı ki, terror aktlarından məqsəd heç də ABŞ-a zərbə vurmaq olmayıb. Terrorçuların məqsədi bu yolla Pakistanda vəziyyəti gərginləşdirib hakimiyyətə gəlmək və nüvə silahına sahib olmaqdır. Əlbəttə, bu günün prizmasından bu fikir o qədər aktual səslənməsə də o dövr üçün ağır durumda olan PİR rəhbərliyi tərəfindən ciddi qəbul edilirdi. Ölkədə sabitliyin pozulmasına yol verməmək və yeni administrasiyanın dayaqlarının möhkəmləndirilməsi məqsədilə radikallara qarşı yuxarıda bəhs etdiyimiz əməliyyatlar keçirildi.

2002-ci il qarşılıqlı münasibətlərdə gərginliyi ilə yadda qalan bir il oldu. Xüsusilə 2002-ci il 16 sentyabr-4 oktyabr tarixində Cammu və Kəşmir ştatında parlamentə keçirilən seçkilər 6 il öncə olduğu kimi bu dəfə də Pakistan tərəfindən kəskin etirazla qarşılandı (bu seçkilərdə Xalq Demokratik Partiyası ilə Hindistan Milli Konqresi səslərin böyük əksəriyyətini qazanaraq yerli hökuməti təşkil etmək hüququ əldə etmişlər)[30].

Lakin sözsüz ki, qarşılıqlı münasibətlər uzun müddət gərilmiş halda qala bilməzdi. İlk növbədə iqtisadi maraqlar bu münasibətlərə yenidən baxılmasını tələb edirdi. Münasibətlərin normallaşdırılması yolunda ilk təşəbbüs 2003-cü ilin aprelində hind tərəfindən edildi: baş nazir A. B. Vacpai Pakistanla siyasi dialoqa hazır olduğunu bəyan etdi. Bunun ardınca aprelin 28-də Pakistan hökumətinin yeni sədri Mir Zəfərulla Xan Camali hindistanlı həmkarı ilə telefon söhbətində Pakistan tərəfinin sülh təşəbbüsünü dəstəklədiyini bildirdi.

Mayın 8-də isə dörd senator və 8 Milli Assambleya üzvündən ibarət Pakistan nümayəndə heyəti Dehliyə səfər edərək burada hindistanlı həmkarları ilə qarşılıqlı müna-

sibətlərin gələcək inkişafına dair fikir mübadiləsi apardılar.

Münasibətlərin yaxşılaşması istiqamətində ən mühüm addım isə 2003-cü il avqustun 9-da atıldı: həmin gün Pakistan və Hindistan arasında iki il öncə kəsilmiş diplomatik əlaqələr tam həcmdə bərpa edildi. Hindistanın Pakistanda yeni səfiri Şiv Şankar Menon etimadnaməsini P.Müşərrəfə təqdim edərkən analoji proses Dehlidə də baş verirdi[31].

2003-cü ilin payızından isə tərəflər Kəşmir Nəzarət Xəttində atəşkəs elan etmişlər: Pakistanın yeni baş naziri Mir Zəfərulla Xan Camali noyabrın 23-də xalqa televiziya ilə müraciətində Ramazan bayramı münasibətilə Kəşmir Nəzarət Xəttində atəşkəs rejiminin tətbiq ediləcəyini bildirmişdi. Bu təklifə Hindistan tərəfi müsbət cavab vermiş və beləliklə 2003-cü il noyabrın 26-dan Hindistan-Pakistan sərhədində atəşkəs rejimi qüvvəyə minmişdir.

Münasibətlərin normallaşması yolunda irəliyə doğru daha bir addım 2004-cü ilin yanvarında atıldı: tərəflər arasında 2002-ci ilin əvvəllərində kəsilmiş hava və dəmir yol əlaqəsi bərpa edildi, həmçinin 2 ölkə arasında viza rejimi yüngülləşdirildi.

2004-cü ilin noyabr ayını da qarşılıqlı münasibətlərin normallaşması istiqamətində kifayət qədər uğurlu ay saymaq olar: Noyabr ayının ortaları Cammu və Kəşmir ştatına səfər edən Hindistanın yeni baş naziri Manmohan Sinqh maraqlı bəyanatla çıxış edərək bildirmişdi ki, ştatın ərazisində sabitlik davam edərsə, onda hind qoşunlarının tədricən bölgədən çıxarılmasına başlanılacaq. Hindistanın baş naziri həmçinin ştatın inkişafı məqsədilə əlavə maliyyə vəsaitinin ayrılacağını da vurğulamışdı. Öz növbəsində Pakistanın yeni baş naziri Şaukət Əziz noyabrın sonları Hindistana səfər edərək burada bir sıra hind rəsmiləri ilə görüşlər keçirmişdi. Səfərin ilk günü – noyabrın 23-də Hindistanın xarici işlər naziri Natvar Sinqh, noyabrın 24-də isə hindistanlı həmkarı Manmohan Sinqh və Hindistan prezidenti Əbdül Kərim Xan ilə keçirilən görüşlərdə



əsas müzakirə obyekti Kəşmir problemi və onun dinc yollarla nizamlanması, sülh prosesinin davam etdirilməsi olmuşdu. Lakin səfər gedişində yalnız Kəşmir məsələsinin müzakirə edildiyini düşünmək düzgün olmazdı. Noyabrın 24-də Ş. Əzizin Hindistanın neft və təbii qaz naziri Mani Şankar Ayar ilə apardığı danışıqlar zamanı İran-Pakistan-Hindistan qaz kəmərinin çəkilməsi perspektivləri nəzərdən keçirilmişdi[32].

Bir sözlə, son ayların analizi göstərir ki, bu gün Pakistan-Hindistan münasibətləri və cəbhə xətti olan Kəşmir bölgəsində nisbi sakitlik hökm sürür və hər iki dövlət bu sabitliyin qorunub saxlanılmasında maraqlıdır.

**Qarşılıqlı münasibətlərdə mövcud digər problemlər.** Cənubi Asiyanın bu 2 qonşu dövləti arasında bir sıra digər, həllini hələ də tapmamış məsələlər vardır. Onlar aşağıdakılardır:

a) Siqh problemi – Bu problem də 1947-ci ildən, yeni Pakistan dövlətinin yarandığı vaxtdan mövcuddur. Pakistanın Pəncab əyalətində yaşayan siqhlər (etnik baxımdan pəncablı olub dini baxımdan siqhizmə etiqad edənlər) Hindistanda yaşayan dindaşları ilə müstəqil dövlətdə birləşmək uğrunda mübarizə aparırlar. Vəziyyəti gərginləşdirən məqam siqh millətçilərinin Hindistan tərəfindən dəstəklənmələridir. Pakistan rəhbərliyi "Xalistan" dövlətini yaratmağa çalışan siqhlərin genişlənən mübarizəsinin qarşısını yalnız 80-ci illərdə ala bilmişdir.

Ümumiyyətlə, bir məqamı qeyd edək ki, tərəflər sistematik olaraq bir-birilərini özlərinin daxili işlərinə qarışmaqda və pozucu fəaliyyət göstərməkdə ittiham edirlər. Məsələn, Pakistan diplomatları dəfələrlə RAW-nun (hind xüsusi xidmət orqanlarının bir qolu; açması Tədqiqat və Analiz Bölməsi) Pakistan ərazisində təxribatçı əməllərlə məşğul olduqlarını bəyan etmiş, bu qurumu 1993-cü ilin noyabr-dekabr aylarında Dehlidə beynəlxalq Siraiki konfransını maliyyələşdirməkdə və təşkil etməkdə ittiham etmişdilər. Qeyd edək ki, siraiki pəncab dilinin dialektlərindən biridir və Pakistan əhalisinin 9%-i bu dialektdə da-

nışır. Siraikidillilər Pakistanda yaşadıqları ərazilərdə beşinci əyalətin yaradılması uğrunda mübarizə aparırlar. Onların mənafeyini isə 1989-cu ildə yaradılmış "Siraikinin Pakistan Partiyası" (sədr Tac Məhəmməd Xan Lonqa) müdafiə edir[33].

Lakin Pakistanda beşinci əyalətin yaradılması ehtimalı çox azdır; əsas maneə isə siraikilərin təkcə Pəncabda deyil, həmçinin Şimal-Qərbi Sərhəd Əyaləti və Sinddə bəzi əraziləri öz əyalətlərinə qatmaq istəyidir. Bu halda "Siraikinin Pakistan Partiyası" üç əyalət hökuməti və nüfuzlu etnik qruplarla (puştun və sindlər) üz-üzə gələcək ki, onun da bu mübarizədən qalib çıxma şansı azdır. Digər tərəfdən isə mərkəzi hökumətin siraikilərə geniş hüquqlar verəcəyi təqdirdə digər etnik qrupların da fəallaşacağı və ərazi probleminin tam kəskinliyi ilə üzə çıxacağı təhlükəsi də mövcuddur. Pakistan KİV-nin məlumatlarına görə, 1983-1993-cü illərdə Pakistana Hindistandan 35.000 RAW agenti atılmış, onlardan 10.000-i Pəncabda (ilk növbədə siqhlər arasında), 12.000-i Sinddə, 8.000-i ŞQSƏ-də və nəhayət 5.000-i Bəlucistanda fəaliyyət göstərmişdir[34].

b) Sir Krik çayı – İki ölkə arasında sərhəd problemidir. Hələ 1914-cü ildə sərhəddin çayın şərq axarından keçməsi qəbul edilmişdi. 1966-cı ildə bu məsələ yenidən qaldırıldı, bu dəfə müstəqil Hindistan və Pakistan dövlətləri tərəfindən. 1989-cu ildən son dövrlərə qədər bu məsələ ilə bağlı tərəflər arasında 6 raundluq danışıqlar keçirilmiş, lakin müvəffəqiyyət əldə edilməmişdir. Hindistan sərhədin çayın ortasından, Pakistan isə çayın şərq sahilindən keçməsini və problemin Beynəlxalq Məhkəmədə həll edilməsini tələb edir.

c) Vullar səddi – 1985-ci ildə Hindistan Kəşmirin Vullar gölü üzərində səddin inşasına başlayanda Pakistan bunun 1960-cı il "İndus Water Treaty" və 1986-cı il "Hind çayı sularının bölüşdürülməsi və istifadəsi haqqında Saziş"in müddəalarını pozduğunu iddia etmişdi. 90-cı illərdə bu məsələ ilə bağlı hər iki ölkənin enerji və su nazirləri



səviyyəsində 7 raundluq danışıqlar getmişdi. Hind tərəfi problemin texniki və hüquqi tərəflərinin həll edildiyini iddia edərək bu barədə Pakistanla saziş imzalamağa çalışır. Lakin əks-tərəf – yəni Pakistan bu iddianı rədd edərək problemin 1960-cı il "İndus Water Treaty" müqaviləsi əsasında həll olunmasını tələb edir.

ç) Siaçen buzlağı – Siaçen buzlağı Nəzarət Xəttinin bitdiyi ərazidən şimalda yerləşir. Bu bölgə 1947-ci ildə Hindistanın bölünməsi zamanı Pakistana keçməli idi, lakin təbii şəraitin çətinliyinə görə Pakistan tərəfi burada sərhəd xətti çəkməkdən imtina etmişdi. Bundan yararlanan Hindistan 1984-cü ilin aprelində buzlağa qoşun yeridərək buranı zəbt etdi. Hal-hazırda 1200 kv.km. ərazisi olan Siaçen buzlağı Hindistanın əlindədir və burada tez-tez qanlı toqquşmalar baş verir. Məsələn, 1987-1988-ci illərdə baş vermiş hərbi əməliyyatlarda hər iki tərəfdən 500 hərbçi həlak olmuşdu[35].

Göründüyü kimi, XX əsrin sonuncu onilliyi-XXI əsrin başlanğıcında Pakistan-Hindistan münasibətləri gərgin olaraq qalmaqda davam edir. Bəs ikitərəfli münasibətlərdə mövcud gərginlik nə zaman aradan qalxa bilər? O zaman ki, tərəflər üçün münaqişə yox, əməkdaşlıq sərfəli olsun. CARƏT ekspertlərinin rəyinə görə, əgər iki dövlət arasında mövcud gərginlik azalsa, illik ticarət dövriyyəsi 5 milyard dollara çata bilər. Bu isə eyni zamanda daxili sosial-iqtisadi durumun yaxşılaşmasına və iqtisadi yüksəlişə gətirib çıxarar. Müqayisə üçün qeyd edək ki, hal-hazırda iki ölkəarası illik ticarət dövriyyəsi cəmi 200 milyon dollardır. Pakistan-Hindistan münasibətlərinin gərgin durumda olması Cənubi Asiya regionunun da inkişafını əngəlləyir. Şri-Lanka prezidenti Çandrika Kumaratunqenin qeyd etdiyi kimi, "regionun bu iki nüfuzlu dövləti arasında münasibətlər düzəlsə, Cənubi Asiya dünyanın ən nüfuzlu regional iqtisadi ittifaqlarından birinə çevrilər"[36].

Son olaraq Kəşmir problemi və ümumilikdə Pakistan-Hindistan münasibətləri ilə bağlı bir sıra vacib məqamlara toxunmağı lazım bilirik. Bu məqamlardan biri müharibə

ehtimalı ilə bağlıdır. Pakistan-Hindistan münasibətlərinin son onillik tarixinin analizi bir daha göstərmiş olur ki, bu məsələ hələ də öz aktuallığını itirməyib: 1990, 1999 və 2001-ci illərdə münasibətlərin kəskinləşməsi az qala yeni müharibə ilə nəticələnəcəkdi; yalnız böyük dövlətlərin (birinci növbədə ABŞ-ın) siyasi fəallığı və hər 2 dövlətin siyasi elitasının praqmatik siyasəti bu təhlükənin sovuşması ilə nəticələndi. Bununla belə bir sual hələ də gündəlikdə qalmaqda davam edir: yeni Pakistan-Hindistan müharibəsi gözlənilirmi? Zənnimizcə, bu suala "yox" cavabı vermək daha düzgün olardı. Yaxın perspektivdə müharibə ehtimalının gerçəkləşməsini əngəlləyən aşağıdakı faktorlara nəzər yetirək:

a) İqtisadi-maliyyə faktoru – Ekspertlərin rəyinə görə, müharibənin hər saatı qarşıduran tərəflərə 6.3 milyon dollara başa gələcək. Hind hərbi eksperti Cascit Sinqhin hesablamalarına görə, 49 gün çəkən Kargil böhranı zamanı (1999-cu il) Hindistan hərbi əməliyyatların gedişinə 19 milyard rupi–yəni 394.5 milyon dollar vəsait xərcləmişdi[37]. Müharibə olacağı təqdirdə maliyyə xərclərinin artması və böyük məbləğdə pulların itirilməsi isə nə Hindistan, nə də Pakistana sərfəli deyil. Növbəti Pakistan-hind müharibəsi nəticə etibarilə hər iki ölkədə (xüsusilə Pakistanda) sosial problemlərin kəskinləşməsinə, xarici borcların artmasına və xarici iqtisadi asılılığın güclənməsinə səbəb ola bilər;

b) Böyük dövlətlərin mövqeyi – SSRİ-nin süqutundan sonra dünyada yeganə supergücə çevrilən ABŞ da regionda növbəti müharibənin başlanmasında maraqlı deyil. Bunun da öz səbəbləri var: belə ki, bu, regionda stabilliyin pozulmasına, radikal qüvvələrin hakimiyyətə gəlməsinə və nəticə etibarilə ABŞ-ın nüfuz və mövqeyinin zəifləməsinə gətirib çıxara bilər. Üstəlik müharibə olacağı təqdirdə ABŞ tərəflərdən birinin mövqeyini müdafiə etmək zorunda qalacaq ki, bu da bölgədə balanslaşdırılmış siyasət yeridən və hər iki tərəflə əməkdaşlıqda maraqlı olan supergücün maraqlarına cavab vermir. Cənubi Asiya regionundan müharibə alovunun digər regionlara (ilk növbədə gərgin vəziyyətin mövcud olduğu Əfqanıstana) adlaması ehtimalı da böyükdür. Müharibə olacağı təqdirdə həmçinin ABŞ-ın Cənubi Asiya regionundakı iqtisadi maraqlarına da ciddi ziyan dəymiş olacaq (ilk növbədə bölgədə investisiya yatırımları ciddi təhlükə altında qalacaq).



Maraq doğuran digər məsələ artıq 60 illik tarixə malik Kəşmir probleminin nə zaman və necə nizamlanmasıdır. Problemin öz həllini tapması üçün qarşıduran tərəflər – Pakistan və Hindistanın müəyyən addımlar atması, kompromisə getməsi zəruridir: Pakistan Kəşmirdəki silahlı qruplaşmalara hərbi-texniki və maliyyə dəstəyini dayandırmalı, hər iki Kəşmirin əhalisi arasında siyasi dialoqu təmin etməlidir. Hindistan isə öz növbəsində yerli əhaliyə qarşı zorakılıqları dayandırmalı, onların siyasi və dini baxışlarına görə təqibinə son verməlidir. İki ölkə arasında iqtisadi əməkdaşlıq inkişaf etdirilməlidir. Bölgədə sabitliyə və humanitar vəziyyətə nəzarət məqsədilə beynəlxalq müşahidəçilər yerləşdirilməlidir[38]. Yalnız bundan sonra problemin nizamlanmasından uğurla danışmaq olar. O ki qaldı Kəşmir probleminin mümkün həlli yollarına, bu günümüz üçün münaqişənin iki optimal nizamlanma variantı mövcuddur. Onlar aşağıdakılardır:

a) Plebissit keçirilməsi – Bu haqda paraqrafın əvvəllərində ətraflı məlumat verdiyimizdən bu variant üzərində dayanmadan növbəti varianta keçmək istərdik;

b) Nəzarət Xətti əsasında Kəşmirin parçalanmasını rəsmiləşdirmək və bununla da problemi həll etmək. Qeyd edək ki, bu gün üçün daha çox səsləndirilən və reallıqla daha çox uyuşan variant məhz budur. Bu variantın tərəfdarları mövcud gerçəklikdən çıxış edərək Hindistan-Pakistan müharibələri nəticəsində meydana çıxan Nəzarət Xəttini dövlət sərhəddi kimi qəbul etməyi təklif edirlər[39]. Yeri gəlmişkən, Cammu və Kəşmir hökumətinin sədri Faruq Abdulla da bu variantı dəstəkləyənlər sırasındadır. Lakin bu variantın da işləyəcəyini proqnozlaşdırmaq çətindir, belə ki, Kəşmirin əlverişli coğrafi mövqeyi (Mərkəzi Asiya və islam dünyasına çıxış), bolsulu çayların (Hind və

onun qolları Cəlam və Çənabın) öz başlanğıcını burdan götürməsi (bu isə kənd təsərrüfatının inkişafı baxımından əhəmiyyətli faktordur) və dünya qarşısında öz "siması"nı itirməmək istəyi hər iki dövləti Nəzarət Xəttini dövlət sərhədi kimi tanımaqdan saxlayır. Bir sözlə, hər iki tərəf problemin bütöv Kəşmir formulası əsasında nizamlanmasına ümidlərini itirməyiblər.

Problemin nizamlanması ilə bağlı digər variant bir sıra beynəlxalq ekspertlər tərəfindən irəli sürülüb və özündə BMT-nin yeni qətnaməsi əsasında müstəqil Kəşmir dövlətinin yaradılmasını ehtiva edir. Bu variantı dəstəkləyənlərin fikrincə, Kəşmir əhalisinin mütləq əksəriyyəti qarşıduran dövlətlərdən heç birini dəstəkləmədiyindən yalnız müstəqil Kəşmir dövlətinin yaradılması bu uzunmüddətli problemin mövcudluğuna son qoya bilər[40].

Problemin həlli ilə bağlı ən son variantlardan biri Pakistan prezidenti P.Müşərrəf tərəfindən səslənmişdir. 2004-cü ilin payızında televiziya ilə çıxışlarının birində P. Müşərrəf Kəşmir bölgəsinin Pakistan və Hindistanın birgə idarəsinə verilməsi və bununla da məsələnin öz həllini tapması ideyası ilə çıxış etmişdi. Buna cavab olaraq hind rəhbərliyi bəyan etdi ki, bu cür təkliflər KİV vasitəsilə deyil, siyasi kanallarla qarşı tərəfin diqqətinə çatdırılmalı və siyasi formulə olunmalıdır.

Haqqında danışacağımız digər variant isə Cammu və Kəşmir Azadlıq Cəbhəsinin liderlərindən olan Əmənulla xanın adı ilə bağlıdır. O təklif edir ki, Kəşmir üzrə Beynəlxalq Komitə yaradılsın, böyük dövlətlərdən Almaniya və Yaponiya, həmçinin İKT, Bloklara Qoşulmama Hərəkatının bir neçə üzvü və BMT TŞ-nın himayəsi altında bu komitə bütün Kəşmir torpaqlarını birləşdirərək 15 illik sınaq müddəti üçün federal sistemli dünyəvi Kəşmir dövləti yaratsın. 15 illik müddət bitdikdən sonra isə BMT-nin nəzarəti altında Kəşmirdə dövlətçiliklə bağlı referendum keçirilsin[41].

Lakin çox təəssüf ki, yaxın perspektivdə problemin nizamlanması ilə bağlı hər hansı proqressiv addımların atılacağı inandırıcı görünmür. Bu günkü reallıq belədir ki, nə Pakistan, nə də Hindistan güzəştə getmək fikrində deyillər. Bunun da öz səbəbləri var:

a) Hər iki ölkənin ictimai rəyi bu güzəştlərə hazır deyil. 1947-ci ildə Hindistanın bölünməsi zamanı yaşanmış hindus-müsəlman qırğınları, dini-etnik və mədəni müxtəliflik, qısa zaman kəsiyində üç müharibənin şahidi olmaq – bütün bunlar sadə insanların şüurunda qonşu dövlətin düşmən obrazında qavranılmasına səbəb olur və istənilən ciddi güzəşt ictimai rəydə xəyanət kimi qəbul edilir;

b) Kəşmir probleminin mövcudluğu hər iki dövlətin diplomatiyasına müəyyən məqamlarda ictimai rəyin nəzərini ölkədaxili sosial problemlərdən ayırmağa və onu xarici düşmən obrazında cəmləşdirməyə kömək edir;

c) Tərəflər ciddi güzəştlərə getməklə ölkədaxili separatist meylləri qızışdırmaqdan ehtiyat edirlər (Pakistanda puştunlar, sindhlər və siqhlər, Hindistanın Pəncab ştatında siqhlər, tamillər və s.)[42].

ç) Lakin münasibətlərin tərəqqisi və problemin həlli yolunda ən əsas maneə münaqişənin davam etdiyi dövr ərzində hər iki ölkədə güclü hərbi-sənaye lobbisinin formalaşmasıdır.

Kəşmir probleminin mövcudluğu generalitetə və onunla sıx bağlı sənaye lobbisinə dövlət büdcəsindən külli miqdarda vəsaitlərin ayrılması, hərbi sənayenin tam gücü ilə işləməsi baxımdan sərfəlidir. Problemin öz həllini tapması ilə ordu və məmur aparatını dolandıran nüvə, hərbi kosmik, raket və s. bahalı proqramları ya dayandırıla-caq, ya da ki, onlara çəkilən xərclər azalacaq. Bunun hərbi-sənaye lobbisinə təsiri isə sözsüz də aydındır[43].

Bu baxımdan sadalanan səbəblər üzündən Kəşmir münaqişəsinin yaxın perspektivdə həllini tapması bir problem olaraq qalacaq.

## § 2. Nüvə sınaqları və sürətlə silahlanma: regional və qlobal rakursda

İki qonşu dövlət arasında problem yaradan digər məsələ sürətlə silahlanma və nüvə sınaqlarının keçirilməsidir. İlk öncə hər iki dövlətin silahlanma siyasətindən qısaca söz açmaq istərdik.

Müasir dövrdə istər Pakistan, istərsə də Hindistan sürətli templərlə öz hərbi sənayelərini inkişaf etdirirlər. Statistikaya müraciət edək: Pakistan hərbi büdcəsinin ¾-ü quru qoşunlarına, 10%-i Hərbi Hava Qüvvələrinə və 5%-i Hərbi Dəniz Qüvvələrinə sərf edilir. 1995-96-cı illər üçün Pakistan büdcəsini təşkil edən 434.6 milyard dolların 115.2 milyardı məhz hərbi məqsədlərə xərclənmişdi[44]. 1998-ci ildə isə eyni məqsədlə 145 milyard rupi sərf olunmuşdu[45]. Lakin bütün bunlarla yanaşı Pakistan hərbi sənayenin inkişaf tempinə görə öz rəqibindən xeyli geri qalır. Bəzi nümunələrə nəzər yetirək: əgər 1996-cı ildə Pakistan 700 milyon dollar dəyərində hərbi müqavilələr imzalamışdısa, Hindistanda müvafiq göstərici 2.4 milyard dollar idi. Hindistan həmçinin hərbi qulluqçuların sayı və hərbi texnikanın kəmiyyətinə görə də Pakistanı qabaqlayır (1994-cü ilin məlumatına görə hind ordusunda 1265 min, Pakistan Silahlı Qüvvələrində isə 587 min hərbçi xidmət edirdi)[46]. Hindistanın bu üstünlüyü isə səbəbsiz deyildir: bu ölkə istər demoqrafik vəziyyətinə (əhalisinin sayına görə Hindistan dünyada Çindən sonra II yeri tutur. 2000-ci ildə Hindistan əhalisinin sayı 1.02 milyard olmuşdur[47]), istərsə də iqtisadi inkişaf göstəricilərinə görə Pakistanı xeyli qabaqlayır ki, bu da nəticə etibarilə hər 2 dövlətin hərbi potensialının səviyyəsinə öz təsirini göstərmiş olur.

**Cənubi Asiya regionunda nüvə qarşıdurması.** Hindistanda atom energetikası proqramının əsası 1948-ci ildə – müvafiq dövlət komissiyasının yaradılması və Trombeydə elmi-tədqiqat mərkəzinin açılması ilə qoyulmuşdur. 1963-cü ildə isə ölkədə ilk – Tarapur AES tikilib



istifadəyə verildi. 1964-cü ildə Çinin nüvə silahını sınaqdan keçirtməsi və beləliklə, nüvə dövlətinə çevrilməsi Hindistanda ağrılı qarşılanmaqla (xüsusilə Hindistanın 1962-ci il sərhəd münaqişəsində Çinə uduzması ilə əlaqədar) yanaşı hind rəhbərliyini bu sahədə əks-tədbirlər görməyə vadar etdi. Beləliklə, Çinin nüvə sınaqlarından cəmi 10 il sonra – 1974-cü ildə Hindistan özünün nüvə sınağını keçirtmiş oldu[48].

Pakistan milli nüvə proqramının işlənib-hazırlanmasına 1950-ci illərin sonlarında başlamışdı: 1957-ci ildə Pakistan Atom Enerjisi Komissiyası (PAEC) yaradılmışdı. O zaman bu proqram energetika sahəsi üçün atom reaktorlarının yaradılması üzərində çalışırdı və dinc məqsədlər güdürdü. Amma 1974-cü ildə Hindistanın nüvə silahını sınaqdan keçirtməsi Pakistanı öz nüvə proqramına yenidən baxmağa vadar etdi. Elə həmin il Pakistanda Nüvə Silahı Proqramı yaradıldı və proqrama rəhbərlik uzun illər Qərbi Avropada çalışmış mühəndis Əbdül Qədir Xana – Pakistan atom silahının gələcək banisinə həvalə edildi[49]. Hindistanın ardınca Pakistanın da hərbi nüvə proqramına başlaması ABŞ siyasi elitasında narahatlıq doğurmaqla yanaşı amerikan diplomatiyasının bu istiqamətdə səylərini artırması ilə nəticələndi. Bu da bir tərəfdən regionda nüvə qarşıdurmasını önləmək məqsədi daşıyırdısa, digər tərəfdən "islam bombası" ideyasının reallaşacağı təhlükəsi ilə bağlı idi[50]. Yəni amerikan siyasi dairələrində islam ənənələrinə bağlılığı ilə seçilən Pakistanda nüvə bombasının yaradılması və onun Hindistanla yanaşı İsrailə qarşı çevriləcəyi ehtimalı ciddi qəbul olunurdu. Lakin ABŞ-ın o zamankı dövlət katibi Henri Kissincerin Pakistana 1976-cı il səfəri uğursuz başa çatmışdı. Pakistan ABŞ diplomatiyasının hərbi nüvə proqramını dayandırmaq təklifinə yox deyərək bu istiqamətdə səylərini gücləndirdi[51].

I fəslin II paraqrafında Pakistanın nüvə silahı yaratması sahəsində Çinin yardımından faydalandığı barədə məlumat vermişdik. Nüvə silahının yaradılması sahəsində digər mənbə Qərbi Avropa dövlətləri idi. Belə ki, Qərbi Av-

ropa dövlətlərinin qanunvericiliklərində mövcud boşluqlardan istifadə edən Pakistan rəhbərliyi uran zənginləşdirilməsi üzrə bir sıra texnologiya və avadanlıqların gətirilməsini təmin edə bilmişdi.

1985-ci ildə Hindistanın baş naziri Raciv Qandinin məşhur bəyanatı ("Hindistan bir neçə həftəyə və ya aya nüvə silahını yarada bilər") Pakistanda narahatlığa səbəb olmaqla yanaşı atom silahının yaradılması istiqamətində səylərin daha da artırılması ilə nəticələndi. Və bu məşhur bəyanatdan cəmi iki il sonra Pakistanın prezidenti Ziya ül-Həq elan etmişdi: "Yaza bilərsiniz ki, Pakistan istədiyi zaman atom bombasını yarada bilər"[52]. Pakistan prezidentinin bu sözləri heç də qarşı tərəfə sadəcə diplomatik-psixoloji təpki kimi nəzərdən keçirilməməlidir. Artıq 80-ci illərin sonu üçün Pakistan nüvə silahının yaradılması sahəsində ciddi uğurlar əldə etmişdi. Məhz qazanılmış bu uğurlar ABŞ rəhbərliyinin Pressler düzəlişi əsasında 1990-cı ildə Pakistana qarşı sanksiyalar tətbiq etməsinə səbəb oldu. Buna baxmayaraq Pakistan rəhbərliyi hər vəchlə nüvə silahının yaradılması prosesi üzərində çalışırdı. SİPRİ-nin (Stokholm Strateji Tədqiqatlar İnstitutu) verdiyi informasiyaya görə 90-cı illərin əvvəlləri üçün Pakistan 6-10 ədəd nüvə silahı istehsal etmək imkanına malik idi.

1992-ci ilin yanvarında "Washington Post" qəzetinə müsahibəsində Pakistanın xarici işlər üzrə katibi Şəhrəyar Xan bəyan etmişdi ki, Pakistanın ixtiyarında nüvə silahını yaratmaq üçün lazım olan bütün elementlər və texniki avadanlıqlar vardır[53].

Bu müsahibədən cəmi bir ay sonra – 1992-ci ilin fevralında Pakistan rəhbərliyi rəsmən elan etdi ki, nüvə texnologiyasına yiyələnmişdir və nüvə silahı istehsalı üçün lazımi baza və ehtiyatlara malikdir[54].

1994-cü ilin avqustunda isə digər Pakistan rəsmisi – baş nazir Nəvaz Şərif bəyan etdi ki, Pakistanın atom bombası var və o, Hindistandan müdafiə məqsədilə nüvə silahını işə sala bilər.



1998-ci ilin yazı silahlanma yarışında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoydu. Mayın 11-də Hindistan Pokharan poliqonunda 15-20 kilotonluq adi nüvə qurğusunu, 50 klt hidrogen qurğusunu və nisbətən az gücə malik adi nüvə qurğusunu sınaqdan keçirtdi. Mayın 13-də isə daha iki nüvə qurğusu sınaqdan keçirildi. Buna cavab olaraq Pakistan da öz növbəsində mayın 28-də 5, mayın 30-da isə 2 ədəd 5-10 kilotonluq nüvə qurğusunu Çaqay poliqonunda sınaqdan keçirtdi. Bununla da dünyada nüvə silahına sahib dövlətlərin sayı yeddiyə çatmış oldu[55].

Qeyd edək ki, Hindistanın nüvə sınaqlarından sonra dünya ictimaiyyəti, ilk növbədə isə ABŞ Pakistana təzyiq göstərərək onu analoji addım atmaqdan çəkindirməyə çalışırdılar. Lakin onların istəyinə rəğmən Pakistan Hindistandan cəmi iki həftə sonra özünün nüvə sınaqlarını keçirtdi. Pakistanı bu addımı atmağa vadar edən faktorlar aşağıdakılar idi:

a) Pakistan rəhbərliyi hesab edirdi ki, nüvə silahının mövcudluğu faktorundan istifadə edən Hindistan Kəşmir problemi, eləcə də regional və beynəlxalq səviyyədə öz nüfuz və mövqeyini gücləndirmiş olacaq. Hindistanın baş naziri Atal Bihari Vacpainin nüvə sınaqlarından dərhal sonra "Hindistanın nüvə silahı hind-Pakistan münasibətlərində yeni səhifənin açılması deməkdir" tipli bəyanatı da Pakistan tərəfindən məhz bu kontekstdə nəzərdən keçirilirdi. Hindistanın nüvə sınaqlarına cavab olaraq PİR rəhbərliyi də analoji aksiyanı həyata keçirməklə nüvə yarışında heç də əzəli rəqibi Hindistandan geri qalmadığını nümayiş etdirməyə və mövcud qüvvələr balansını qoruyub saxlamağa çalışırdı;

b) Hind tərəfinin keçirdiyi nüvə sınaqlarına beynəlxalq ictimaiyyətin eyni mövqedən çıxış etməməsi (məsələn, ABŞ Qlen düzəlişi əsasında Hindistana hərbi və iqtisadi xarakterli sanksiyalar tətbiq etsə də BMT TŞ-nın digər üzvləri və "Böyük-8"lər Hindistanı sadəcə ittiham etməklə kifayətlənmişdilər) Pakistan rəhbərliyində belə bir ümid doğurmuşdu ki, analoji aksiya da o qədər sərt qarşılan-

mayacaqdır. Pakistan eyni zamanda Çin Xalq Respublikası və islam dünyasının diplomatik və iqtisadi dəstəyinə arxalanırdı.

Lakin hadisələrin sonrakı inkişafı PİR rəhbərliyinin öz gümanında yanıldığını göstərmiş oldu. Belə ki, ABŞ-ın ardınca Pakistanın 1№-li donoru və ticarət partnyoru Yaponiya və Avstraliya da sanksiyalara qoşuldu, Kanada və Böyük Britaniya isə səfirlərini İslamabaddan geri çağırdılar. Mayın 30-u Pakistanın daha iki nüvə qurğusunu sınaqdan keçirməsi isə Yaponiyanın öz səfirini geri çağırması ilə nəticələndi. 1998-ci il iyunun 12-də "Böyük-8"lər hər iki dövlətə qeyri-humanitar xarakterli yardımların dayandırılması barədə qətnamə qəbul etdilər. Beləliklə, hər iki nüvə dövləti – həm Pakistan, həm də Hindistan beynəlxalq maliyyə institutlarının – Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Asiya İnkişaf Bankının iqtisadi yardımlarından məhrum oldular. Sanksiyalar nəticəsində Pakistan iqtisadiyyatı 2 milyard dollar həcmində yardımlardan məhrum oldu[56]. Bu dövr Pakistan iqtisadiyyatına dəyən daha bir zərbə isə Şərqi Asiyada baş vermiş iqtisadi böhranla əlaqədar idi. Belə ki, böhran nəticəsində Pakistan rupisinin qiyməti kəskin surətdə aşağı düşmüşdü. Pakistanın xarici partnyorları isə konversiya edilməmiş Pakistan rupisi ilə ticari əməkdaşlıqda maraqlı deyildilər. Məhz bunun nəticəsində ixrac əməliyyatlarından Pakistan büdcəsinə nəzərdə tutulan 12 milyard dollar əvəzinə cəmi 8 milyard dollar daxil olmuşdu[57].

Nüvə sınaqlarına qayıdaraq bildirək ki, bu dövr Pakistan diplomatiyası beynəlxalq ictimaiyyətin sərt təpkisini neytrallaşdırmaq məqsədilə siyasi gedişlər edirdi. Məsələn, nüvə sınaqlarından dərhal sonra Pakistan öz rəqibinə Strateji Məhdudlaşdırma Rejiminin tətbiq olunması təklifi ilə çıxış etmişdi. Təklifin əsasında nüvə arsenalının minimum həddə saxlanılması və yeni nüvə silahlarının istehsalının dayandırılması dururdu. Pakistan hesab edirdi ki, bu, regionda balanslaşdırılmış nüvə siyasəti yeritməyə və



beləliklə mümkün nüvə qarşıdurmasından qaçmağa imkan verəcək. Hindistan bu təklifi rədd etdi.

Pakistan diplomatiyasının digər təklifi isə Cənubi Asiya bölgəsinin nüvəsiz zona elan edilməsi idi. İlk belə təklif hələ 1974-cü ildə səslənmişdi. 1991-ci ildə isə Pakistan diplomatiyası ABŞ, Rusiya Federasiyası, Çin, Hindistan və Pakistanın daxil olduğu beynəlxalq konfrans çağrılmasını və burada Cənubi Asiya nüvə proqramlarının müzakirə edilməsini təklif etmişdi. Lakin Pakistan diplomatiyasının bütün səylərinə rəğmən Hindistan bu təkliflərə qoşulmaqdan imtina edirdi. Öz imtinasını hind diplomatiyası aşağıdakı arqumentlərlə əsaslandırmağa çalışırdı:

a) Cənubi Asiya bölgəsini süni surətdə bütün Asiyadan ayırıb nüvəsiz zona elan etmək olmaz;

b) Bu cür razılaşmanın imzalanması üçün regional təşkilat mövcud deyil (1991-ci ildə CARƏT-nın yaradılması ilə Hindistanın bu arqumenti öz əhəmiyyətini itirdi);

c) Regionlar üçün nüvəsiz zona konsepsiyasının qəbulu nəticə etibarilə böyük dövlətlərin nüvə potensialının güclənməsinə və nüvə dövlətləri ilə qeyri-nüvə dövlətləri arasında fərqin daha da artmasına gətirib çıxara bilər[58].

Məsələyə diqqətlə yanaşdıqda isə Hindistanın hansı amillər üzündən bu konsepsiyaya qoşulmamasını anlamaq olar:

– Çin və Pakistanın nüvə proqramlarının sürətli inkişafı şəraitində Hindistanın bu təklifə qoşulması onu əsas silahından – nüvə bombasından məhrum edərdi. Bu isə öz növbəsində Hindistanın bölgədə nüfuzunun kəskin şəkildə düşməsi demək olardı;

– Nüvə silahının mövcudluğu Hindistana aparıcı dövlətlərdən biri olmaq və dünyada daha önəmli yer tutmaq şansı verirdi[59].

Buna baxmayaraq tərəflər siyasi iradə və praqmatizm nümayiş etdirərək 1998-ci ildə nüvə sınaqlarına moratorium qoyulması barədə razılığa gəldilər. Təxminən bir il əvvəl–2004-cü ilin iyununda tərəflər moratoriumun müddətinin uzadılması barədə növbəti razılığa gəlmişlər.

Öz-özlüyündə nüvə sınaqları siyasi aksiyadır, əgər onu keçirən dövlət nüvə döyüş başlıqlarını daşımaq üçün xüsusi vasitələrə (ballistik raketlərə) malik deyilsə. Pakistan və Hindistanın isə bu cür vasitələri var: 1992-96-cı illərdə Hindistan nüvə döyüş başlığını daşıya bilən "Aqni" ballistik raketini (hərəkət məsafəsi 2500 km) sınaqdan keçirtmiş, 1982-1997-ci illərdə isə "Yer-Yer" tipli taktiki "Prithvi" raketinin 16 sınağı keçirilmişdi. 1999-cu ilin aprelində Hindistan "Aqni"nin yeni sınaqlarını keçirtdi. Bu sınaqlar Lahor Bəyannaməsindən cəmi 2 ay sonra keçirildiyindən bu, Bəyannamənin faktik olaraq kağız üzərində qalacağını göstərirdi. Bununla yanaşı hind tərəfi bəyan edirdi ki, "Aqni" tam gücündə sınaqdan keçirilməyib. Bu isə o demək idi ki, əgər bu baş tutsa, onda Hindistan nəinki Pakistanı, hətta Çinin böyük hissəsini, İranı və Səudiyyə Ərəbistanını nişan altında saxlaya biləcək. Bu təhlükəni gözəl anlayan Pakistan da öz növbəsində bir neçə həftə sonra "Gauri" və "Şahin-1" (750 km) raketlərinin sınağını keçirtdi[60]. Mobillik baxımdan "Prithvi"dən geri qalan "Gauri" hərəkət məsafəsində onu qabaqlayırdı: 300 km-ə qarşı 1500 km. Bir il öncə – 1997-ci ildə isə Pakistan "Hətf-III" ballistik raketini sınaqdan keçirtmişdi. Bu raketin uçuş məsafəsi isə 800 km-dir (xatırladaq ki, "Hətf-I" və "Hətf-II" raketlərinin sınağı ilk dəfə 1989-cu ildə keçirilmişdir).

Raket sınaqları XXI əsrin başlanğıcında da öz aktuallığını saxlayır. Məsələn, təxminən bir il əvvəl – 2004-cü ilin may-iyun aylarında Pakistan tərəfi ortamənzilli "Hətf-5" raketinin iki sınağını (müvafiq olaraq 900 və 1500 km) keçirtmişdir. Pakistan tərəfinin bu addımına cavab olaraq Hindistan cari ilin iyul və avqust aylarında "Aqni-1" (uçuş məsafəsi 1200 km) və "Aqni-2" (uçuş məsafəsi 2000 km-ə qədər) ballistik raketlərinin sınağını keçirtdi. Hər iki sınaq Hindistanın şərqində–Orissa ştatında həyata keçirilmişdir[61].

Regionda nüvə yarışında təhlükə yaradan digər amil hər iki ölkədə preventiv zərbə tərəfdarlarının mövcudluğu və bunun müqabilində nüvə hücumundan xəbərdarlıq sisteminin olmamasıdır. Preventiv zərbə tərəfdarları belə hesab edir ki, nüvə başlıqlarını ballistik raketlərə birinci quraşdıran dövlət öz rəqibinin nüvə potensialını sıradan çıxarmaq imkanı əldə etmiş olacaq. Xatırlatsaq ki, ballistik raketin hədəfə çatma tezliyi cəmi bir neçə dəqiqədir, onda bu konsepsiyanın nə dərəcədə təhlükə daşıdığına şübhə etməmək olar.

Bütün bunlarla yanaşı mütəxəssislər hesab edir ki, hal-hazırda bu iki dövlət arasında nüvə silahlanması sahəsində nisbi tarazlıq mövcuddur: ballistik raket və raket texnologiyasının həcminə görə Hindistan üstündür, Pakistan isə rəqibini nüvə silahından istifadə doktrina və taktikasında qabaqlayır. Həmçinin Hindistanın nüvə proqramı hind siyasətçilərinin nəzarətindədir və onlar tərəfindən siyasi məqsədlərlə istifadə olunur. Pakistanda isə nüvə proqramı ordunun tabeliyindədir və hərbi strategiyanın mühüm tərkib hissəsidir.

Hər iki dövlətin nüvə siyasətində müsbət məqamlar da olmamış deyil. Məsələn, 90-cı illərin əvvəllərində tərəflər özlərinin nüvə obyektləri haqqında informasiyanı bir-birilərinə ötürməyi qərarlaşdırmışdılar və bu mübadilə artıq 14 ildir ki, gedir. Bundan bir neçə il əvvəl – 1988-ci il dekabrın 31-də isə Hindistan ilə Pakistan bir-birilərinin nüvə obyektlərinə hücum etməmək haqqında saziş imzalamışdılar[62].

Nüvə probleminin yaratdığı gərginliyi aradan qaldırmaq yolunda ilk addım 1999-cu il Lahor görüşü zamanı atılmışdı. O zaman tərəflər nüvə sınaqları haqqında xəbərdarlıq mexanizminin işlənib-hazırlanması və ballistik raketlərin sınağı barədə əvvəlcədən məlumat vermək barədə razılığa gəlmişdilər.

Nüvə silahının mövcudluğu Pakistan cəmiyyətinin birliyinə xidmət edən amillərdən biridir. İqtisadi baxımdan kasıb və çoxmillətli Pakistan özünün nüvə silahının olması ilə qürur duyur. Bu fikri Pakistan prezidenti P. Müşərrəfin çıxışlarından birində dediyi sözlər də təsdiq edir:

"...Məyusluq dəryasında bizim yeganə milli uğurumuz Pakistanın nüvə dövlətinə çevrilməsidir".

Beynəlxalq ictimaiyyətin bütün səylərinə rəğmən nə Hindistan, nə də Pakistan nüvə yarışını dayandırmaq fikrində deyillər. Məsələn, 1995-ci ildə beynəlxalq ictimaiyyət tərəfləri Nüvə Silahının Yayılmaması Haqqında Müqaviləyə qoşulmağa çağıranda hər iki tərəf birinci addımı rəqibinin atması ideyası ilə çıxış etmişdi. 1996-cı ildə isə NSQÇS-ə qoşulma ideyası gündəmə gəldikdə qarşıduran dövlətlər yalnız digər tərəfin bu sazişə qoşulmasından sonra analoji addımı atacaqlarını bəyan etmişdilər.

Bununla əlaqədar 2000-ci il fevralın 8-də P. Müşərrəfin verdiyi bəyanatda deyilirdi ki, Pakistan Nüvə sınaqlarının qadağan olunması haqqında çoxtərəfli sazişə (NSQÇS) o zaman qoşula bilər ki, Pakistan xalqı ümumxalq səsverməsində bunun lehinə səs versin.

Pakistanın nüvə proqramını inkişaf etdirmək sahəsində öz səylərini artıracağını PİR-in digər rəsmisi –o zaman maliyyə naziri olan Şaukət Əziz də təsdiqləmişdi. 2004-cü il avqustun əvvəllərində İslamabadda istefada olan hərbçilərlə görüş zamanı Ş. Əziz bildirmişdi: "Pakistan ölkənin suverenliyinin, ərazi bütövlüyünün təminatçısı olan nüvə-raket proqramını dondurmaq niyyətində deyil. Biz bu proqramı ixtisar etməyəcəyik. Əksinə, gələcəkdə də Vətənimizin müdafiəsini gücləndirmək niyyətindəyik"[63].

Öz növbəsində 2003-cü il yanvarın 4-də hind rəhbərliyi Strateji Nüvə Komandanlığının yaradılması haqqında bəyanat vermişdi. Bəyanatda deyilirdi ki, bu qərar nüvə silahından istifadə barədə qərar qəbulu qaydasının formalaşdırılması və tənzimlənməsi məqsədi daşıyır. İki yerə bölünəcək SNK-da baş nazirin rəhbərlik etdiyi Siyasi Şura nüvə silahından istifadə barədə sanksiya verəcək, təhlükəsizlik üzrə müşavirin başçılıq etdiyi İcraedici Orqan isə bu qərarı yerinə yetirəcək. Beləliklə, hind rəhbərliyinin bu qərarı ilə nüvə silahından istifadə strategiyasının tam şəkildə siyasi elitanın (hərbi deyil) nəzarətinə keçmə prosesi başa çatmışdır.



Nüvə sınaqları və sürətlə silahlanma sıx surətdə Kəşmir problemi ilə bağlıdır. Pakistan-Hindistan münasibətlərində tərəqqi olmayınca bu problem də mövcud olaraq qalacaq və dünya ictimaiyyətinə təhlükəli anlar yaşadacaq.

## ƏDƏBİYYAT


[1] Горев А. «Махатма Ганди». М., 1989, səh.304

[2] Горев А., Зимянин В., «Неру». М., 1988, səh.285

[3] Белокреницкий В.Я. и др. «Южная Азия: конфликты и геополитика». Səh. 102

[4] Максаковский В.П. «Географическая картина мира» (II hissə). Ярославль, 1998, səh. 277

[5] "Jammu and Kashmir dispute" http://www.forisb.org/fpolicy

[6] Maksakovskiy V.P., Göstərilən əsəri, səh.280

[7] Baxışov M., Göstərilən əsəri, səh. 274

[8] Ганковский Ю.В. «Пакистан» (справочник). М., 1991, səh. 10

[9] A.V. Torkunovun red. altında. Göstərilən əsəri, səh.386

[10] İsmayıl R. B., Axundova N. "Asiya və Afrika ölkələrinin çağdaş tarixi". B., 2001, səh.319

[11] Степанов Л.В. «Конфликт в Индостане и соглашение в Ташкенте». М., 1966, səh. 11

[12] A.V.Torkunovun red altında. Göstərilən əsəri, səh.386

[13] "Baku Sun" qəzeti, 2003, February 28

[14] "Kashmir, Kargil and normalization with İndia" http://www.forisb.org/fpolicy

[15] Белокреницкий В.Я. и др., Göstərilən əsəri, səh.75

[16] Е.Пахомов «Кашмир нынче дорог» http://old.ej.ru/002/life/04cashmir/index.html

[17] A.V.Torkunovun red altında. Göstərilən əsəri, səh. 387

[18] "Лахорская Декларация" http://kurginyan.ru/publ.shtml?cmd=sch&cat=494&vip

[19] "Kashmir, Kargil and normalization with İndia" http://www.forisb.org/fpolicy

[20] Yenə orada

[21] Максим Череда "Судьба "Гималайского рая"" http://www.zerkalo-nedeli.com/nn/show/352/31752

[22] President's Press Conference. Opening Statement

http://www.pak.gov.pk/public/Pre-Press-Conf-20-July01.htm
[23] Е.Пахомов «Кашмир нынче дорог»
http://old.ej.ru/002/life/04cashmir/index.html
[24] "Спецслужбы Индии пердали США данные о 150 лагерях террористов"
http://www.rambler.ru/db/news/msg.html?mid=1927816&s=11
[25] "Washington File" "State Departament Noon Briefing"
http://usinfo.state.gov/
[26] Наталия Логинова "Ядерные бивни боевых слонов"
http://www.rgz.ru/arhiv/27.12.2001/politika/txt3.h
[27] Сергей Пичугин «Кашмирский кризис»
http://www.monitor.nnov.ru/2002/number04/art18.pht
[28] Алексей Андреев, Михаил Ходаренок «Война»
http://www.ng.ru/world/2002-05-21/1_war.html
[29] "Россия потребовала от Пакистана выдачи террористов Индии"
http://www.rambler.ru/db/news/msg.html?mid=2414843&s=15
[30] Валерий Севрюков «В Индию прибыла делегация пакистанских парламентариев»
http://india.ru/lentatest/index.phtml?İD=3466&coun
[31] Досье// Азия// "Индия и Пакистан официально восстановили дипотношения"
http://www.newsru.com/dosjex/14526.html
[32] "Baku Sun", 2004, November 26
[33] Семененко Н. «Сираики – пятая провинция?», «Азия и Африка сегодня», № 2, 1990
[34] İndia.Ru Информация о спецслужбах Индии
http://www.india.ru/politika/secret
[35] A.V.Torkunovun red.altında.Göstərilən əsəri, səh.387
[36] «Кашмир нынче дорог»
http://old.ej.ru/002/life/04cashmir/index.html
[37] Н.Гулиева, Н.Алиев "Сколько стоит война?"
http://www.echo-az.com/archive/252/facts.shtml
[38] Narbaev B. "Transafghan gas pipeline", səh.40
[39] Белокреницкий В.Я. «Мусульманские страны у границ СНГ». M., 2002, səh. 43
[40] Maksakovskiy V.P., Göstərilən əsəri, səh. 280
[41] А. Андреев, М. Ходаренок «Война»
http://www.ng.ru/world/2002-05-21/1_war.html
[42] Белокреницкий В.Я. и др., Göstərilən əsəri, səh. 111



[43] «Кашмир нынче дорог»
http://old.ej.ru/002/life/04cashmir/index.html
[44] Морозова М. «Вооруженные силы и военная политика», «Азия и Африка сегодня», № 8/99, səh. 16
[45] Белокреницкий В.Я. Göstərilən əsəri, səh. 39
[46] Морозова М. «Вооруженные силы и военная политика», səh. 17
[47] «Страны мира» (информационный справочник), M., 2002, səh. 259
[48] «Глава 4. Межгосударственные конфликты и региональная безопасность в Южной Азии», səh. 424
[49] S. Ahmed "Pakistan's nuclear weapons program", səh.181
[50] «Глава 4. Межгосударственные конфликты и…», səh. 425
[51] Киссинджер Г. «Нужна ли Америке дипломатия». M., 2002, səh. 169
[52] A.V. Torkunovun red.altında, Göstərilən əsəri, səh. 390
[53] S. Ahmed "Pakistan's nuclear weapons program", səh. 190
[54] İsmayıl R.B., Axundova N., Göstərilən əsəri, səh. 320
[55] «Вооруженные силы и военная политика», səh. 19
[56] İsmayıl R.B. Göstərilən əsəri, səh. 324
[57] Алексеев М. «Ядерные испытания: последствия для Пакистана», «Эксперт» jurnalı, № 4/99, səh. 24-25
[58] A.V.Torkunovun red. altında.Göstərilən əsəri, səh. 391
[59] Kissincer H., Göstərilən əsəri, səh.170
[60] "Avrasiya" qəzeti, 1999, 16 aprel
[61] "Günay" qəzeti, 2004, 11 iyun
[62] Ганковский Ю.В. «Пакистан». M., 1991, səh. 17
[63] "Azərbaycan" qəzeti, 2004, 5 avqust

## IV FƏSİL

## PAKİSTANIN MƏRKƏZİ ASİYA VƏ CƏNUBİ QAFQAZ STRATEGİYASI

### § 1. Pakistanın Mərkəzi Asiya respublikaları ilə əməkdaşlığı

Sovet İttifaqının süqutundan sonra Pakistan İslam Respublikasının xarici siyasətində yeni istiqamət meydana gəldi. Bu istiqamət ilk növbədə yenicə müstəqil olmuş Mərkəzi Asiya respublikaları və Cənubi Qafqazı əhatə edirdi.

Hələ 1987-ci ildə Pakistanın o zamankı prezidenti Ziya ül-Həq Pakistan-Əfqanıstan konfederasiyasının yaradılması və gələcəkdə bu konfederasiyaya İran və Türkiyə ilə yanaşı Tacikistan və Özbəkistanın da qoşula biləcəyi ideyasını ortaya atmışdı[1]. 1991-ci ilin noyabr-dekabr aylarında – SSRİ-nin süqutu ərəfəsində isə Mərkəzi Asiya respublikalarına Pakistan nümayəndə heyəti təşrif buyurmuşdu. Nümayəndə heyətinə o zaman iqtisadiyyat məsələləri üzrə nazir Sərdar Asif Əhməd Əli başçılıq edirdi. Nümayəndə heyəti Mərkəzi Asiya respublikalarına ticarət, maliyyə, nəqliyyat, hidroenergetika, elm, səhiyyə sahələrində əməkdaşlıqla bağlı təşəbbüs paketləri təqdim etmişdi. Səfər gedişində qarşılıqlı anlaşma və konkret sahələrdə əməkdaşlıqla əlaqədar 30-dan çox razılaşma və memorandum imzalanmışdı. Həmçinin Mərkəzi Asiya respublikalarının hər birinə 10 milyon dollardan 30 milyon dolları̇dək uzunmüddətli dövlət kreditləri təklif olunmuşdu. Məhz bu səfər Pakistanın yeni istiqamətdə xarici iqtisadi



əlaqələrinin aktivləşdirilməsi üçün bir zəmin hazırlamış oldu.

Sovet İttifaqının süqutu Pakistana imkan verdi ki, Əfqanıstan və Mərkəzi Asiya respublikalarını özünün "təbii nüfuz dairəsi" elan etsin.

Mərkəzi Asiya respublikaları ilə sıx əlaqələrin qurulması 90-cı illərin əvvəllərindən etibarən Pakistan diplomatiyasının əsas vəzifələrindən birinə çevrilmişdir. Bu zaman ortaya belə bir sual çıxır: Mərkəzi Asiya dövlətlərinin PİR-in xarici siyasət doktrinasında belə önəmli mövqe tutması nə ilə bağlıdır? Birinci növbədə Mərkəzi Asiya respublikalarında zəngin təbii sərvətlərin, ilk növbədə isə karbohidrogen resurslarının mövcudluğu ilə. Pakistan analitiklərindən biri – doktor Rifat Hüseynin fikirləri, zənnimizcə, Pakistanın bu istiqamətdə məqsədlərini aydın şəkildə ortaya qoyur: "Mərkəzi Asiya –qeyri-adi dərəcədə zəngin regiondur. Qazaxıstan – dünyada taxılın əsas istehsalçılarındandır. Özbəkistan pambıq istehsalına görə dünyada III yeri tutur, üstəlik neft, qaz, hidroresurslara malikdir. Mərkəzi Asiya meyvə və üzüm bağlarının 2/3-i bu ölkədə cəmləşib. Türkmənistan neft, qaz, kükürd və kaliylə, Qırğızıstan isə qiymətli metallarla zəngindir. Tacikistan iqtisadiyyatı kənd təsərrüfatına istiqamətlənib və mineral resurslarla boldur"[2]. Gördüyümüz kimi, bu cümlələrdən də bəlli olur ki, Pa-kistanı Mərkəzi Asiya dövlətlərinin yeraltı və yerüstü sərvətləri cəlb edirdi. Bu zaman bölgənin karbohidrogen ehtiyatlarının Əfqanıstan vasitəsilə Pakistana, oradan isə dünya bazarına çıxarılması ideyası öz əksini konkret layihələrdə də tapmışdı. Bu layihələrdən ən məşhuru Transəfqan kəməri ideyasıdır.

Əfqan marşrutu ideyası ilk dəfə 1992-ci ilin mayında Türkmənistanın paytaxtı Aşqabadda Pakistanın baş naziri Nəvaz Şəriflə Türkmənistan prezidenti Saparmurad Niyazov arasında keçirilmiş danışıqlar zamanı meydana çıxmışdı. Danışıqlar zamanı tərəflər Əfqanıstandan keçməklə türkmən qazının Pakistana ixracı məsələsini müzakirə etmişdilər. Nəticədə tərəflər Əfqanıstandan keçməklə Xa-

man-Turqundi avtomobil yolu və qaz kəmərinin çəkilişi barədə ilkin razılığa gəlmişdilər. Qeyd edək ki, N. Şərif Aşqabada İƏT çərçivəsində işçi sessiyasında iştirak etmək üçün gəlmişdi.

Bununla yanaşı qeyd etmək lazımdır ki, Pakistanın Mərkəzi Asiya respublikalarında marağı və fəaliyyət dairəsi təkcə iqtisadi sahə ilə məhdudlaşmırdı. Pakistan rəhbərliyi bu respublikaları siyasi nöqteyi-nəzərdən də qiymətləndirirdi: belə ki, Pakistan diplomatiyası dost ölkələrin daxil olduğu koalisiya yaratmaqla bölgədə güc mərkəzinə çevrilmək və Hindistanla rəqabətdə qüvvələr balansını öz xeyrinə dəyişmək məqsədini reallaşdırmağa çalışırdı[3].

Öz növbəsində Mərkəzi Asiya respublikaları da Pakistan ilə sıx iqtisadi-siyasi əməkdaşlıqda maraqlı idilər: dənizə birbaşa çıxışları olmayan bu respublikalar, xüsusilə Türkmənistan üçün Pakistanla avtobus və dəmir yol xəttinin açılışı, həmçinin qaz-neft kəmərinin çəkilişi Hind okeanı və oradan da birbaşa dünya bazarına çıxış əldə etmək baxımdan cəlbedici idi[4]. Pakistanın o zamankı baş naziri N.Şərifin çıxışlarından birində dediyi sözlər tərəflərin yuxarıda qeyd etdiyimiz maraq və mənafelərini zənnimizcə daha dolğun ifadə edir:

"Mərkəzi Asiyada Sibirdən Qazaxıstan, Özbəkistan və Türkmənistana uzanan geniş neft-qaz şəbəkəsi mövcuddur. Bu şəbəkənin Əfqanıstan vasitəsilə Pakistana uzadılması mühüm əhəmiyyətə malikdir. 132 milyonluq əhalisi olan Pakistan nəinki Mərkəzi Asiya respublikaları üçün əlverişli satış bazarı olacaq, həmçinin Mərkəzi Asiya neft və qazının zəngin Şərqi Asiya bazarlarına dəniz vasitəsilə çıxışı üçün qısa yolun çəkilişini təmin edəcəkdir"[5].

Yeni siyasi istiqamətin xarakterik xüsusiyyətlərindən biri də bölgələr arasında tarixi-coğrafi yaxınlıq faktorunun mövcudluğu idi. Belə ki, Pakistan ilə Mərkəzi Asiya ölkələri arasında kökü min illərə gedib çıxan iqtisadi münasibətlərin olması (XIX əsrin əvvəllərinə qədər Pakistanın Peşəvər, Lahor və Multan şəhərləri ilə Mərkəzi Asiyanın Buxara və Səmərqənd şəhərləri arasında geniş ticarət əlaqələri mövcud olmuşdur) və bölgə xalqlarının taleyinin sıx surətdə bağlılığı prinsipi bütün ikitərəfli görüş və toplantılarda Mərkəzi Asiya liderlərinin nəzərinə çatdırılır, coğrafi və tarixi yaxınlığın qarşılıqlı münasibətlərdə tərəqqiyə kömək edəcəyinə inam vurğulanırdı. Pakistan rəhbərliyi Mərkəzi Asiya respublikaları ilə müasir münasibətlərin inkişafını bir növ qədim mədəni, dini, tarixi və iqtisadi əlaqələrin bərpası kimi nəzərdən keçirirdi[6].

Tərəflər arasında sıx əlaqələrin qurulması və Transəfqan kəmərinin reallaşdırılmasını sürətləndirmək məqsədilə hər iki ölkə rəsmilərinin qarşılıqlı səfərləri müntəzəm xarakter almağa başladı. 1993-cü il fevralın 6-7-də Kvettada (Pakistan) və həmin il noyabrın 28-də İslamabadda hər iki dövlətin yüksək rütbəli şəxsləri arasında növbəti görüşlər keçirildi. Görüşlər zamanı müzakirə olunan əsas məsələ qaz-neft kəmərinin çəkilişi idi.

1994-cü ilin aprelində Pakistan Hərbi Hava Qüvvələrinin nümayəndəsi, vitse-marşal Faruq Osman Haydar Aşqabada rəsmi səfərə gəldi. Səfərin nəticəsi olaraq tərəflər arasında hərbi əməkdaşlıq haqqında müqavilə imzalandı.

1995-ci ilin martında Pakistanın paytaxtı İslamabadda baş nazir Bennəzir Bhutto ilə Saparmurad Niyazov arasında keçirilən görüş zamanı qaz kəməri və Xaman-Turqundi avtomobil yolunun çəkilişi ilə bağlı memorandum imzalandı[7].

1996-cı il may ayının 14-ü İƏT-in Aşqabadda keçirilən dördüncü sammitində PİR nümayəndə heyətinə rəhbərlik edən Pakistan prezidenti F.Əhməd Xan Leqarinin yaxından təşəbbüsü ilə Aşqabad Bəyannaməsi qəbul edilmişdi. Bəyannamə özündə İƏT-ə üzv ölkələrin iqtisadi-ticari əməkdaşlığını genişləndirmək məqsədilə Qaraqorum şosesinin istifadəyə verilməsini, Mərkəzi Asiya ölkələrinin Pakistanın Qvadar və Kəraçi limanlarına çıxışını təmin edəcək dəmir yol və şose yolunun tez bir zamanda işə salınmasını, Kuşka-Herat-Qəndəhar-Çəmən dəmir yolu və neft-qaz kəmərinin çəkilişi kimi vacib problemləri birləşdirirdi. Sammit gedişində həmçinin Pakistan, Əfqanıs-

tan, Türkmənistan və Özbəkistan arasında qaz kəmərinin, PİR, Əfqanıstan və Türkmənistan arasında isə Cərcodan (Türkmənistan) Qvadara neft kəmərinin çəkilişi barədə memorandumlar imzalanmışdı[8].

Pakistan diplomatiyasının fəallığı yalnız Türkmənistan ilə məhdudlaşmırdı. Mərkəzi Asiya respublikalarından Özbəkistan da PİR-in xarici siyasətində önəmli yerlərdən birini tutur. 1992-ci ilin martında Pakistanın maliyyə naziri Sərtac Əzizin, həmin ilin iyununda isə baş nazir N.Şərifin Özbəkistan rəhbərliyi ilə fəal danışıqları 1992-ci ilin avqustunda prezident İslam Kərimovun Pakistana rəsmi səfəri ilə nəticələndi. Səfər gedişində tərəflər arasında energetika və irriqasiya, poçt və telekommunikasiya, investisiyaların qarşılıqlı müdafiəsi sahəsində, həmçinin iki banklararası razılaşma imzalandı.

1992-93-cü illərdə Pakistan və Özbəkistan arasında İslamabadda Mərkəzi Asiya regionunda təhlükəsizliyə dair "birgə məsuliyyət" konsepsiyası işlənib hazırlanırdı. Bu strategiya bölgədə tərəflərin konkret məsuliyyət zonasını və onların bu sahədə vəzifələrini müəyyənləşdirirdi: konsepsiyaya görə, Pakistan əfqan problemi, Özbəkistan isə tacik münaqişəsi üzərində nəzarəti təmin etməli və bu münaqişələrin böyüyərək genişlənməsinə yol verməməliydilər. Göründüyü kimi, regionda yaşanan gərgin və qeyri-stabil vəziyyət PİR diplomatiyasını çıxış nöqtəsi kimi bu konsepsiyalara ümid bağlamağa vadar etmişdi[9]. Lakin Özbəkistan və PİR-in səylərinə rəğmən hər iki münaqişənin daha da alovlanaraq genişlənməsi bu konsepsiyaların öz əhəmiyyətini itirməsi ilə nəticələndi.

1995-ci ilin noyabrında Lahor şəhərində (Pakistan) söylədiyi mühazirəsində Pakistan xarici işlər nazirinin müavini Sərdar Asif Əhməd Əli bəyan etmişdi ki, bu gündən etibarən Pakistanın xarici siyasətində prioritet yeri Mərkəzi Asiya ölkələri ilə əlaqələr qurmaq tutacaq. Bir maraqlı faktı da qeyd edək ki, 1994-98-ci illər arasında Pakistanın Mərkəzi Asiya respublikaları ilə ticarət dövriyyəsi 218 milyon dollar təşkil etmişdi ki, bunun da 120 milyon



dolları məhz Özbəkistanın payına düşürdü[10]. Bu da təsadüfi sayıla bilməz, belə ki, Mərkəzi Asiya respublikaları arasında öz iqtisadi inkişaf templərinə görə irəlidə məhz Özbəkistan gedir.

Pakistanın iqtisadi əməkdaşlıqda maraqlı olduğu digər Mərkəzi Asiya respublikası Qazaxıstandır. Son məlumatlara görə, Qazaxıstan dünyada neft ehtiyatlarının həcminə görə 17-ci yeri tutur[11]. Zəngin neft yataqları ilk növbədə ölkənin qərbində–Tengiz və şərqində–Şərqi Kaşaqanda yerləşir[12]. Sözsüz ki, ilk növbədə bu faktor Pakistan rəhbərliyinin qarşılıqlı münasibətlərin inkişafına daha diqqətlə yanaşmasını şərtləndirmişdir: 1993-cü ildə ticarət-iqtisadi, elmi-texniki və mədəniyyət sahəsində Hökumətlərarası komissiya yaradıldı. Komissiyanın yaradılmasından məqsəd adları çəkilən sahələrdə əməkdaşlığın yeni istiqamətlərinin işlənib hazırlanması və imzalanacaq müqavilə və razılaşmaların icrasına nəzarət etmək idi. 1993-2003-cü illər arasında komissiyanın aşağıdakı iclasları keçirilmişdir:

1993, yanvar - İslamabad. İclasın nəticəsi olaraq nəqliyyat sahəsində əməkdaşlığın prinsipləri haqqında Razılaşma və Protokol imzalanmışdı;

1994, aprel- Almatı;

1996, mart- İslamabad;

2001,17-19 iyul- Astana;

2003, 1-2 dekabr- İslamabad.

1992-ci ilin fevralında Qazaxıstan prezidenti N. Nazarbayev Pakistana ilk rəsmi səfərə gəlmişdi. Səfər zamanı Qazaxıstan Respublikası və Pakistan İslam Respublikası arasında qarşılıqlı münasibətlərin prinsipləri haqqında Bəyannamə imzalanmışdı.

1996-cı ilin sentyabrında isə Pakistan Milli Bankının Almatıda nümayəndəliyi fəaliyyətə başlamışdı.

Pakistan-Qazaxıstan əlaqələrinin genişləndirilməsi perspektivlərindən danışarkən Pakistan İcra Hakimiyyətinin başçısı Pərviz Müşərrəfin 2000-ci ilin 6-7 noyabrında bu ölkəyə səfərini xüsusi qeyd etmək lazımdır. İki günlük

səfər gedişində ölkələr arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi, regional təhlükəsizlik problemi, həmçinin Əfqanıstanda davam edən vətəndaş müharibəsi əsas müzakirə obyektləri olmuşdu. İkitərəfli danışıqlar zamanı P. Müşərrəf bəyan etmişdi ki, PİR-in Qazaxıstanla gələcək iqtisadi əlaqələri ilk növbədə yüngül sənaye sahəsində əməkdaşlıq, həmçinin Mərkəzi Asiya respublikalarında istehsal olunmuş malların Pakistan vasitəsilə dünya bazarına tranzitindən keçir. Prezident P.Müşərrəf həmçinin Pakistanın Qazaxıstana bir çox beynəlxalq layihələrin həyata keçirilməsində yardım edə biləcəyini də söyləmişdi. Səfər zamanı PİR diplomatiyasının böyük diqqət ayırdığı digər məsələ yuxarıda qeyd etdiyimiz kimi, əfqan problemi idi. Məsələ burasındadır ki, "Taliban" hərəkatının paytaxt Kabili və ölkə ərazisinin böyük hissəsini ələ keçirməsindən keçən 4 il ərzində (1996-2000) bu hərəkat nəinki beynəlxalq ictimaiyyət tərəfindən tanınmış, əksinə, taliblərə qarşı BMT-nin sanksiyaları tətbiq edilmiş və onlar beynəlxalq təcridə düşmüşdülər. Məhz buna görə PİR diplomatiyası hərəkatı düşdüyü siyasi-iqtisadi təcriddən qurtarmağa çalışırdı. Bunu həyata keçirməyin bir yolu da qonşu Mərkəzi Asiya respublikaları ilə Əfqanıstan arasında əlaqələrin yaradılmasına nail olmaq idi. Pakistan lideri P.Müşərrəfin qazax siyasətçiləri, ilk növbədə isə prezident N. Nazarbayev və baş nazir Kasımjomart Tokayevlə intensiv danışıqlarının əsasında Qazaxıstan tərəfindən "Taliban" hərəkatının tanınması və gələcəkdə onunla əlaqələrin qurulması dururdu. Pakistan diplomatiyası öz məqsədinə müəyyən dərəcədə nail ola bildi, belə ki, qazax prezidenti N. Nazarbayev Qazaxıstan rəhbərliyinin talibləri siyasi qüvvə kimi tanıdığını və onlarla danışıqlara başlamağa hazır olduğunu bildirmişdi. N.Nazarbayev həmçinin Əfqanıstanda koalisiyalı hökumətin qurulmasına tərəfdar olduqlarını da bildirmişdi. Qeyd edək ki, Qazaxıstan prezidentinin yuxarıda vurğuladığımız mövqeyi dünyada belə demək mümkünsə, maraqla qarşılanmışdı. Bu da onunla əlaqədar idi ki, N. Nazarbayev bundan əvvəlki görüş və bəyanatlarında talibləri islam radikalizmində, narkotik alveri və insan hüquqlarını pozmaqda ittiham edərək onlarla əlaqələrin qurulmasına qarşı çıxırdı. Qazax rəhbərliyinin 2000-ci ilin payızında bu məsələdə mövqe dəyişikliyinin izahını qazax eksperti E. Karin verməyə çalışır. Onun sözlərinə görə, bu, iki amillə bağlı idi: a) SSRİ-nin süqutundan sonra Qazaxıstan faktik olaraq Rusiya xarici siyasətinin ciddi təsiri altına düşmüşdü və beynəlxalq məsələlərə Qazaxıstan tərəfinin baxışı əksər hallarda Rusiya tərəfinin baxışı ilə eyniyyət təşkil edirdi. P.Müşərrəfin səfəri gedişində qazax diplomatiyasının Rusiyanın maraqlarına cavab verməyən bir qüvvəyə ("Taliban") münasibətdə mövqeyini yumşaltması qazax rəhbərliyinin ilk növbədə regional məsələlərlə bağlı müstəqil siyasət yeritmək istəyindən xəbər verirdi; b) Qazax diplomatiyası Əfqanıstanda yaranmış gerçəkliyi nəzərə almaq məcburiyyətində idi. Gerçəklik isə taliblərin ölkə ərazisinin 95%-ə nəzarət etməsi və Əfqanıstanda həqiqi gücə malik olması idi[13]. Bizcə, bu amillərə daha bir amili əlavə etmək olar. Bu da ondan ibarətdir ki, Əfqanıstan vasitəsilə PİR-ə, oradan isə zəngin Şərqi və Cənub-şərqi Asiya bazarına çıxmaq və qazax mallarının reallaşdırılmasına nail olmaq üçün Qazaxıstan Əfqanıstandakı rejimlə müəyyən əlaqələrin qurulmasında maraqlı ola bilərdi. Yeri gəlmişkən, digər Mərkəzi Asiya respublikası – Özbəkistan da "Taliban" hərəkatı ilə bağlı Qazaxıstanın mövqeyinə bənzər mövqe nümayiş etdirmişdi. Buna qədər talibləri narkobiznes və beynəlxalq terrorizmə himayədə ittiham edən Özbəkistan prezidenti İslam Kərimov 2000-ci ilin payızında çıxışlarından birində demişdi: "Əgər taliblər Əfqanıstanda vəziyyətə nəzarət edə bilsələr, onda Daşkənd taliblərlə dialoqa hazırdır. Bizim üçün kiminsə bu ölkədə təhlükəsizlik və stabilliyi təmin etməsi vacibdir. Biz "Taliban" hərəkatını xoşlamaya bilərik, amma bu elə bir qüvvədir ki, onunla hesablaşmamaq olmaz" deyən Özbəkistan prezidenti daha sonra vurğulamışdı: "Taliblər qalib gəlsələr belə əfqan hökumətində bütün milli və regional

qruplar təmsil olunmayacağı təqdirdə Əfqanıstanda sülhdən söhbət gedə bilməz". Qazaxıstan prezidenti ilə eyni zamanda özbək prezidentinin də talibləri tənqid siyasətindən dialoq siyasətinə keçməsi o zaman bunun kökünün nədə olması sualını doğurmuşdu. Bir sıra ekspertlər diqqəti bu fakta yönəldirdi ki, İ. Kərimovun bəyanatı taliblərin Əfqanıstanda bir-birinin ardınca uğur qazandığı və mövqelərini möhkəmləndirdiyi bir vaxta təsadüf edir. Yəni Kərimovun narahatlığı Əfqanıstandan sonra taliblərin Özbəkistana hücum edəcəyi təhlükəsi ilə bağlı idi. Ekspertlər digər səbəb də söyləyirdilər: xarici siyasətdə Moskvadan məsafə saxlamaq. Eyni zamanda bir qrup ekspert özbək prezidentinin bəyanatının arxasında bu faktorların durduğunu vurğulayırdı: a) Bildiyimiz kimi, Özbəkistan Əfqanıstanda vasitəçilik missiyası ilə çıxış edir və PİR-lə birlikdə "6+2" formulasının yaradıcılarından biridir. Ədalətli arbitr rolunu oynamağa çalışan Özbəkistan isə hər iki tərəfə münasibətdə ehtiyatlı siyasət yeritməyə və tərəflərin hər biri ilə normal münasibətlər saxlamağa vadardır; b) Özbəkistan da Qazaxıstan kimi bu ölkədə yaranmış siyasi reallığı – yəni taliblərin həlledici güc olduqlarını anlayır. Sözsüz ki, Özbəkistan Əfqanıstana daha yaxın mövqedə yerləşdiyindən (Türkmənistan taliblərlə isti münasibətlər qurduğundan bu ölkənin "Taliban" qorxusu yox dərəcəsində idi) taliblərin potensial müdaxilə təhlükəsi ilə üzləşə bilərdi[14]. Məhz bu təhlükənin aydın şəkildə dərk edilməsinin nəticəsi idi ki, 2000-ci il iyunun 10-da İƏT-nin Tehran sammiti gedişində İ. Kərimov P. Müşərrəflə görüşü zamanı onu "Taliban" ilə "Şimal Alyansı" arasındakı müharibənin dayandırılmasına yardım etməyə çağırmışdı.

Pakistan-Qazaxıstan iqtisadi əməkdaşlığına qayıdaraq bildirək ki, 2003-cü il dekabrın 1-2-də İslamabadda Hökumətlərarası komissiyanın növbəti iclası keçirilmişdi. İclasda Qazaxıstan tərəfini təhsil və elm naziri Jaksıbek Kulekeyev, Pakistan tərəfini isə maliyyə naziri Şaukət Əziz təmsil edirdi. Danışıqlar başa çatdıqdan sonra tərəflər arasında Protokol imzalanmışdı. Protokolda ticari-iqtisadi



və investisiya əlaqələrinin gələcək inkişafının zəruriliyi vurğulanır, kənd təsərrüfatı və nəqliyyat-komunikasiya sahəsində əməkdaşlıq məsələləri nəzərdən keçirilirdi. Sənəddə həmçinin elm, təhsil, mədəniyyət və turizm sahələrində işbirliyi perspektivlərinə də toxunulurdu. Xatırladaq ki, komissiyanın dekabr iclası Qazaxıstan prezidenti N.Nazarbayevin PİR-ə rəsmi səfəri ərəfəsində həyata keçirilmişdi. Qazaxıstan prezidentinin Pakistana 8-9 dekabr 2003-cü il səfəri zamanı müzakirə edilən əsas məsələlər beynəlxalq və regional problemlər barədə fikir mübadiləsi və iqtisadi əməkdaşlıq yolları olmuşdu. Qazax prezidenti Kəşmir probleminin diplomatik vasitələrlə çözülməsinin vacibliyini vurğulamışdı: "Problemin sülh yolu ilə nizamlanması hamının maraqlarına cavab verir, belə ki, bu, dünyanın adı çəkilən bölgəsində irimiqyaslı iqtisadi əməkdaşlığın formalaşmasına gətirib çıxaracaq" deyən N. Nazarbayev daha sonra əfqan məsələsinə toxunmuşdu: "Əfqanıstandakı stabillik isə Pakistanın Qazaxıstan və digər Mərkəzi Asiya respublikaları ilə əməkdaşlığının inkişafı üçün mühüm şərtdir". Kəşmir və əfqan problemlərinə münasibətdə həmkarını dəstəkləyən P. Müşərrəf öz növbəsində İraq məsələsinə yer ayırmışdı: "İraqın ərazi bütövlüyü və suverenliyi qorunmalı, iraqlılar öz təbii sərvətlərinə hüquqları özlərində saxlamalıdırlar" deyə vurğulayan PİR prezidenti əlavə etmişdi: "İraqın idarə edilməsi iraqlıların öz haqqıdır".

Səfər gedişində tərəflər arasında:

a) İnvestisiyaların təşviqi və qarşılıqlı müdafiəsi haqqında Razılaşma;

b) Bankların fəaliyyətinə nəzarət sahəsində əməkdaşlıq haqqında Razılaşma;

c) Abılay xan adına Qazax Beynəlxalq münasibətlər və dünya dilləri Universiteti ilə Pakistan Milli Müasir Dillər Universiteti arasında əməkdaşlıq haqqında Razılaşma imzalanmışdı[15].

Bir neçə kəlmə Pakistan-Tacikistan münasibətləri barədə söz açmaq istərdik:

Hələ 1991-ci ilin sonlarında Pakistan Tacikistana kənd təsərrüfatı və telekomunikasiya sahələrinin inkişaf etdirilməsində öz köməyini təklif etmişdi.

1992-ci ilin martında tərəflər arasında hidroenergetika sahəsində əməkdaşlıq niyyəti barədə Memorandum imzalanmışdı: sənədə əsasən Tacikistan Pakistana 1000 meqavat həcmində elektroenerji ixrac etməli, ilk 180 meqavat isə sənədin imzalandığı il – yəni 1992-ci ildə Pakistana çatdırılmalıydı.

1992-ci ilin iyulunda isə tərəflər qarşılıqlı komissiya yaratmaq qərarına gəlmişdilər. Komissiya Xoroq-Vakxan magistralının çəkilməsi məsələsini araşdırmalı idi. O zaman Pakistan Tacikistana 10 milyon dollar məbləğində kommersiya krediti də təqdim etmişdi. Lakin həmin ilin dekabrında Tacikistanda vətəndaş müharibəsinin alovlanması qarşılıqlı iqtisadi-siyasi əlaqələrin daha da genişlənməsi yolunda başlıca maneəyə çevrildi. Bu səbəbdən PİR-in hakim dairələri bölgədə Tacikistanın timsalında qeyri-stabillik ocağının çözülməsinə çalışırdılar. Onu da qeyd edək ki, Mərkəzi Asiya respublikaları arasında öz coğrafi mövqeyinə görə Pakistana ən yaxını məhz Tacikistandır, belə ki, bu iki ölkəni bir-birindən yalnız ensiz torpaq zolağı–Vakxan dəhlizi (Əfqanıstan) ayırır. Bu baxımdan Tacikistandakı vətəndaş müharibəsi ilə əfqan məsələsinin bu və ya digər dərəcədə bağlılığı da Pakistanı narahat etməyə bilməzdi. 1992-ci il dekabrın 24-də Pakistanın baş naziri Nəvaz Şərifin ölkəsinə səfərə gələn Tacikistanın xarici işlər naziri Talbak Nəzərovla görüşündə də əsas müzakirə obyektləri məhz sadalanan məsələlər olmuşdu. N.Şərif bildirmişdi ki, Əfqanıstanda sülh bölgənin iqtisadi inkişafı üçün həyati əhəmiyyətə malikdir. 1994-cü ildə BMT-nin tacik münaqişəsini nizamlamaq istiqamətində təşəbbüslə çıxış etməsi Pakistan diplomatiyası tərəfindən böyük ümid və dəstəklə qarşılanmışdı. Həmin ilin martında İ. Rəhmonovun Pakistana səfəri zamanı qərara alınmışdı ki, BMT-nin təşkil etdiyi tacikdaxili sülh danışıqlarının bir raundu PİR ərazisində keçirilsin. Bu qərara uyğun olaraq 1994-cü ilin oktyabrında sülh dialoqunun III raundu İslamabadda keçirilmiş və Pakistan tacik münaqişəsinin nizamlanması üzrə müşahidəçi statusu əldə etmişdi[16].

90-cı illərdən fərqli olaraq XXI əsrin ilk illəri ikitərəfli münasibətlərin daha çox aktivləşməsi ilə xarakterizə oluna bilər. Belə ki, son bir neçə il ərzində qarşılıqlı münasibətlərdə böyük əhəmiyyət kəsb edən üç mühüm səfər həyata keçirilmişdi: 2002-ci il iyunun ilk günləri PİR prezidenti P. Müşərrəf Tacikistanda rəsmi səfərdə olmuşdu. Səfərdən əsas məqsəd iqtisadi əməkdaşlığın genişləndirilməsi və Cənubi Asiya bölgəsində mövcud vəziyyəti müzakirə etmək, həmçinin əfqan probleminə dair fikir mübadiləsi aparmaq idi. Sözsüz ki, adları çəkilən məsələlər sırasında əhəmiyyətinə görə iqtisadi əməkdaşlıq perspektivləri ön yerdə dururdu. Bunu P. Müşərrəfin Tacikistan prezidenti ilə görüş zamanı dediyi sözlər də sübut edir. PİR prezidenti bildirmişdi ki, tacik-Pakistan münasibətlərinin möhkəmləndirilməsi üçün onların ticari-iqtisadi planda inkişafına nail olmaq lazımdır. Maraqlı bir fakt: Tacikistan mütləq hidroenerji resurslarının həcminə görə dünyada 8-ci yeri tutur (ilə 300 milyard kVt/s hidroenerji). Məhz bu baxımdan hələ 90-cı illərin əvvəllərindən Pakistan tərəfi Tacikistandakı Roqun SES-ə böyük maraq göstərirdi (xatırladaq ki, bu SES-in tikintisi hələ SSRİ zamanında – 1980-ci illərin sonunda başlamış, amma başa çatdırılmamışdır[17]), lakin Tacikistanda vətəndaş müharibəsinin başlanması energetika sahəsində əməkdaşlığın dərinləşdirilməsinin qarşısını almış oldu. P. Müşərrəfin iyun səfəri gedişində qərara alındı ki, Roqun SES-in tikintisinin başa çatdırılması ilə bağlı həyata keçiriləcək layihədə PİR-in də iştirakı nəzərdə tutulsun. Görüş zamanı həmçinin Tacikistandan Pakistana Əfqanıstandan keçməklə 1700 km uzunluğunda avtomobil yolunun çəkilişi də müzakirə edilmişdi. Səfər gedişində müzakirə olunan digər məsələ hind-Pakistan münasibətləri idi. İyunun 2-də PİR və Tacikistan prezidentlərinin təkbətək görüşü zamanı Tacikistan

prezidenti İmaməli Rəhmonov Pakistan-Hindistan sülh danışıqları prosesinin bərpası üçün vasitəçilik etməyə hazır olduğunu bildirmişdi: "Tacikistan Kəşmir münaqişəsinin sülh yolu ilə nizamlanmasında maraqlıdır" deyə İ. Rəhmonov vurğulamışdı. Əfqan probleminə toxunan tacik prezidenti bəyan etmişdi ki, tərəflər arasında bu məsələdə mövqe birliyi vardır: Tacikistan da bu problemin Bonn razılaşmaları, həmçinin milli zəmində koalisiyalı hökumətin yaradılması əsasında həllinə tərəfdardır. Görüş zamanı müzakirə edilən digər məsələ Pakistanda məskunlaşmış tacik qaçqınlarının vətənlərinə qaytarılması idi. 1992-1997-ci illərdə – Tacikistanda vətəndaş qarşıdurmasının getdiyi bir vaxtda 1500 tacik Pakistan və Səudiyyə Ərəbistanına pənah aparmışdı. Tacikistan rəhbərliyini bu zaman narahat edən əsas məsələ tacik qaçqınlarının övladlarının Pakistan mədrəsələrində dini təhsil almaları (xatırladaq ki, "Taliban" hərəkatı da bir vaxtlar məhz mədrəsə tələbələrindən təşkil olunmuşdu) və onlar arasında islam radikalizminə meyllərin güclənə bilməsi ehtimalı idi. P. Müşərrəfin səfəri əsnasında tərəflər qaçqınların öz vətənlərinə qayıtması ilə bağlı razılığa gəldilər. Artıq 2002-ci ilin avqustu üçün 483 tacik qaçqını Pakistandan doğma yurdlarına qayıtmışdı[18].

Qarşılıqlı münasibətlərdə ikinci əlamətdar hadisə 2004-cü ilin mayında İslamabadda Pakistan-Tacikistan İqtisadi Komissiyasının iclasının keçirilməsi idi. İclasda Pakistan tərəfini maliyyə naziri Şaukət Əziz, tacik tərəfini isə ticarət və iqtisadiyyat naziri Hakim Soliyev təmsil edirdi. Görüş zamanı pakistanlı nazir Tacikistandan 2 milyard kilovat-saat elektroenerji idxal etmək niyyətində olduqlarını açıqlamışdı. Ümumiyyətlə isə qarşılıqlı iqtisadi-ticari münasibətlərin səviyyəsindən danışarkən vurğulamaq lazımdır ki, bu münasibətlər hələ ki aşağı səviyyədədir. Məsələn, 2002-ci ilin ilk 4 ayı üçün ikitərəfli mal dövriyyəsi cəmi 87.000 ABŞ dolları təşkil etmişdi. Qarşılıqlı iqtisadi münasibətlərin bu cür zəif səviyyədə olması bir sıra səbəblərlə bağlıdır: əvvəla, hər iki ölkənin (xüsusilə Tacikistanın) iqtisadi inkişaf baxımdan geridə qalması, uzun müddət Əfqanıstanda (eləcə də Tacikistanda) vətəndaş müharibəsinin getməsi və ən əsası, bölgədə Rusiyanın güclü iqtisadi-siyasi və hərbi təsirə malik olması.



2004-cü il mayın ortalarında Tacikistan prezidenti İ. Rəhmonov Pakistana üç günlük rəsmi səfərə gəlmişdi. Tacik nümayəndə heyəti xarici işlər naziri Talbak Nəzərov, iqtisadiyyat və ticarət naziri Hakim Soliyev, ədliyyə naziri Xəlifəbobo Həmidov, maliyyə naziri Səfərəli Nəcmuddinov və digər rəsmi şəxsləri əhatə edirdi. Səfər gedişində Pakistan prezidenti P. Müşərrəf və maliyyə naziri Ş. Əzizlə görüşən tacik prezidenti PİR rəsmiləri ilə iki ölkə arasında iqtisadi-ticari əməkdaşlığın inkişaf etdirilməsi, terrorizm və narkobizneslə birgə mübarizə, hidroenergetika sahəsində əməkdaşlıq və Roqun SES-in tikintisi məsələsini müzakirə etmişdi[19].

Mərkəzi Asiya bölgəsinin digər respublikası – Qırğızıstan da PİR diplomatiyasının planlarında əhəmiyyətli yer tutur. Pakistan üçün Qırğızıstan iki baxımdan vacibdir:

a) Hidroenerji potensialının mövcudluğu;

b) Qırğızıstanın geostrateji mövqeyi baxımdan. Bu ölkənin Mərkəzi Asiya respublikaları və Pakistanın yaxın tərəfdaşı Çin ilə əlaqələrini təmin edən yerüstü kommunikasiya şəbəkəsi mövcuddur[20].

Müstəqilliyini 1991-ci il avqustun 31-də elan etmiş Qırğızıstanın müstəqilliyini ilkin tanıyan dövlətlərdən biri Pakistan olmuşdu. İki ölkə arasında diplomatik əlaqələr isə 1991-ci il dekabrın 20-də qurulmuşdu. Elə həmin ay Pakistan Qırğızıstana 10 milyon dollar məbləğində kredit ayırmışdı. 1994-cü ildə tərəflər arasında əməkdaşlığın istiqamət və prinsipləri haqqında Birgə Bəyannamə imzalanmışdı. Tərəflər arasında qarşılıqlı səfərlər müntəzəm xarakter almağa başlamışdı. Məsələn, 1994-cü ilin dekabrı (bu səfər zamanı tərəflər arasında Münasibətlərin əsası haqqında Bəyannamə, həmçinin ticarət, iqtisadiyyat, beynəlxalq dəmir yolu kommunikasiyası, turizm və Hökumətlərarası komissiyanın yaradılması barədə saziş-

lər imzalanmışdı) və 1995-ci ilin martında Qırğızıstan prezidenti Əsgər Akayevin, 1997-ci ilin martında baş nazir Apas Cumaqulovun, 1998-ci ilin aprelində isə xarici işlər naziri Muratbek İmanaliyevin Pakistana səfərləri, 1995-ci ilin avqustunda Pakistanın baş naziri B. Bhutto-nun "Manas"ın 1000 illiyi münasibətilə Qırğızıstana səfəri həyata keçirilmişdi. 1996-cı ilin oktyabrında PİR prezidenti Faruq Əhməd Xan Leqarinin Qırğızıstan səfəri zamanı qarşılıqlı siyasi, iqtisadi və mədəni əməkdaşlıq yolları müzakirə obyekti olmuş, həmçinin Pakistan Milli Bankının Bişkekdə filialının açılması məsələsinə toxunulmuşdu (PMB-nın filialı artıq 2000-ci il iyunun 1-dən Bişkekdə fəaliyyət göstərir). 1999-cu il may ayının 10-da PİR səfirliyinin patronajlığı altında Bişkekdə Pakistan Səfirlik Klubu açılmışdı[21]. Klubun yaradılmasından məqsəd iki ölkə arasında ictimai fəaliyyətin inkişaf etdirilməsi, dostluq əlaqələrinin genişləndirilməsi və ictimai-mədəni tədbirlərin təşkil edilməsi idi. Bütün bunlardan gördüyümüz kimi, Pakistanla Qırğızıstan arasında əlaqələr çoxşaxəli olub siyasi əlaqələrin yaradılmasından tutmuş mədəni əlaqələrin inkişafına qədər geniş bir sferanı əhatə edir.

2003-cü il avqustun 26-da İslamabadda Pakistan-Qırğızıstan Nazirlər Komissiyasının toplantısı keçirilmişdi. Nümayəndə heyətinin tərkibinə daxil olan qırğız nazirlər pakistanlı həmkarları ilə ticarət, kənd təsərrüfatı, energetika sahəsi, telekomunikasiya sferasına dair bir çox məsələləri müzakirə etmişdilər. Məsələn, Qırğızıstanın səhiyyə naziri M. Mamıtov Pakistan maliyyə naziri Ş. Əzizlə görüşündə ticari-iqtisadi əməkdaşlığın genişləndirilməsi və inkişafı, Qırğızıstan xarici işlər naziri J. Kulubayev PİR-in xarici işlər üzrə katibi Riyaz Kokar ilə siyasi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, Qırğızıstan kənd və su təsərrüfatı və emaledici sənaye nazirinin müavini B. Baytemirov PİR-in kənd təsərrüfatı naziri Sərdar Yar Məhəmməd Rind ilə kənd təsərrüfatı məhsullarının emalı üzrə birgə müəssisələrin yaradılması və kənd təsərrüfatı



sahəsində qabaqcıl texnologiyaların mübadiləsi üzrə danışıqlar aparmışdılar[22].

Pakistanın yeni xarici siyasət istiqamətində üzləşdiyi maneələrdən biri də stabil kommunikasiya xətlərinin olmamasıdır. Düzdür, 1996-cı ildə Təcən-Sərəxs-Məşhəd dəmir yol xətti işə düşmüşdü. Lakin unutmaq lazım deyil ki, bu marşrut Pakistanı qane etmir (bu marşrut Mərkəzi Asiya respublikalarının İran vasitəsilə Fars körfəzinə çıxması üçün nəzərdə tutulub) və PİR Əfqanıstandan keçməklə yeni kommunikasiya xəttinin işə düşməsində maraqlıdır. Mərkəzi Asiya respublikaları ilə PİR arasında stabil kommunikasiya sisteminin işə salınması və ticarət əlaqələrinin gücləndirilməsi məqsədilə 1995-ci ilin martında 4 ölkə–Pakistan, Çin, Qazaxıstan və Qırğızıstan yeni avtomobil arteriyasının yaradılması barədə razılığa gəldilər. Yeni marşrutun Qaraqorum şosesini əhatə etməsi nəzərdə tutulmuşdu (şosenin uzunluğu 1900 km-ə çatırdı). Layihəyə əsasən Mərkəzi Asiya respublikaları Almatı və Bişkek avtomobil xətti vasitəsilə Qaraqorum şosesinə çıxırdı. Daha sonra marşrut Çini Pakistanla birləşdirən Xuncerab aşırımı vasitəsilə davam etdirilirdi. Marşrut istiqamətində əsas məntəqələr də müəyyənləşdirilmişdi: bunlar Almatı, Bişkek, Narın, Toruqart, Kaşqar, Xuncerab, İslamabad və Kəraçi idi. Layihənin reallaşdırılmasını tezləşdirmək məqsədilə Pakistan Kəraçi limanının modernləşdirilməsinə və Qaraqorum şosesinin onun ərazisindən keçən hissəsində rekonstruksiya işlərinə başladı. Qeyd edək ki, layihədə təkcə adları yuxarıda çəkilən dövlətlər maraqlı deyildi. Tacikistan da Murqab-Kulma aşırımı vasitəsilə Qaraqorum şosesinə çıxmaq istəyini bəyan etmişdi. Lakin tezliklə layihənin reallaşdırılması yolunda bir sıra maneələrin mövcudluğu bəlli oldu. Bu maneələrdən ən mühümü Pakistan-Hindistan münasibətlərində gərginliklə bağlı idi. Belə ki, Qaraqorum şosesinin bir hissəsi Pakistan Kəşmirindən keçirdi ki, cəbhə xətti statusunda olan bu ərazidə daim gərginlik hökm sürür[23]. Digər səbəblər sırasında ilk növbədə qonşu İran və Rusiyanın bu layihənin gerçək-

ləşməsində maraqlı olmamasını göstərmək olar: hər iki dövlətin, xüsusilə Rusiyanın Mərkəzi Asiya respublikalarında çox ciddi maraqları və dayaqları mövcuddur. Layihənin reallaşacağı təqdirdə isə hər iki dövlətin bölgədə nüfuzu və dayaqları zəifləyəcək, bunun müqabilində Pakistan və Çinin rolu artacaqdır.

Pakistan-Türkmənistan münasibətlərinə qayıdaraq bildirək ki, tərəflərin maraqları təkcə iqtisadi layihələrin reallaşdırılmasında üst-üstə düşmürdü. 1996-cı il oktyabrın 7-də Aşqabadda Pakistan baş nazirinin xüsusi nümayəndəsi İqlal Heydər Zaidi Türkmənistan prezidenti S. Niyazov ilə görüşmüşdü. Bu görüş zamanı əsas müzakirə obyekti Əfqanıstanda mövcud siyasi durum olmuşdu. Tərəflər Əfqanıstan ilə bağlı maraqlarının eyniliyini nümayiş etdirmişdilər.

Bu o zaman idi ki, taliblər Kabili ələ keçirmiş və Pakistanla diplomatik əlaqələr qurmuşdular. Türkmən qazı Əfqanıstandan keçməklə Pakistana ixrac olunmalı idi, buna görə Türkmənistan taliblərlə əlaqələrin qurulmasında maraqlı idi.

1997-ci ilin oktyabrında Pakistanın baş naziri N.Şərif Aşqabadda S.Niyazovla görüşmüşdü. Görüşdə əfqan probleminin nizamlanması sahəsində Türkmənistanın vasitəçilik missiyasının təşkili məsələsi müzakirə edilmişdi.

1999-cu il 29 aprel tarixində İslamabadda Pakistan, Türkmənistan və Əfqanıstan nümayəndə heyətləri danışıqlar stolu arxasına əyləşdi. Pakistanı neft və təbii resurslar naziri Nisar Əli Xan, Türkmənistanı vitse-nazir Batır Sarcayev, neft-qaz və mineral resurslar naziri Rəcəbbay Arazov, Əfqanıstanı taliblərin sənaye və təbii resurslar naziri Alhac Mauləvi Əhmədcan təmsil edirdi. Tərəflərin qəbul etdiyi Birgə Bəyannamədə qaz kəmərinin çəkilişi layihəsinin hazırlanması və həyata keçməsində iştirak etmək arzusu bildirilirdi. Eyni zamanda qərara alındı ki, hər üç aydan bir hökumətlər səviyyəsində danışıqlar keçirilsin və birgə işçi qrupu yaradılsın. Elə həmin səfər gedişində Türkmənistanın vitse-naziri Batır Sarcayev Pakistanın xarici işlər naziri Əbdül Səttarla görüşmüşdü. Görüş zamanı müzakirə edilən əsas məsələlər qaz kəmərinin, həmçinin avtobus və dəmir yolu xəttinin çəkilişinin sürətləndirilməsi olmuşdu. Türkmənistanın vitse-naziri olmaqla yanaşı bu ölkənin müdafiə naziri vəzifəsini də tutan B.Sarcayev İslamabad səfəri zamanı Pakistan Hərbi Hava Qüvvələrinin marşalı Kureyşi ilə görüşmüşdü. Görüşdə hərbi əməkdaşlığın bəzi aspektləri müzakirə edilmişdi.

2000-ci ilin mayında Pakistan İcra Hakimiyyətinin başçısı P. Müşərrəfin Türkmənistana səfəri zamanı da əsas müzakirə obyekti qaz kəməri və avtomobil yolunun çəkilişi, həmçinin əfqan probleminin nizamlanması məsələsi olmuşdu. Onu da bildirək ki, Pakistan diplomatiyasının əfqan probleminin nizamlanması ilə bağlı yeni həll variantı da ilk dəfə olaraq məhz Aşqabadda səsləndirilmiş və S. Niyazovun dəstəyini qazanmışdı. Yeni plan Rusiya və İranın təklif etdiyi “Şimal Alyansı”nın hərbi-texniki və siyasi baxımdan gücləndirilməsinə əks mövqedən çıxış edirdi. Plana əsasən qarşıduran tərəflər aktiv surətdə koalisiyalı hökumət yaradılması prosesinə cəlb edilməli, habelə qaz-neft kəməri və avtomobil yolunun çəkilişini nəzərdə tutan layihələrin həyata keçirilməsinə başlanılmalıydı. Lakin bu plan da Əfqanıstanda qarşıduran tərəflərin radikal mövqeyi ucbatından iflasa uğramış oldu. Qeyd edək ki, TƏK-in çəkilişinin 1998-ci ilin əvvəllərində başlanması nəzərdə tutulurdu. Lakin Əfqanıstanda siyasi vəziyyətin birdən-birə mürəkkəbləşməsi – “Taliban” ilə “Şimal Alyansı“ arasında mübarizənin daha da qızışması bu planın gerçəkləşməsinə mane oldu. Üstəlik bu amil tikintidə iştirak edəcək ABŞ kompaniyası – UNOCAL-ın layihəni tərk etməsinə səbəb oldu. TƏK ideyasının yeni dirçəlişi 2001-ci il 11 sentyabr hadisələrindən sonraya təsadüf edir: 2002-ci il mayın 30-da İslamabadda Pakistan, Türkmənistan və Əfqanıstan liderləri arasında Transəfqan kəməri haqqında Hökumətlərarası Razılaşma imzalandı. Bu razılaşmaya əsasən TƏK-in Dövlətabad-Qəndəhar-Qvadar (Ərəb dənizi sahillərində Pakistan limanı) marşrutu üzrə çəkilməsi

qərara alındı. Uzunluğu 1500 km olacaq (830 km Əfqanıstan, 500 km Pakistan ərazisi ilə) bu kəmərin dəyəri 2 milyard dollara yaxındır və ilə 15 milyard $m^3$ qaz ixrac ediləcəyi gözlənilir[24].

Elə həmin il dekabrın 26-27-də Aşqabadda yenidən üç ölkə liderləri arasında görüş keçirilmişdi. Görüş zamanı Hökumətlərarası Çərçivə sazişi imzalanmışdı. Saziş layihənin normativ-hüquqi bazasının işlənib-hazırlanması və Konsorsiumun yaradılmasında Aşqabad Razılaşmasının əsas kimi götürüldüyünü təsdiq edirdi. Yaradılacaq konsorsiumun üzərinə kəmərin çəkilişi və idarə olunması kimi vacib məsələlər qoyulurdu. Sənəddə həmçinin nəqliyyat tarifi və verginin müəyyənləşdirilməsi prinsipləri, torpaq ayrılması, texniki, maliyyə və təşkilati aspektlərin nizamlanması məsələləri də öz əksini tapmışdı. Sənədin ən mühüm bəndi isə gələcək konsorsiuma türkmən qazının eksklüziv nəqlinə icazə verilməsi idi. Razılaşmada təhlükəsizlik məsələsi də yaddan çıxmamışdı. Məsələn, əfqan tərəfi minaların, tələlərin və partladıcı qurğuların zərərsizləşdirilməsi missiyasını öz üzərinə götürürdü.

TƏK ideyasının gerçəkləşməsindən söz açarkən bu layihənin tərəflər üçün nə kimi əhəmiyyət daşıdığını da qeyd etmək zəruridir. Öncə kəmərin işə düşəcəyi təqdirdə Pakistanın əldə edəcəyi qazancı nəzərdən keçirək:

– Əvvəla, TƏK-in həyata keçiriləcəyi təqdirdə Pakistan üçün ağrılı məsələ olan enerji faktorundan asılılıq aradan qalxmış olacaqdır;

– Ölkənin iqtisadi və siyasi konsolidasiyası yolunda ciddi addım atılmış olacaqdır;

– Pakistanın Şərqi və Cənubi Asiya ölkələri ilə ticari-iqtisadi əlaqələri daha da genişlənəcəkdir;

– İdeyanın reallaşacağı təqdirdə Pakistan regionun ən iri neft-qaz tranziti mərkəzlərindən birinə çevrilmiş olacaqdır ki, bu da bölgə və qlobal miqyasda onun nüfuzunun artmasına səbəb olacaqdır;

– Bir çox ekspertlər bu ideyanın reallaşacağı təqdirdə Pakistan-Hindistan münasibətlərində də nəzərəçarpacaq



tərəqqinin olacağını və regional iqtisadi əməkdaşlığın daha da genişlənəcəyini proqnozlaşdırırlar.

TƏK-in işə düşəcəyi təqdirdə Türkmənistanın həll edəcəyi problemləri isə bu cür sıralamaq olar:

Hal-hazırda türkmən qazı üç MDB ölkəsi – Özbəkistan, Qazaxıstan və Rusiya vasitəsilə Avropa bazarlarına ixrac olunur. Bu qaz kəmərinin başlıca qüsuru onun texniki baxımdan yeni standartlara cavab verə bilməməsidir ki, bu da nəticə etibarilə kəmərin fəaliyyətinə mənfi təsir göstərmiş olur: nəzərdə tutulan 90-100 milyard kub metr qaz ixracı əvəzinə Türkmənistan cəmi 65-70 milyard civarında qaz ixrac edə bilir;

MDB ölkələri idxal etdikləri türkmən qazının əvəzini "əlli-əlliyə" prinsipi ilə ödəyirlər: yəni 50% maliyyə vəsaiti, 50% malla. Bu da türkmən tərəfini tam şəkildə qane edə bilməz;

Rusiya tərəfi idxal etdiyi türkmən qazının hər min kub metrinin əvəzində 45-46 dollar ödəyir, lakin bu qaz Avropaya ixrac ediləndə hər min kub metr qazın qiyməti Rusiya tərəfindən 120 dollarla müəyyənləşdirilir;

Türkmənistan TƏK layihəsini seçməklə Rusiyanın iqtisadi asılılığından qurtarmaq ümidindədir.

Layihənin digər iştirakçısı – Əfqanıstan üçün də TƏK-in reallaşması konkret mənfəət vəd edir:

Ekspertlərin fikrincə, on illərin ağır müharibəsindən iqtisadiyyatı tam dağılmış halda çıxan Əfqanıstan bu kəmərin işə düşəcəyi təqdirdə 300 milyon dollar illik gəlir, 12 min yeni iş yeri və ucuz yanacaq əldə etmiş olacaqdır[25].

Bütün bu müsbət məqamlarla yanaşı Transəfqan kəməri ideyasından danışarkən ideyanın gerçəkləşdirilməsi yolunda mövcud maneələrə də toxunmaq zəruridir. Beynəlxalq ekspertlər bu maneələri aşağıdakı kimi qruplaşdırırlar:

a) Qaz kəmərinin gələcək marşrutu bir sıra qeyri-stabil ərazilərdən, ilk növbədə isə Əfqanıstandan keçir;

b) Qaz kəmərinin marşrutu boyunca ictimai-siyasi vəziyyət gərgin olaraq qalır;

c) İstər Pakistanın, istərsə də Türkmənistan və Əfqanıstanın kifayət qədər maliyyə resursları yoxdur. Məsələn, 2000-ci ildə Avropa Yenidənqurma və İnkişaf Bankı və Beynəlxalq Valyuta Fondu Türkmənistana maliyyə resursları ayırmaqdan imtina etmişdilər;

ç) Pakistan ilə Hindistan arasında permanent gərginlik mövcuddur[26];

Bütün bu sadalananları analiz edib ümumiləşdirsək, belə nəticəyə gələrik ki, TƏK-in çəkilişi layihənin hər üç iştirakçısının maraqlarına cavab versə də bu ideyanın yaxın perspektivdə reallaşacağını tam əminliklə söyləmək olmaz. Bunun da başlıca səbəbləri yuxarıda qeyd olunan amillərlə – Əfqanıstanda tam stabilliyin hələ də bərqərar olmaması, İran və Rusiya kimi nüfuzlu dövlətlərin bu kəmərin reallaşmasında maraqlı olmaması, maliyyə resurslarının çatışmazlığı ilə bağlıdır.

## § 2. Pakistan-Azərbaycan münasibətləri: mövcud vəziyyət və inkişaf perspektivləri

SSRİ-nin süqutundan sonra formalaşmaqda olan yeni dünya nizamında Pakistanın sıx əməkdaşlıq etdiyi ölkələrdən biri də Azərbaycan Respublikasıdır. Hər iki dövlətin əlverişli geostrateji mövqedə yerləşməsi, gələcəkdə reallaşdırılması nəzərdə tutulan iqtisadi layihələrin mərkəzində mövqe tutması, hər iki respublikanın islam dünyasının tərkib hissəsi olması və ən nəhayət, qonşu dövlətlərlə hərbi münaqişə vəziyyətinin mövcudluğu kimi amillər ölkələrimiz arasında yaxınlaşmanı və müttəfiqliyi şərtləndirmişdir.

Pakistan-Azərbaycan münasibətlərindən söz açarkən qeyd etmək zəruridir ki, bu münasibətlər inkişaf baxımdan iki dövrə bölünür:



– 1991-ci ilin sonlarından 1993-cü ilin ortalarına qədər. Bu mərhələ dövlətlərimiz arasında diplomatik münasibətlərin qurulması, həmçinin ilk səfərlərlə xarakterizə oluna bilər. Dövlət müstəqilliyimiz qazanıldıqdan təxminən bir ay sonra – 1991-ci ilin noyabrında Azərbaycan nümayəndə heyəti Pakistana səfər etmişdi. Səfər gedişində Pakistan prezidenti Qulam İshaq Xan, baş nazir Nəvaz Şərif, xarici işlər naziri və parlamentin spikeri ilə görüşlər keçirən nümayəndə heyətimiz qarşıya qoyulmuş əsas məqsədlərindən birinə – müstəqilliyimizin islam dünyasının bu nüfuzlu ölkəsi tərəfindən tanınmasına nail olmuşdu[27]. Xatırladaq ki, Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ikinci dövlət olub: 1991-ci il 12 dekabr. Elə həmin ay Pakistanın nümayəndə heyəti Azərbaycana səfər edərək ölkəmizin İqtisadi Əməkdaşlıq Təşkilatına daxil olması məsələsini müzakirə etmişdi (Pakistanın da yaxından təşəbbüsü ilə respublikamız 1992-ci ildə bu quruma üzv oldu. Hal-hazırda qurum 370 milyon əhalini və 7.8 milyon kv.km. ərazini əhatə edən 10 ölkəni özündə birləşdirir[28]). İki ölkə arasında diplomatik əlaqələr isə 1992-ci il iyunun 9-da quruldu. Buna müvafiq olaraq 1993-cü ilin martında Pakistanın ölkəmizdə səfirliyi açıldı. Maraqlı bir faktı vurğulamağı lazım bilirik ki, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsinə dair qəbul etdiyi birinci – 822 saylı qətnamə 1993-cü ilin aprelində məhz Pakistanın sədrliyi altında qəbul edilmişdi ki, bu da PİR-in ölkəmizə diplomatik dəstəyinin bariz göstəricisi kimi qəbul oluna bilər[29].

– 1993-cü ilin ortalarından bu günümüzə qədər. Bu dövr isə artıq siyasi-iqtisadi və mədəni sahələrdə əlaqələrin genişləndirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsi və qarşılıqlı səfərlərin müntəzəm xarakter alması dövrü kimi qiymətləndirilə bilər.

Aşağıda son onillikdə tərəflər arasında həyata keçirilmiş səfərlərə ümumi nəzər yetirməyə çalışacağıq:

1994-cü il yanvarın 24-də Pakistanın xarici işlər naziri Sərdar Asif Əhməd Əlinin Azərbaycana 3 günlük səfəri

gedişində tərəflər arasında Məsləhətləşmələr Protokolu imzalanmışdı.

1995-ci ilin fevralında Pakistanın maliyyə naziri Məhdum Şəhabuddin baş nazir N.Şərifin xüsusi nümayəndəsi qismində respublikamıza səfərə gəlmişdi. Səfərdən əsas məqsəd İqtisadi Əməkdaşlıq Təşkilatının nəzərdə tutulan konfransı və Azərbaycan Respublikasının bu konfransda iştirakı məsələsini müzakirə etmək idi.

1995-ci il martın 14-15-də isə Azərbaycanın xarici işlər naziri Həsən Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Pakistana səfər etmişdi. Səfər İslamabadda keçirilən İƏT-in sammiti ilə əlaqədar idi[30].

1995-ci il oktyabrın 9-10-da Pakistan prezidenti Faruq Əhməd xan Leqari Azərbaycana rəsmi səfərə gəlmişdi. Səfər zamanı aşağıdakı saziş və protokollar imzalanmışdı:

– Dövlət səviyyəsində Birgə Komissiyanın yaradılması haqqında Protokol;
– Əməkdaşlıq haqqında Müqavilə;
– Ticarət və İqtisadi əməkdaşlıq üzrə Razılaşma;
– Elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq haqqında Razılaşma;
– İnvestisiyaların müdafiəsi və qarşılıqlı dəstək haqqında Razılaşma.

1996-cı il aprelin 9-11-də cavab səfəri ilə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Pakistanda olmuşdu. Səfər zamanı bir sıra mühüm sənədlər imzalanmışdı:

– Elm və texniki əməkdaşlıq haqqında Razılaşma;
– Konsul Konvensiyası;
– Konsul məsələləri barəsində Razılaşma;
– Azərbaycan Milli Bankı ilə Pakistan Dövlət Bankı arasında qarşılıqlı anlaşma haqqında Razılaşma;
– Turizmin inkişafı üzrə Anlaşma Memorandumu[31].

Səfər gedişində – aprelin 10-da H. Əliyev Pakistanın baş naziri Bennəzir Bhutto ilə görüşmüşdü. Tərəflər İkitərəfli Münasibətlərin İnkişafı barədə Birgə Bəyanat imzalamışdılar. Görüş zamanı Kəşmir probleminə toxunan Azərbaycan prezidenti bu problemin BMT TŞ-nın qətnamələri əsasında həll olunmasının vacibliyini vurğulamışdı. Səfər zamanı Azərbaycan nümayəndə heyətinin əldə etdiyi nailiyyətlərdən biri də Pakistan hökumətinin Azərbaycan qaçqınlarına 1 milyon dollar həcmində maddi yardım göstərəcəyi və ATƏT-in himayəsi altında Dağlıq Qarabağa öz sülhməramlı qüvvələrini göndərməyə hazır olduğunu bəyan etməsi idi.

Məhz sonuncu iki səfər iqtisadi-siyasi və digər sahələrdə Pakistan ilə Azərbaycan arasında möhkəm əməkdaşlığın təməlini qoymuş oldu[32].

H. Əliyevin səfərinin nəticəsi olaraq 1997-ci il avqustun 24-də Azərbaycan Respublikasının Pakistanda səfirliyi açıldı (hal-hazırda ölkəmizin Pakistanda fövqəladə və səlahiyyətli səfiri diplomat Eynulla Mədətlidir).

1997-ci il iyulun 16-17-də Pakistanın xarici işlər naziri Göhər Əyyub xan Mərkəzi Asiya respublikaları və Cənubi Qafqaza turnesi gedişində Azərbaycan Respublikasında olmuş və bir sıra görüşlər keçirmişdi. Görüşlər zamanı müzakirə edilən əsas məsələlər Dağlıq Qarabağ problemi və Pakistanın mövqeyi, siyasi və iqtisadi münasibətlərin inkişaf yolları olmuşdu[33].

Pakistan və Azərbaycan hərbi xadimləri arasında qarşılıqlı səfərlər də geniş yayılmışdır.

2001-ci il mayın 23-25-i arası PİR-də səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri Səfər Əbiyev Pakistan İcra Hakimiyyətinin başçısı Pərviz Müşərrəf, müdafiə katibi Həmid Nəvaz xan, neft və təbii ehtiyatlar naziri Usman Əminuddin və daxili işlər naziri Mouniddin Heydərlə görüşlər keçirmişdi. Səfərin nəticəsi olaraq Birgə Bəyanat imzalanmışdı. Səfər gedişində bir sıra Pakistan hərbi müəssisələrini ziyarət edən Azərbaycan Respublikasının müdafiə naziri ilə Pakistan xarici işlər naziri Əbdül Səttar arasında hərbi-texniki əməkdaşlığın genişləndirilməsi barədə müqavilə imzalanmışdı. Müqavilədə hərbi nümayəndəliklərin, müdafiə xarakterli texnologiya-

ların mübadiləsi, həmçinin hərbi hazırlıq üzrə təlimlərin keçirilməsi nəzərdə tutulurdu[34].

Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlığın bariz nümunələrindən biri də Pakistanın müdafiə katibi Həmid Nəvaz xanın ölkəmizə 2002-ci ilin aprel ayında rəsmi səfəridir: 2002-ci il aprel ayının 15-17-i tarixində PİR-in müdafiə katibi H.Nəvaz xanın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfərə gəlmişdi. Müdafiə naziri Səfər Əbiyevlə keçirilən görüşdə regional təhlükəsizlik, terrorizm və separatizmlə mübarizə, ikitərəfli hərbi əməkdaşlıq və hərbi kadrların hazırlanması məsələləri müzakirə olunmuşdu. Görüşün yekunu olaraq Birgə Protokol imzalanmışdı. Sənəd beynəlxalq terrorizmin qarşısının alınması, iki ölkənin suverenliyi və ərazi bütövlüyünün qorunması məqsədilə hərbi sahədə əməkdaşlığı özündə ehtiva edirdi. Sənəd həmçinin əməkdaşlığın inkişaf etdirilməsi üçün işçi qrupun yaradılmasını nəzərdə tuturdu. Eyni zamanda azərbaycanlı zabitlərin təhsil almaq məqsədilə Pakistanın hərbi tədris müəssisələrinə göndərilməsi də ikitərəfli görüş zamanı əsas müzakirə obyektlərindən biri olmuşdu. Xatırladaq ki, 2002-ci il üçün 5 azərbaycanlı zabit bu ölkədə hərbi təhsil alırdı, üstəlik o zaman daha 19 nəfərin Pakistana hərbi təhsilə göndəriləcəyi nəzərdə tutulmuşdu. Aprelin 16-da Həmid Nəvaz Xan Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ilə görüşmüşdü. Görüş zamanı hərbi əməkdaşlığın genişləndirilməsi məsələsi ilə yanaşı qarşılıqlı maraq kəsb edən bir sıra digər məsələlər də müzakirə edilmişdi. Məsələn, pakistanlı nazir müntəzəm hava əlaqələrinin bərpası məqsədilə iki ölkənin milli aviaşirkətləri arasında danışıqların aparıldığını və Pakistan Milli Bankının Bakıda öz nümayəndəliyini açmaq niyyətində olduğunu bəyan etmişdi.

Son dövrlər 2 ölkə arası hərbi-texniki əməkdaşlığın genişlənməsinə misal olaraq 2002-ci il sentyabrın 17-də imzalanmış "Müdafiə sahəsində əməkdaşlıq haqqında saziş"i göstərmək olar. Kəraçidə (Pakistan) "İDEAS-2002" beynəlxalq hərbi texnika sərgisi çərçivəsində imzalanmış sazişdə hər iki ölkənin hərbi kadrların hazırlanması sahəsində sıx əməkdaşlıq edəcəyi, təcrübə, nümayəndə heyəti, informasiya mübadiləsi aparacağı öz əksini tapmışdır. Elə həmin gün – sentyabrın 17-də Səfər Əbiyevin başçılıq etdiyi Azərbaycan nümayəndə heyətini Pakistan prezidenti P.Müşərrəf qəbul etmişdi. Pakistan prezidenti bildirmişdi ki, düşməni dəf etmək üçün ölkənin hərbi-texniki potensialının gücləndirilməsi vacibdir. Bu baxımdan "Pakistan Azərbaycanla hərbi əməkdaşlığa mühüm önəm verir və ölkəyə hər zaman yardım göstərməyə hazırdır"[35].

Pakistan rəhbərliyindən ölkəmizə daha bir diplomatik dəstək 2002-ci il oktyabrın 14-də İƏT-in sammitində verilmişdi. Toplantıda çıxış edən P. Müşərrəf İƏT üzvlərinə Dağlıq Qarabağ münaqişəsində Azərbaycan Respublikasını dəstəkləməli olduqlarını bildirməklə yanaşı Ermənistanın işğalçı dövlət olduğunu və bu faktın birmənalı şəkildə vurğulanmalı olduğunu da bəyan etmişdi.

2003-cü ilin aprelində müdafiə naziri Səfər Əbiyevlə görüşü zamanı Pakistan Milli Müdafiə Kollecinin rəhbəri, admiral Şahid Nəvaz bir daha bəyan etmişdi ki, Pakistan Azərbaycana işğal olunmuş torpaqlarının azad olunmasında kömək göstərməyə hazırdır.

2003-cü ilin sentyabrında Azərbaycana səfərə gələn Pakistan HDQ-nin daha bir nümayəndəsi, admiral Kərimullah da öz həmkarının mövqeyini dəstəkləmiş və S. Əbiyevlə görüş zamanı qeyd etmişdi ki, Dağlıq Qarabağ münaqişəsinin eskalasiyası halında Pakistan Azərbaycana lazımi yardım edəcəkdir. Qonaq eyni zamanda Pakistan quru qoşunları və Pakistan Hərbi Dəniz Qüvvələrinin sıralarında azərbaycanlı hərbçilərin hazırlığının intensivləşdirilməsi barədə danışıqlar aparmaq niyyətində olduğunu da bəyan etmişdi[36].

Yuxarıda qeyd etmişdik ki, Pakistan-Azərbaycan münasibətlərinin inkişaf istiqamətlərindən biri də beynəlxalq qurumlar, ilk növbədə isə İslam Konfransı Təşkilatı (İKT) çərçivəsində əməkdaşlıq istiqamətidir. Bildiyimiz kimi,

respublikamızın üzv olduğu ilk beynəlxalq təşkilat məhz İKT olmuşdur. Azərbaycan Respublikası bu quruma 1991-ci il dekabrın 8-də Dakar (Seneqal) toplantısı gedişində 46-cı üzv qəbul edilmişdi. 1993-cü ilin aprel ayında Pakistanın Kəraçi şəhərində keçirilmiş İKT üzvü olan dövlətlərin xarici işlər nazirlərinin XXI konfransında Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı xüsusi qətnamə qəbul edilmişdi. Qətnamədə Ermənistan işğalçı kimi tanınaraq onun işğal edilmiş Azərbaycan torpaqlarından dərhal çıxmaq tələbi öz əksini tapmışdı[37].

1994-cü il 7-9 sentyabr tarixində Pakistanın paytaxtı İslamabadda İKT-nin fövqəladə sessiyası keçirilmişdi. Sessiya gedişində Dağlıq Qarabağ problemi ilə əlaqədar növbəti qətnamə qəbul edilmişdi. Sənəddə Ermənistan yenidən təcavüzkar kimi tanınmış, bu dövlətdən BMT TŞ-nın Azərbaycanla bağlı 4 qətnaməsini yerinə yetirmək, Azərbaycanın işğal altında olan ərazilərindən Ermənistan qoşunlarının çıxarılması tələb edilmiş, həmçinin Azərbaycan Respublikasının 1 milyondan artıq qaçqın və məcburi köçkününə humanitar yardımın göstərilməsinin zəruriliyi vurğulanmışdı.

1997-ci il martın 23-də Pakistan İslam Respublikasının elan edilməsinin 50 illiyi şərəfinə bu ölkənin paytaxtı İslamabadda İKT-nin növbədənkənar sessiyası keçirilmişdi. Sessiyada Azərbaycan nümayəndə heyətini Milli Məclisin sədri Murtuz Ələsgərov təmsil edirdi. Sessiya gedişində üzv-dövlətlər bəyannamə qəbul etmişdilər. Bəyannamədə Azərbaycanın ərazi bütövlüyü dəstəklənən maddədə Ermənistanın işğalçı siyasəti tənqid olunmuş və işğal altında olan torpaqların tezliklə boşaldılması tələbi qoyulmuşdu[38].

2004-cü il yanvarın 12-də Azərbaycan Respublikasının müdafiə naziri Səfər Əbiyev Pakistanın ölkəmizdə sayca beşinci səfiri, 2003-cü ilin noyabrından öz vəzifəsinin icrasına başlamış Məhəmməd Hafiz Səidi qəbul etmişdi. Görüş zamanı ikitərəfli hərbi və siyasi əlaqələrin inkişaf etdiriləcəyi bəyan edilmişdi. Ölkələrimiz arasında münasibətlərin inkişafına toxunan Pakistan səfiri bu mü-nasibətləri yüksək xarakterizə etmişdi: "İki ölkə arasında münasibətlər yüksək səviyyədədir. Elə bir regional və qlo-bal xarakterli problem yoxdur ki, bu dövlətlərin mövqeyi üst-üstə düşməsin". Pakistan prezidenti P. Müşərrəfin Azərbaycana gözlənilən səfəri ilə bağlı səfir bildirmişdi ki, bu səfər yaxın vaxtlarda həyata keçiriləcək və Pakistan-Azərbaycan münasibətlərində yeni mərhələnin başlanğıcını qoyacaqdır.

2004-cü il iyulun 7-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Pakistanın yanacaq və təbii sərvətlər naziri Nauriz Şakur Xanı qəbul etmişdi. Azərbaycan dövlətinin başçısı iqtisadiyyat, enerji, ticarət və digər sa-hələrdə dinamik surətdə inkişaf edən ikitərəfli faydalı əməkdaşlığın hər iki ölkənin mənafeyinə xidmət etməsin-dən söz açmışdı. Öz növbəsində N. Şakur Xan ölkələrimiz arasında sənaye, kənd təsərrüfatı və sair sahələrdə əməkdaşlığın inkişafı üçün geniş imkanlar olduğunu qeyd etmişdi. Daha sonra konkret məsələyə – enerji sahəsində əməkdaşlıq məsələsinə toxunan pakistanlı nazir bildirmişdi ki, quruda karbohidrogen ehtiyatları yataqlarının işlənilməsində Pakistan mütəxəssislərinin təcrübəsi olsa da, dənizdə neft çıxarılması sahəsində onlar azərbaycanlı həmkarlarının təcrübəsindən istifadə etməkdə maraqlıdırlar. Elə həmin gün pakistanlı nazirin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanın baş naziri Artur Rasizadə tərəfindən qəbul edilmişdi. Görüş zamanı baş nazir Pakistan-Azərbaycan birgə komissiyasının fəaliyyətinin gücləndirilməsinin zəruriliyini vurğulamışdı. Pakistanlı nazir isə iki ölkə arasında pambıq emalı, kənd təsərrüfatı, əczaçılıq sənayesi və informasiya texnologiyaları sahəsində birgə layihələrin gerçəkləşdirilməsi və mütəxəssislər üçün məşğələlərin keçirilməsi imkanından söz açmış, həmçinin Pakistan sərmayədarlarının iştirakı ilə Azərbaycanda şəkər və sement zavodları tikilməsinə dair konkret layihələr haqda da məlumat vermişdi[39].

Sözsüz ki, Pakistan prezidenti P. Müşərrəfin Azərbaycana rəsmi səfəri ərəfəsində pakistanlı nazirin ölkəmizə gəlişi diqqətəlayiq hadisədir. Bu da onunla bağlıdır ki, keçirilmiş görüşlər zamanı ilk növbədə iqtisadi xarakterli məsələlərin müzakirə edilməsi tərəflərin qarşılıqlı münasibətlərdə iqtisadi faktorun rolunu artırmaq istəyindən xəbər verir (xatırladaq ki, tərəflər arasında iqtisadi-ticari əməkdaşlıq hələ ki qənaətbəxş səviyyədə deyildir. Sadə bir misal: 2000-ci il üçün Pakistanın Azərbaycan Respublikasına ixracatı 1.633 milyon dollar olmuş, idxalat isə cəmi 0.847 milyon dollar təşkil etmişdi)[40]. Pakistanlı nazirin yuxarıda səsləndirdiyimiz konkret iqtisadi təkliflərinin həyata keçəcəyi təqdirdə isə qarşılıqlı iqtisadi əlaqələrdə sözsüz ki, ciddi yüksəliş müşahidə olunacaqdır.

İki ölkə arasında həyata keçirilmiş çoxsaylı səfərlərdən söz açarkən Pakistan prezidenti P. Müşərrəfin ölkəmizə keçən il baş tutmuş səfərinə xüsusi toxunmaq lazımdır. Pakistanın dövlət başçısı 2004-cü il iyulun 8-10-da Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdu. Səfərin ilk günü iki dövlət başçıları arasında əvvəl təkbətək, daha sonra geniş tərkibdə danışıqlar aparılmışdı. Təkbətək görüş zamanı ikitərəfli əməkdaşlığın daha da dərinləşdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivləri, beynəlxalq və regional təhlükəsizlik problemləri kimi tərəfləri maraqlandıran məsələlər barədə ətraflı fikir mübadiləsi aparılmışdı. Geniş tərkibdə görüş zamanı isə tərəflər siyasi, iqtisadi, humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivlərini müzakirə etmişdilər[41]. Görüşün əlamətdar cəhətlərindən biri P. Müşərrəfin Azərbaycana hərbi sahədə əməkdaşlığın genişləndirilməsi təklifi ilə çıxış etməsi olmuşdu: "Müdafiə sahəsində bizim ümumi maraqlarımız çoxdur. Uzun müzakirələrdən sonra sizə bu sahədə əməkdaşlıq təklif etmək qərarına gəldik"- deyə vurğulayan PİR prezidenti Azərbaycan müdafiə nazirliyinin nümayəndə heyətini Pakistana səfərə dəvət etmişdi: "Onlar bizim ölkədə təhsil ala, həmçinin hərbi avadanlıq istehsalı ilə tanış ola bilərlər".



PİR prezidenti həmçinin neft-qaz sektorunda birgə müəssisələrin açılması, Pakistanın maliyyə, bank, sığorta, informasiya texnologiyaları və telekomunikasiya sahələrində zəngin təcrübəsindən Azərbaycan tərəfinin yararlana biləcəyini vurğulamışdı. Pakistan lideri eyni zamanda öz ölkəsinin bank və maliyyə sahəsində təhsil almaq üçün azərbaycanlı tələbələrə 5, informasiya və telekomunikasiya sahəsində təhsil almaq üçün 10 yer ayırmağa hazır olduqlarını bəyan etmişdi[42]. Danışıqlar gedişində tərəflər həmçinin ümumi iqtisadi maraqların müəyyən edilərək birgə iqtisadi komissiya tərəfindən işlənməsinin zəruriliyi barədə razılığa gəlmişdilər. Qeyd edək ki, elə həmin gün tərəflər arasında bir sıra ikitərəfli sənədlər imzalanmışdı. Bu sənədlər aşağıdakılardır:

– Birgə Bəyannamə. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və Pakistan prezidenti Pərviz Müşərrəf tərəfindən imzalanmışdır;

– Turizm sahəsində əməkdaşlıq haqqında saziş. Azərbaycan Respublikası gənclər, idman və turizm naziri Əbülfəs Qarayev və Pakistanın yanacaq və təbii sərvətlər naziri Nauriz Şakur Xan tərəfindən imzalanmışdır;

– Gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov və N. Şakur Xan tərəfindən imzalanmışdır;

– Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizədə əməkdaşlıq haqqında saziş. Azərbaycan Respublikası daxili işlər naziri Ramil Usubov və Pakistan xarici işlər katibi Riyaz Toxaş tərəfindən imzalanmışdır;

– Beynəlxalq terrorizmə və mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə əməkdaşlıq haqqında saziş. Daxili işlər naziri R. Usubov və PİR-in sənaye və istehsal naziri Liakat Əli Catoy tərəfindən imzalanmışdır.

İmzalanmış sənədlərin mahiyyətini araşdırarkən görərik ki, sonuncu iki razılaşma birbaşa olaraq hər iki ölkənin milli maraqları və dövlət təhlükəsizliyi ilə sıx surətdə

bağlıdır. Xatırlatmaq kifayətdir ki, istər Pakistan, istərsə də Azərbaycan artıq qlobal xarakter almış bu problemlərdən böyük əziyyət çəkirlər: Pakistanın Əfqanıstanla həmsərhəd rayonlarında, Azərbaycanın isə işğal edilmiş Dağlıq Qarabağ bölgəsində narkotik maddələrin istehsalı və satışının geniş yayılması, bu satışdan əldə olunan vəsaitin ilk növbədə silahlanmaya yönəldilməsi (bu isə dövlətlərin suverenliyinə birbaşa təhlükədir), 1990-cı illərdə Azərbaycanda erməni terrorunun tüğyan etməsi, Pakistan şəhərlərinin küçələrində isə terror aktlarının bu gün də baş verməsi və ən nəhayət, bu gün heç bir ölkənin terror təhlükəsindən sığortalanmaması – bütün bunlar adları çəkilən problemlərə qarşı birgə mübarizə və işbirliyini zəruri edir.

Turizm sahəsində əməkdaşlıq da hər iki dövlətin maraqlarına (ilk növbədə iqtisadi-maliyyə) cavab verir. Hər iki ölkədə turizmin inkişafı üçün geniş potensialın mövcudluğuna baxmayaraq bu potensialdan hələ ki, səmərəli istifadə olunmur (xüsusilə Pakistanda). Faktlara nəzər yetirək: 1990 və 2000-ci illərdə Pakistana gələn xarici turistlərin sayı müvafiq olaraq 424 min və 432 min, Azərbaycanda isə buna uyğun olaraq 77 min və 602 min nəfər təşkil etmişdir[43]. Bu rəqəmlərdən görünür ki, istər turistlərin ümumi sayı, istərsə də 10 il ərzində turist sayının artımına görə Azərbaycan öndədir (bu isə ölkəmizin müstəqillik qazanması və turizm sahəsində müəyyən irəliləyişlərlə bağlıdır). İki ölkə arasında turist və bu sahədə mövcud təcrübə mübadiləsi bir tərəfdən hər iki ölkənin müvafiq sahələrinin daha yaxşı inkişaf etməsinə və iqtisadi əlaqələrin genişlənməsinə təsir göstərərsə, digər tərəfdən xalqlarımız arasında əlaqələrin güclənməsinə, hər iki ölkə ictimaiyyətinin bir-birini daha yaxından tanımasına şərait yaradar.

Bu səfər gedişində də PİR prezidenti Dağlıq Qarabağ probleminə toxunmuş və Ermənistanı işğalçı dövlət hesab etdiyini bir daha vurğulamışdı. Öz növbəsində Azərbaycan tərəfi də Kəşmir probleminə münasibətdə BMT qətnamələrinin icra olunmasını və münaqişənin beynəlxalq hüquq normaları əsasında həllini tapmasının vacibliyini vurğulamışdı[44].

Səfərin ikinci günü – iyulun 9-da P. Müşərrəf Azərbaycan Respublikası müdafiə naziri Səfər Əbiyevi və xarici işlər naziri Elmar Məmmədyarovu qəbul etmişdi. P.Müşərrəf-S.Əbiyev görüşündə tərəflər Dağlıq Qarabağ və Kəşmir problemləri ilə bağlı fikir mübadiləsi aparmışdılar. Görüş zamanı həmçinin S. Əbiyev Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə yaxın günlərdə PİR-ə Azərbaycanın hərbi attaşesinin təyin olunacağı barədə Pakistanın dövlət başçısına məlumat vermişdi. Azərbaycan Respublikası xarici işlər naziri E. Məmmədyarov ilə görüş zamanı isə ikitərəfli əlaqələrin hazırkı vəziyyəti və perspektivləri, beynəlxalq təşkilatlar, ilk növbədə isə BMT və İKT çərçivəsində əməkdaşlıq, iqtisadi əlaqələrin genişləndirilməsi kimi məsələlər müzakirə edilmişdi.

PİR prezidenti P. Müşərrəfin ölkəmizə rəsmi səfəri zamanı səsləndirdiyi maraqlı ideyalardan biri də maarifçi liberalizm ideyasıdır. Əslində bu ideya ilk dəfə İKT-nin Kuala-Lumpurda (Malayziya) keçirilən son toplantısında (2003-cü ilin oktyabrında səslənsə də Pakistan prezidenti Bakı səfərində bir daha bu mövzuya qayıtmağı lazım bilmişdi. Bu ideyaya əsasən, islam dünyasının probleminin həlli iki faktora əsaslanır. Onlar aşağıdakılardır:

a) Müsəlman dünyası ekstremizm və militarizmdən azad olmalı, bunun əvəzində iqtisadi və ictimai inkişafa nail olmalıdır. Strategiyanın bu hissəsi birbaşa müsəlman ölkələri, xüsusən militarizm və ekstremizmi özlərinə məqsəd seçən islam dövlətləri tərəfindən həyata keçirilməlidir;

b) Strategiyanın ikinci hissəsi isə Qərb dünyasına ünvanlanıb. Qərb dövlətləri, ilk növbədə isə ABŞ müsəlman aləminin cəlb edildiyi münaqişələrin ədalətli şəkildə həllinə və islam aləminin iqtisadi-ictimai yüksəlişinə yardım etməlidirlər. Bütün bunlar isə son nəticədə islam ekstremizmi və terrorçuluğunun kökünün kəsilməsinə, siyasi münaqişələrin həll olunmasına və dünyada iqtisadi rifahın

yüksəlməsinə gətirib çıxaracaq. İslam və terrorizm məsələsinə toxunan PİR prezidenti bunların bir-birindən tamamilə fərqli anlayışlar olduğunu vurğulamışdı: "Hazırda terrorçuların tətbiq etdiyi praktikalar – maşın bombaları, başların kəsilməsi və sair kimi çirkin əməllər heç də islam tərəfindən qəbul edilmir və bunlar heç bir şəkildə cihad adlandırıla bilməz". Pakistan prezidentinin bu strategiyanın həyata keçirilməsi yönündə təkliflərindən biri də İKT strukturunda dəyişikliklərin edilməsi, bu qurumun çağdaş tələblərə cavab verməsinə nail olmaqdır. Bu məqsədlə də İKT-də islahatlar aparılması üzrə işçi qrupu yaradılmalıdır.

Səfərin ikinci günü həmçinin Azərbaycan millət vəkilləri qarşısında çıxış edən P. Müşərrəf islam dünyasında mövcud bir sıra münaqişələrə toxunmuş və onlar haqqında öz mülahizələrini bildirmişdi. Məsələn, Fələstin problemindən söz açan P. Müşərrəf bəyan etmişdi ki, problemdə uzun dövrdən bəri mövcud status-kvo dəyişdirilməlidir. PİR-in mövqeyi bundan ibarətdir ki, İsrail özünün 1967-ci il sərhədlərinə qayıtmalı və müstəqil Fələstin dövləti yaranmalıdır. Yalnız bu halda bölgədə terrorizmin kökünün kəsiləcəyindən danışmaq mümkündür (ümumiyyətlə maraqlı bir faktı nəzərinizə çatdıraq ki, Pakistan hətta İsrail dövlətinin mövcudluğunu tanımır. Pakistan rəsmiləri dəfələrlə bəyan ediblər ki, yalnız bir şərtlə – müstəqil Fələstin dövləti yaradıldıqdan sonra İsrail dövləti ilə diplomatik münasibətlər qurula bilər[45]). Kəşmir probleminə toxunan P.Müşərrəf hər iki tərəf arasında siyasi dialoqun davam etdirilməsi, radikal baxışlardan çəkinmə, həmçinin ekstremizm və terrorizmlə mübarizənin bu münaqişənin həllinə öz müsbət təsirini göstərəcəyini qeyd etmişdi. Çıxışı zamanı əfqan probleminə də toxunan PİR lideri Əfqanıstanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığını, həmçinin 2004-cü ilin yanvarında qəbul olunmuş ölkə Konstitusiyasını dəstəklədiklərini bildirmiş, yeni Konstitusiyanın həyata keçiriləcəyi təqdirdə bütün xarici hərbi qüvvələrin ölkəni tərk edəcəyinə ümidini ifadə etmişdi. Pakistan prezidenti həmçinin bildirmişdi ki, Əfqanıstanın



inkişafı məqsədilə Pakistan bu ölkəyə 100 milyon ABŞ dolları həcmində maliyyə vəsaiti ayırmışdır. Bu gün dünyamızın ən qaynar bölgələrindən birinə çevrilən İraq məsələsinə toxunan P. Müşərrəf İraqın keçid hökumətini dəstəklədiklərini, İraqın tam olaraq öz siyasi suverenliyi və müstəqilliyini bərpa etməsinə və burada sülhyaratma prosesində BMT-nin iştirak etməsinə tərəfdar olduqlarını bəyan etmişdi. Öz çıxışında PİR prezidenti İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində Pakistan-Azərbaycan əməkdaşlığına toxunmuş, hər iki ölkənin əlverişli coğrafi-strateji mövqeyə sahib olduqlarını, Mərkəzi Asiya respublikalarının bu ərazilərdən istifadə edərək Avropa və Uzaq Şərqə çıxa biləcəklərini vurğulamış, İKT-də olduğu kimi, İƏT çərçivəsində də struktur islahatlarının zəruri olduğunu, xüsusilə bu qurumun terrorizm və narkotik maddələrin qaçaqmalçılığı ilə mübarizəsinin hələ ki səmərəsiz olduğunu qeyd etmişdi. PİR lideri eyni zamanda qeyd etmişdi ki, qurum müsəlman ölkələrinin iqtisadi inteqrasiyasına nail ola bilməyib: "İslam dünyası böyük və zəngindir, lakin təşkilati cəhətdən zəifdir". Çıxışının sonunda Pakistan-Azərbaycan iqtisadi münasibətlərinə toxunan PİR prezidenti bu münasibətlərin qənaətbəxş səviyyədə olmadığını bildirməklə yanaşı Azərbaycan prezidenti İ. Əliyevlə görüşü zamanı iqtisadi-ticari sahədə əməkdaşlığın genişləndirilməsi probleminə ətraflı toxunduqlarını qeyd etmişdi[46].

Pakistan prezidentinin ölkəmizə rəsmi səfərinin əhəmiyyətindən danışarkən aşağıdakı məqamlara diqqət yetirmək zəruridir:

– Pakistan rəhbərliyi Azərbaycan ilə sıx hərbi əməkdaşlıqda maraqlı olduğunu bir daha təsdiqləmiş oldu. Bu baxımdan P. Müşərrəfin məlum bəyanatından təxminən bir ay sonra Pakistan Baş Qərargah Rəislərinin Sədri Məhəmməd Əziz Xanın Azərbaycana 8-13 avqust tarixli rəsmi səfərini də ilk növbədə bu kontekstdə nəzərdən keçirmək lazımdır. Xatırladaq ki, səfər zamanı respublikamızın yüksək siyasi və hərbi rəhbərliyi ilə (prezident İ. Əliyev, xarici işlər naziri E. Məmmədyarov, müdafiə naziri S.

Əbiyev) keçirilən görüşlər zamanı əsas müzakirə obyekti məhz hərbi əməkdaşlığın genişləndirilməsi perspektivləri olmuşdu[47];

– Səfər gedişində geniş spektrli məsələlərin müzakirə edilməsi (iqtisadi, maliyyə, humanitar və s.) və bir sıra sahələri əhatə edən sazişlərin imzalanması qarşılıqlı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının bariz göstəricisi sayıla bilər. Belə ki, Pakistan prezidenti keçirdiyi görüşlər zamanı qarşılıqlı iqtisadi əlaqələrin gücləndirilməsinin zəruriliyini vurğulamaqla yanaşı bununla bağlı konkret təkliflər də vermişdi (məsələn, bir sıra sferalar üzrə azərbaycanlı tələbələrin Pakistanda təhsil almaları, neft-qaz sektorunda birgə müəssisələrin açılması və s.) Bu isə o deməkdir ki, tərəflər iqtisadi-ticari sahədə mövcud durğunluğa son qoymaq və bu durğunluğu yüksəlişlə əvəzləmək niyyətindədirlər (elə səfər gedişində Bakıda Pakistan-Azərbaycan Birgə İqtisadi Komissiyasının iclasının keçirilməsi də bu istiqamətdə fəaliyyətin gücləndiriləcəyindən xəbər verir);

– Pakistan rəhbərliyi bir daha Dağlıq Qarabağ münaqişəsində Azərbaycanı dəstəklədiyini bəyan etmiş oldu.

Ümumiyyətlə, Pakistan-Azərbaycan münasibətləri və Pakistanın ölkəmizə diplomatik-hərbi dəstəyindən danışarkən nəzərə almaq lazımdır ki, məsələnin kökündə heç də yalnız dini amil – islam durmur. Burada ilk növbədə iqtisadi və siyasi maraqlar vardır. Xəzər hövzəsində yerləşən və zəngin karbohidrogen ehtiyatlarına malik Azərbaycan PİR üçün iqtisadi baxımdan əhəmiyyətli ölkədir. PİR rəhbərliyi Xəzər neft və qazının Pakistandan keçməklə dünya bazarına çıxarılmasında maraqlıdır. Digər tərəfdən isə islam dünyasında liderlik uğrunda mübarizə aparan Pakistan bu baxımdan müsəlman ölkələrinin, o cümlədən Azərbaycanın problemlərinə həssas yanaşır, bu ölkələrin himayəçisi rolunda çıxış etməyə çalışır.

Eyni zamanda Azərbaycan üçün də Pakistanla sıx əməkdaşlıq etməyin (ilk növbədə hərbi-texniki sahədə) böyük əhəmiyyəti vardır. Yuxarıda barələrində məlumat



verdiyimiz hərbi xarakterli müqavilələr məhz iki ölkə arasında hərbi-texniki əməkdaşlığın daha da genişlənməsinə, bu əməkdaşlığın konkret sahələrinin müəyyənləşdirilməsinə xidmət edir.

Azərbaycan Respublikasının PİR ilə hərbi-texniki sahədə əməkdaşlığı bir sıra aspektlərdən faydalı ola bilər:

Əvvəla, Pakistan ordusunun döyüş təcrübəsi və keçdiyi döyüş yolu. Pakistan ordusu 1947-71-ci illərdə baş vermiş hind-Pakistan müharibələrində, həmçinin 1979-89-cu illər sovet-əfqan savaşında kifayət qədər hərbi təcrübə toplayıbdır. Nəzərə alsaq ki, Pakistan ordusunun fəaliyyət göstərdiyi Kəşmir bölgəsi öz relyefi və təbii şəraitinə görə Dağlıq Qarabağa oxşayır, onda Azərbaycan hərbçilərinin pakistanlı həmkarlarının bu sahədə təcrübələrindən yararlanması böyük əhəmiyyətə malikdir. Təcrübənin öyrənilməsi isə ilk növbədə hərbi-təhsil müəssisələrində kadrların hazırlanması və yüksək döyüş qabiliyyətinə malik müəyyən dəstələrin yaradılmasından keçir. Bu cür presedent artıq Qafqazda vardır: qonşu Gürcüstanda amerikan hərbi mütəxəssislərinin yardımı ilə bir neçə xüsusi təyinatlı batalyon yaradılmışdır və bu batalyonlar Cənubi Osetiyada 2004-cü ilin avqust hadisələri zamanı öz döyüş qabiliyyətlərini əyani surətdə nümayiş etdirmişlər.

Pakistan öz hərbi arsenalında olan bir sıra texnika və silahları Azərbaycan ordusunun ixtiyarına verməklə də onu gücləndirə bilər.

Pakistanın Dağlıq Qarabağ münaqişəsində Azərbaycanı dəstəkləməsi də Azərbaycan Respublikası üçün mühüm əhəmiyyət kəsb edir.

Hərbi-texniki və diplomatik sahədə əməkdaşlıqdan əlavə tərəflər iqtisadi-ticari sahədə də əməkdaşlıq edirlər. 2000-ci ildə yaradılmış Azərbaycan-Pakistan Hökumətlərarası Komissiyası da məhz bu istiqamətdə fəaliyyət göstərir. Komissiyanın ilk iclası 2000-ci ilin oktyabrında Bakıda, ikinci toplantısı isə 2002-ci ilin sentyabrında İslamabadda keçirilmişdi. Birinci iclasda müzakirə edilən əsas məsələlər ticarət-kommersiya sahəsində əlaqələrin

genişləndirilməsi, sənaye layihələrinə birgə investisiyaların qoyulması, elm və kənd təsərrüfatı sahələrində informasiya mübadiləsinin həyata keçirilməsi olmuşdu. Pakistan tərəfi həmçinin maliyyə, kommunikasiya və kənd təsərrüfatı sektorunda özünün təcrübəsindən yararlanmağı Azərbaycan tərəfinə təklif etmişdi. Xatırladaq ki, Pakistan tərəfini iclasda neft və təbii sərvətlər naziri Usman Əminuddin təmsil edirdi. İslamabadda keçirilmiş ikinci toplantıda isə tarif nizamlanması, imtiyazlı vergi qaydalarının tətbiq edilməsi, həmçinin iqtisadi əməkdaşlığın genişləndirilməsinin digər yolları müzakirə edilmişdi[48].

Beləliklə, gördüyümüz kimi, Pakistan və Azərbaycan Respublikası arasında diplomatik və hərbi-texniki sahələrdə kifayət qədər sıx əməkdaşlıq mövcuddur. Perspektivdə bu münasibətlərin daha da genişlənməsi, eyni zamanda iqtisadi-ticari sahədə əlaqələrin gücləndirilməsi dövlətlərimizin diplomatiyaları qarşısında duran mühüm vəzifə olmalıdır.

## ƏDƏBİYYAT

[1] Ганковский Ю.В. «Исламское движение талибов и Пакистан», «Азия и Африка сегодня» , №3/99, səh. 4

[2] Д-р Рифат Гусейн "Пакистан и Центральная Азия" http://www.ca-c.org/journal/08-1997/st_14_gusein.s

[3] Москаленко В.Н. «Пакистан – курс на Центральную Азию». М., 1996, səh. 82

[4] Мукимджанова Р.М. «Государства Центральной Азии и их южные соседи». М., 1996, səh. 58

[5] Ботагоз Байтелесова «Рывок к Персидскому заливу» http://www.dn.kz/arch/19_97/gulf.htm

[6] Мукимджанова Р.М. Göstərilən əsəri, səh. 33

[7] «Внешнеэкономическая деятельность Пакистана» http://www.ovsem.com/user/vedpk/3.shtml

[8] Князев А. "Диалог цивилизаций" http://siteistok.host.net.kg/bibl/DC-2/416_knjazev

[9] «Внешнеэкономическая деятельность Пакистана» http://www.ovsem.com/user/vedpk/3.shtml

[10] «Афганский вектор политики Пакистана» http://www.ctaj.elcat.kg/tolstyi/a/a004.htm

[11] Стефанович Н. "Горящее золото", "Вокруг света" jurnalı, 2002, февраль, səh. 13

[12] "Zaman" qəzeti, 2000, 9-10 noyabr

[13] Нурали Давлетов "Признает ли Астана талибов" http://www.unesco.kz/ci/projects/amrc/pechbillalma

[14] Михаил Герасимов "Что вынуждает Ташкент смягчить свое отношение к талибам" http://www.ng.ru/cis/2001-01-30/5_tashkent.html

[15] «МИД Республики Казахстан» http://www.mfa.kz/rus/?hronica=2&arch=1&selected=3

[16] "Пакистан и Центральная Азия" http://www.ca-c.org/journal/08-1997/st_14_gusein.s

[17] Виктория Панфилова "Страна дешевого электричества" http://www.ng.ru/cis/2002-08-06/6_tadjikistan.html

[18] "Таджикские талибы возвращаются домой" http://www.utro.ru/2002/08/21/topnews.shtml

[19] «Президент Таджикистана отбыл в Пакистан с официальным визитом» http://www.gazetasng.ru/news.php?id=201

[20] «Внешнеэкономическая деятельность Пакистана» http://www.ovsem.com/user/vedpk/3.shtml

[21] "Киргизия-Пакистан: об экономикс накануне визита А.Акаева в Пакистан" http://www.kyrgyzinfo.kg/?art=1062488422

[22] Игорь Азовский "Шелковый путь накануне XXI века» http://www.ca-c.org/journal/cac-03-1999/st_06_azov

[23] А. Сапаралиева «Диалог цивилизаций. Выпуск 2» http://siteistok.host.net.kg/bibl/DC-2/409_saparal

[24] Narbaev B. "Transafghan gas pipeline", səh.35

[25] Yenə orada

[26] «Центральная Азия до и после 11 сентября» http://www.kisi.kz/Parts/books/02-12-03Central_Asi

[27] Р. Оруджев "Лучше поздно чем никогда" http://www.echo-az.com/archive/314/facts.shtml

[28] "Pakistan-Azerbaijan relations" http://www.forisb.org/fpolicy

[29] "EKO sammiti Azərbaycan üçün nə vəd edir", "Səs" qəzeti, 2004, 11 sentyabr

[30] "Azərbaycan", 2004, 10 iyul

[31] "Pakistan-Azerbaijan relations"

http://www.forisb.org/fpolicy

[32] Муштаг Ахмед «23 марта-День Пакистана: Пакистано-азербайджанские отношения:история дружбы» http://www.sakartvelo.ru/digest/neighborsforprint

[33] "Azer News" qəzeti, 2003, March 26-April 1

[34] Валентин Бадрак «Военно-техническое сотрудничество стран ГУУАМ: миф или реальность» http://gazetasng.ru/print.php?=id=220461

[35] Р.Оруджев «Соглашение с Пакистаном подписано» http://www.echo-az.com/archive/424/facts.shtml

[36] "Пакистан намерен оказать Азербайджану военную помощь в случае ескалации карабахского конфликта" http://www.rosbalt.ru/2003/09/11/118201.html

[37] Qurbanov Ə. "Beynəlxalq münasibətlərdə din-İslam amili". B., 2000, səh.78

[38] Yenə orada, səh.91

[39] "Azərbaycan" qəzeti, 2004, 8 iyul

[40] "Pakistan-Azerbaijan relations" http://www.forisb.org/fpolicy

[41] "Azərbaycan", 2004, 9 iyul

[42] "Günay" qəzeti, 2004, 16 iyul

[43] «Страны мира» (статистический справочник ООН). М, 2003, səh. 16, 151

[44] "Azərbaycan", 2004, 9 iyul

[45] "Пакистан признает Израил только после создания палестинского государство" http://www.jewish.ru/994197036.asp

[46] "Azərbaycan", 2004, 10 iyul

[47] "Генерал Мухаммед Азиз Хан прибыл в Баку с официальным визитом" http://www.mod.mil.by/news4.html

[48] "Azer News", 2003, April 1



## NƏTİCƏ

"Soyuq müharibə"nin başa çatması və dünya sosializm sisteminin dağılması ilə beynəlxalq münasibətlər tarixində yeni eranın başlanğıcı qoyuldu. Dəyişən dünyada formalaşan yeni şəraitə uyğun olaraq Pakistan da 90-cı illərin əvvəllərindən etibarən öz xarici siyasət kursunda bir sıra əhəmiyyətli dəyişikliklər etdi. Bu dəyişikliklərin əsasında belə bir müddəa dururdu ki, Pakistan istər regionda, istərsə də beynəlxalq aləmdə öz rolu və nüfuzunu artırmaq məqsədilə xarici siyasi fəaliyyətində yeniliklər etməlidir. Bu yeniliklər özünü aşağıdakılarda göstərirdi:

– Əfqan probleminin siyasi-diplomatik metodlarla nizamlanması istiqamətində səylərin artırılması;

– ABŞ ilə mövcud problemləri yoluna qoymaqla strateji partnyor statusunu gücləndirmək;

– Hindistan ilə Pakistan arasında mövcud problemlərin (ilk növbədə Kəşmir probleminin) həlli üçün diplomatik səylərdən geniş yararlanmaq, eyni zamanda qarşılıqlı iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi;

– SSRİ-nin dağılmasından sonra meydana çıxmış yeni müstəqil dövlətlərlə çoxtərəfli münasibətlərin yaradılması və inkişafı (xüsusən müsəlman respublikaları ilə);

– Günü-gündən təhlükəli xarakter alan beynəlxalq terrorizm və narkobizneslə mübarizənin gücləndirilməsi.

Pakistan diplomatiyasının bu vəzifələri qarşısına qoyduğu dövrdən bizi təxminən 15 illik zaman kəsiyi ayırır və biz keçən dövr ərzində bu xarici siyasət kursunun nə dərəcədə uğurlu olub-olmaması, qarşıya qoyulmuş vəzifələrin nə dərəcədə yerinə yetirilib-yetirilməməsi barədə artıq müəyyən mühakimə yürüdə bilərik:

XX əsrin son onilliyində öz gərginliyi ilə yadda qalan Pakistan-İran münasibətlərində son illər nəzərəçarpacaq tərəqqi müşahidə olunmaqdadır. Bu günümüz üçün bu iki dövlət arasında iqtisadi-siyasi münasibətlərin genişləndirilməsi və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq göstərir ki, qarşılıqlı əlaqələr gələcəkdə də inkişaf etdiriləcək. Lakin bununla yanaşı unutmaq lazım deyil ki, bu iki yaxın qonşu arasında kifayət qədər ciddi problemlər (xüsusən xarici siyasət meyli ilə bağlı) qalmaqdadır ki, gələcəkdə onların eskalasiyası ehtimalı möv-cuddur.

Pakistanın bütün səylərinə rəğmən əfqan probleminin diplomatik yollarla nizamlanması prosesi baş tutmadı. Buna səbəb qarşıduran tərəflərin barışdırılması üçün atılan diplomatik addımların uğursuzluğa düçar olması idi. Pakistan "Taliban"ı yaradaraq hərbi yolla Əfqanıstanda əmin-amanlıq və sabitliyə nail olma xəttini seçdi. Pakistan diplomatiyasının bu zaman yol verdiyi ən başlıca səhv də məhz problemin nizamlanmasına hərbi aspektdən yanaşılması idi. Belə ki, taliblərin radikal siyasəti nəinki Əfqanıstanda sabitliyin yaranmasına gətirib çıxartdı, əksinə, Pakistanın bölgə dövlətləri ilə münasibətlərinin soyuması ilə nəticələndi. Pakistan yalnız 11 sentyabr hadisələrindən sonra başladılmış ikinci əfqan kampaniyası nəticəsində əfqan siyasətində ciddi müvəffəqiyyət əldə edə bilib: Taliban rejimi devrilib, milli həmrəylik formulası əsasında yeni əfqan hökuməti qurulub və bu ölkədə nisbi sabitlik yaranıb.

Müasir dövr Pakistan-Çin münasibətləri də kifayət qədər çoxşaxəlidir. Pakistan-Çin hərbi-texniki əməkdaşlığı, nüvə silahının yaradılmasında Çinin mühüm rolu, bir sıra regional və qlobal xarakterli problemlərə münasibətdə eyni mövqedən çıxış etmə faktoru Pakistan-Çin münasibətlərinin müəyyən problemlərin olmasına rəğmən gələcəkdə də inkişaf edəcəyini deməyə əsas verir.

90-cı illər Pakistan-ABŞ münasibətləri öz gərginliyi ilə yadda qaldı. Nüvə sınaqları, Kəşmir probleminə fərqli baxışların mövcudluğu, Pakistan-Taliban əlaqələri nəticə etibarilə qarşılıqlı münasibətlərdə soyuqluğun yaranmasına rəvac vermişdi. Yalnız ikinci əfqan kampaniyası gedişində–Pakistan öz hava məkanı, hərbi bazaları və kəşfiyyat materiallarından ABŞ-ın yararlanmasına şərait yaratmaqla bu soyuqluğu aradan qaldırmış oldu. Məhz bunun nəticəsi olaraq 11 sentyabr hadisələrindən sonra ikitərəfli münasibətlərdə yaxşılaşma müşahidə olunmağa başlayıb. Üstəlik Əfqanıstanda radikal ünsürlərə – "Əl-Qaidə" və "Taliban"a qarşı mübarizənin hələ də davam etməsi Pakistanın ABŞ üçün əhəmiyyətini bir daha artırmış olur.

Əldə olunmuş bir sıra nailiyyətlərə baxmayaraq (1999-cu il Lahor Bəyannaməsi, 2001-ci il Aqra görüşü) XX əsrin son onilliyi-XXI əsrin başlanğıcında Pakistan-Hindistan münasibətləri də gərgin olaraq qalmaqda davam edib. 1998-ci ilin mayında keçirilmiş nüvə sınaqları, 1999-cu il Kargil böhranı, 11 sentyabr hadisələrindən sonra vəziyyətin yenidən kritik duruma çatması buna əyani sübutdur. Hər iki ölkədə müəyyən dairələrin bu problemin mövcudluğunda marağı və ictimai rəy onu deməyə əsas verir ki, bu iki dövlət arasında mövcud problemlər hələ uzun müddət öz həllini gözləyəcək.

Yeri gəlmişkən, Pakistan diplomatiyasının hind siyasətində mövcud çatışmazlıqlarından biri də Kəşmir probleminin hər zaman ön cərgəyə çəkilməsi, digər problemlərin isə necə deyərlər, arxa planda qalmasıdır. Xüsusilə iqtisadi-ticari problemlərin yoluna qoyulması və bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi həllini gözləyən məsələlərdəndir. Kəşmir probleminin tam beynəlmiləlləşməməsi və beynəlxalq vasitəçilik ideyasının Hindistan tərəfindən qəbul edilməməsi də Pakistan diplomatiyasının müvəffəqiyyət qazana bilmədiyi məsələlərdəndir. Pakistanın təşəbbüsü ilə Kəşmir Təmas Qrupunun yaradılması və beynəlxalq toplantılarda tez-tez Kəşmir məsələsinin qaldırılmasına baxmayaraq problem bu gün də beynəlxalq ictimaiyyət tərəfindən daha çox iki dövlətin daxili məsələsi kimi qavranılır.

SSRİ-nin süqutu ilə yaranmış yeni müstəqil dövlətlərlə münasibətlərin qurulması Pakistan diplomatiyasının XX yüzilliyin son onilliyində mühüm diqqət verdiyi prioritetlərdən birinə çevrildi. Pakistan-Mərkəzi Asiya respublikaları və Pakistan-Azərbaycan münasibətləri perspektivləri uğurludur. Bununla yanaşı qeyd etmək yerinə düşərdi ki, bu istiqamətdə PİR diplomatiyası qarşısında bir sıra ciddi çətinliklər də yox deyildir. Bunlar aşağıdakılardır: a) Zəngin təbii sərvətlərə və əlverişli geostrateji mövqeyə malik bu regionun böyük dövlətlərin maraq dairəsində olması; b) Pakistanın iqtisadi baxımdan geridə qalması; c) Pakistan diplomatiyasının ötən onillikdə əsas səylərini əfqan və hind problemlərinə yönəltməsi. Lakin bu gün – XXI əsrin başlanğıcında əfqan və hind problemlərində müəyyən nailiyyətlər əldə edən, beynəlxalq yarımtəcriddən qurtulan Pakistan diplomatiyası Mərkəzi Asiya və Azərbaycan ilə münasibətlərin, birinci növbədə isə iqtisadi münasibətlərin genişləndirilməsi üçün mövcud fürsətdən yararlanmalıdır. Və əgər nəzərə alsaq ki, Pakistan iqtisadiyyatı xammal ehtiyatına kəskin ehtiyac duyur, onda bu istiqamətin Pakistan üçün necə böyük əhəmiyyət daşıdığı bir daha məlum olar.

Pakistan diplomatiyasının yeni fəaliyyət istiqamətindən danışarkən Pakistan-Azərbaycan münasibətlərinə xüsusi diqqət verilməlidir. Azərbaycana Dağlıq Qarabağ problemində tam diplomatik-mənəvi dəstək verən, Ermənistanı işğalçı dövlət kimi tanıyan və bunu beynəlxalq toplantılarda dəfələrlə bəyan edən, həmçinin güclü orduya malik PİR ilə müttəfiqlik münasibətlərinin genişləndirilməsi Azərbaycan Respublikasının həyati maraqlarına cavab verir. Və eləcə də zəngin iqtisadi potensiala və təbii sərvətlərə sahib Azərbaycanla əməkdaşlığın inkişaf etdirilməsi Pakistan üçün də zəruri şərtlərdən biridir. Bu baxımdan ölkələrimiz arasında əlaqələrin gələcəkdə daha da genişlənəcəyini əminliklə söyləmək olar.

Bütün bu sadalananlar belə nəticəyə gəlməyə əsas verir ki, Pakistanın 90-cı illərin başlanğıcında qarşısına qoyduğu və məqsədi beynəlxalq münasibətlərdə PİR-in rolunu artırmaqdan ibarət olan xarici siyasət vəzifələri XXI əsrin əvvəlləri üçün də öz aktuallığını itirməyib. Zənnimizcə, yaxın gələcək üçün PİR xarici siyasətinin əsas istiqamətlərini bu cür müəyyənləşdirmək olar:

– İran ilə iqtisadi-siyasi münasibətlərin inkişaf etdirilməsi və tərəflərin ortaq mövqedən çıxış etdikləri məsələlər üzrə əməkdaşlığın genişləndirilməsi;

– Əfqanıstanda tam stabilliyin bərqərar edilməsi istiqamətində siyasi-diplomatik və iqtisadi səylərin artırılması;

– Çin ilə hərbi-texniki (xüsusən silah satışı və raket proqramları) sahədə əməkdaşlığın dərinləşdirilməsi və regionda Çinin dəstəyi ilə qüvvələr balansının qorunub saxlanılması;

– ABŞ ilə müttəfiqlik münasibətlərinin daha da inkişaf etdirilməsi;

– Hindistan ilə siyasi dialoqun davam etdirilməsi və regionda nüvə qarşıdurmasına yol verməmək;

– Mərkəzi Asiya respublikaları ilə iqtisadi müstəvidə münasibətlərin genişləndirilməsi və Transəfqan neft-qaz kəmərinin çəkilişinin reallaşdırılması;

– Pakistan-Azərbaycan münasibətlərinin inkişafına (xüsusilə hərbi-texniki və iqtisadi sahələrdə) önəm vermək;

Göstərilən bu istiqamətlərdə ciddi uğurların əldə ediləcəyi təqdirdə Pakistanın geosiyasi və geoiqtisadi əhəmiyyəti daha da artmış olacaq ki, bu da sonda onun beynəlxalq münasibətlər sistemində rolu və nüfuzuna müsbət təsir göstərəcəkdir.

## SUMMARY

This book studies the role and place of İslamic Republic of Pakistan in the contemporary international relations system. İt examines the factors influencing the formation of the strategy and main directions of Pakistan's foreign policy. İn this connection there were made attempts to consecrate the following problems:

– To research the main priorities of Pakistan's contemporary foreign policy;

– To consecrate the activity of Pakistan diplomacy at the end of XX-at the beginning of XXIst centures in the regional and global level;

– To study the growing role of Pakistan in the New World Order after September of 11 events;

– To research the future role and position of Pakistan in the world;

Chapter I studies the nature of relations of Pakistan with its close neighbours: İran, Afghanistan and China. Chapter specially concentrates on the problems in the bilateral relations (such as "Greater Pushtunistan" (Afghanistan), clashing of different ideologies and etc.). At the same time other aspect of bilateral relations – existence of common interests is consecrated too (such as struggle against terrorizm, illegal drugs trafficking and radical movements, economic and military cooperation with regional states). Special attention was given to the relations with China. Both countries are allies in such matters as containtment of İndia, supporting each other in Taiwan and Kashmir problems, multi-polar world idea.



Chapter II examines the Pakistan-US allyship, the reasons and factors which transformed bilateral relations into allyship. The allyship with US was and still is a vital for Pakistan diplomacy because of the rivalry with İndia which indices are higher in all spheres than Pakistan (which compel İRP to rely on external factors in order to keep equal level of rivalry). The other point of the chapter studies the new stage in bilateral relations which emerged as a result of September of 11 events and following military operation in Afghanistan.

Chapter III studies Pakistan-İndia relations – the main and decisive direction of Pakistan foreign policy during last 60 years. 90s can be characterized as time of growing tension in bilateral relations (for example Kashmir revolt in 1990, nuclear tests in 1998, Kargil crisis in 1999) and at the same time intensity of efforts to solve this tension by peaceful ways (Lahore Declaration 1999, Aghra summit 2001). Besides that chapter covers other actual matters – the possible solution versions of Kashmir problem, the factors obstacle this solution, researching of possibility of the new – fourth war between these neighbours.

Chapter IV includes the analysis of the new direction of Pakistan diplomacy – to establish close links with newly independent Muslim republics, specially Central Asia republics and Azerbaijan. The importance of Central Asia republics for Pakistan must be explained by their rich natural resources. Chapter covers bilateral connections with each Central Asia republic and in this context main attention is given to the economic project – Transafghan Gas Pipeline (TAP).

Other point of the chapter is the Pakistan-Azerbaijan relations. The establishing of diplomatic relations, mutual official visits, cooperation in the framework of the international organizations (Maybe few people know that the UN's first resolution over Daglig Garabakh problem – resolution № 822 was passed in the Council of Security un-

der chairmanship of Pakistan), military and economic co-operation forms the substance of these relations. What does Pakistan-Azerbaijan allyship promise for both sides? First for Azerbaijan: Pakistan is one of the few states which unanimously supports our position in DG problem, recognizing Armenia as agressor and demanding to release the occupied territories. But in order to release our territories and strengthen our republic's sovereignty we need the strong army. And in this matter Pakistan is our natural ally with its powerful army (III place in the region after Turkey and İran) and military experience (gained in İndian wars and in I afgan campaign). Special attention must be given to the formation of special units like in Georgia. İn its turn Pakistan is interested in the cooperation with Azerbaijan mainly because our country possesses rich oil and gas resources and of course this factor attracts Pakistan which is poor by natural resources. We hope that for the future our relations will develop in all spheres, but mainly in economic and military spheres.

The conclusion concentrates on the main foreign policy purposes and directions of Pakistan for the next future –at the beginning of XXIst century. İt must be noted that in the final analysis implementation of these purposes will raise the role and position of Pakistan in the contemporary international relations system.



## *MÜƏLLİF HAQQINDA*

*İsabəyli Anar Qəşəm oğlu 1981-ci il noyabrın 8-də Quba şəhərində anadan olmuşdur.*

*1998-ci ildə Bakı şəhər Bakıxanov qəsəbəsindəki 271 saylı orta məktəbi bitirmiş, həmin ildə Bakı Dövlət Universiteti "beynəlxalq hüquq və beynəlxalq münasibətlər" fakültəsinin "beynəlxalq münasibətlər" kafedrasına qəbul olunmuşdur. 2002-ci ildə oranı bakalavr, 2004-cü ildə isə magistr ali dərəcəsi ilə bitirmişdir. "Şirvannəşr" Kitab Nəşriyyatında redaktor işləyir.*

*Rus və ingilis dillərini bilir.*

*Pakistan İslam Respublikasının müasir beynəlxalq münasibətlər sistemində yeri və roluna dair 5 məqalənin müəllifidir.*

*"Pakistan müasir beynəlxalq münasibətlər sistemində" adlı monoqrafiya müəllifin bu sahədə ilk böyük tədqiqat əsəridir.*

***Anar Qəşəm oğlu İsabəyli***

**Pakistan müasir beynəlxalq münasibətlər sistemində**

*(monoqrafiya)*

***«Bakı Universiteti» nəşriyyatı – 2005***



Çapçı ***Rüxsarə Hüseynli***

Cild sexinin müdiri
***Həmiyyə Heydərova***

Ofset üzrə çapçı ***Ceyhun Xan***

Çapa imzalanıb ***07.03.2005.***
Formatı ***60x84 1/16.***
Fiziki çap vərəqi ***9,5.***
Sayı ***300.***

---

***Kitab «Şirvannəşr»in mətbəəsində çap edilmişdir.***
***Ünvan: Bakı – AZ 1021, Badamdar şos. 77***
***Tel.: 492-92-27, 492-93-72, 434-70-94, (850) 316-23-40***